RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 265 (9432) 5 DEKABR 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Təşəbbüs yenə İlham Əliyevdədir

Azərbaycanın sədrliyi müddətində GUAM-ın beynəlxalq mövqeyi daha da möhkəmlənib. Sədr və üzv dövlətlərin birgə səyləri nəticəsində təşkilatın regional əhəmiyyəti yüksəlib və ona beynəlxalq dəstək güclənib. Həmçinin Azərbaycan sədr ölkə kimi üzvlərin ümumi maraqlarının uyğunlaşdırılması və təşkilat daxilində əməkdaşlıq sisteminin inkişaf etdirilməsi vəzifəsini də layiqincə yerinə yetirib.

Ötən dövrlərdə uğurlu sədrlik təcrübəsi Azərbaycanın növbəti ildə də GUAM-a sədrliyi müddətində qarşıya qoyulmuş başlıca strateji istiqamətlərə xüsusi diqqət yetirəcəyinə və öhdəliklərini ən yaxşı şəkildə icra edəcəyinə əminlik yaradır. Prezident İlham Əliyevin irəli sürdüyü təkliflərin beynəlxalq miqyasda yüksək səviyyədə qəbul edildiyi bir dövrdə Azərbaycanın təşkilata sədrliyi daha mühüm töhfələr verəcək.

Xüsusilə Vətən müharibəsində və bu ilin sentyabrında həyata keçirilmiş antiterror tədbirlərində əldə etdiyimiz qələbələr nəticəsində ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş bir dövlət kimi Azərbaycanın regiondakı nüfuzu daha da artır. Ona görə də Azərbaycanın GUAM təşkilatına növbəti bir illik sədrliyinin kifayət qədər səmərəli və fəal olacağına şübhə yoxdur.

→ 10

## Ağ Evin Azərbaycan qərəzi və rəzaləti



ABŞ tarixində korrupsiya, rüşvət və digər dövləti cinayətlərdə günahlandırılan prezidentlər yetərincədir. Əslində, daha dəqiq desək, bu ittihama məruz qalmayan ABŞ Prezidenti yoxdur!

Ancaq Co Baydenin hakimiyyəti illərində bu ittihamlar daha intensiv hal alıb. Ən maraqlısı da odur ki, əgər Baydenin sələfləri daha çox vasitəçilərlə rüşvət qəbul edirdilərsə, Bayden qanunsuz ödəmələri birbaşa özü və ailəsi tərəfindən alır. Özü də çəkinmədən, həm də daha iri məbləğdə, davamlı olaraq… İnternet resurslarından Bayden ailəsinin, xüsusən oğlunun korrupsioner əlaqələri barədə minlərlə informasiya əldə etmək mümkündür.

ABŞ mediası bizim şəkililər kimi hər məşhur adama bir ayama, ləqəb qoyur. Onilliklər boyu Baydeninin də ləqəbi çox olub, ən məşhuru isə "sarsaq qoca"dır. Bu, indi ona aid edilən yeganə ayamadır. ABŞ qəzetləri prezidentlərini belə adlandırırlar. Ancaq dünya mediası Baydeni "sarsaq qoca" yox, "kriminal ailə başçısı" kimi təqdim edir.

Bayden dünya mediasında yalnız psixi durumu, müəmmalı davranışları, hər gün törətdiyi növbəti rəsmi protokol qalmaqalı ilə deyil, həm də ailəsinin və şəxsən özünün cinayətləri ilə manşetləri "bəzəyir".

Baydenlər "zəngin" kriminal keçmişə və müasir cinayətkar fəaliyyətə malikdir. Bu ailənin kriminal "inciləri" ən məşhur mafiya, narkobaron ailələrinin cinayətləri ilə yarışmağa hazırdır.

Bu barədə qlobal media resurslarında yüz minlərlə istinadlar, danılmaz faktlar, aşkar sübutlar var. Bu faktların içində həm də məişət pozğunluğu, zorlama, pedofeliya, ailədaxili təcavüz kimi cinayətlər də var ki, bunlar ABŞ hakimiyyətinin əsl mahiyyətini, mənəvi iyrəncliyini real göstərir.

→ 3

## "Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanda səfir təyin olunmağımdan şərəf hissi duyuram"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Malayziyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ahmad Kamrizamil Bin Mohd Rzanın etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.**

→ 2



## Dövlət maliyyəsinin idarəedilməsi: islahatlar və yeniliklər

Ulu Öndərin siyasətinin Prezident İlham Əliyev tərəfindən ötən 20 il ərzində uğurla davam etdirilməsi və islahatların müvəffəqiyyətlə reallaşdırılması nəticəsində Azərbaycan beynəlxalq birliyin etibarlı tərəfdaşına, regionun lider dövlətinə çevrilmiş, eyni zamanda ölkəmizin siyasi imicinin və iqtisadi potensialının güclənməsi təmin edilmiş, bütün sahələrdə dayanıqlı və dinamik inkişafın əldə olunması üçün zəmin yaradılmışdır. Hətta əvvəlcədən proqnozlaşdırılması çətin olan hadisələr zamanı vətəndaşların sosial rifahının möhkəmləndirilməsi, həmçinin dövlətin iqtisadi gücünün qorunması istiqamətində möhtərəm cənab Prezident tərəfindən düşünülmüş siyasət və tədbirlər həmin proseslərin inkişaf etmiş bir çox ölkələrlə müqayisədə daha az ağrı ilə yaşanmasına imkan vermişdir.

Müasir dünyada baş verən siyasi, iqtisadi proseslər, qlobal rəqabət meyillərinin hər gün sürətli şəkildə artan təzahürləri və geosiyasi çəkişmələr hər bir dövləti müəyyən olunmuş məqsədlərə nail olunması üçün öz resurslarını səfərbər etməyə və bu resurslardan daha rasional istifadə olunmasına sövq edir.

→ 6

## Mənfur siyasətin ruporu

### "The Washington Post" çirkin əməllərin daşıyıcısıdır

Bu gün Amerikanın Azərbaycana münasibətində tamamilə düşmən mövqeyi görürük. Çünki istər Amerika Konqresi, istərsə də bir çox rəsmi nümayəndələr son aylar Azərbaycan əleyhinə tamamilə yanlış mövqedən çıxış edirlər. Onlar Ermənistana maliyyə vəsaiti ayıraraq, onu silahlandıraraq Cənubi Qafqazda müharibəni yenidən alovlandırmaq fikrindədirlər. Sözsüz ki, bu məqsədlə Ermənistan kartından istifadə edirlər. "The Washington Post" da məhz bu çirkin əməllərin daşıyıcısıdır. Çünki Azərbaycan torpaqları 30 il işğal altında qaldığı, bir milyondan çox qaçqınımız illər boyu əzab-əziyyət çəkdiyi zaman nə bu mətbu orqan, nə də Amerikanın rəsmi dairələri Azərbaycan haqqında, haqlı tələblərimizlə bağlı bir kəlmə də dilə gətirdilər, əksinə, təcavüzkarı - Ermənistanı müdafiə etmək mövqeyində durdular.

→ 7

## Azərbaycan XİN Ermənistan tərəfinin açıqlamasını qətiyyətlə rədd edib

**Ermənistan Xarici İşlər Nazirliyinin, guya, Azərbaycan tərəfinin açdığı atəş nəticəsində erməni hərbçisinin həlak olması ilə bağlı iddianın əks olunduğu 2023-cü il 4 dekabr tarixli açıqlamasını qətiyyətlə rədd edirik. AZƏRTAC xəbər verir ki, bu fikirlər sözügedən açıqlamaya dair Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) şərhində yer alıb.**

Bildirilib ki, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi qeyd edilən dezinformasiya xarakterli, iftira dolu iddianı təkzib edib və Ermənistan tərəfinin yaydığı məlumatın həqiqətə uyğun olmadığını bəyan edib.

"Ermənistan tərəfinin bu yalan açıqlaması silahlı qüvvələrində baş verən özbaşınalığı və hərc-mərcliyi ört-basdır etmək niyyəti daşıyır. Sülh sazişi üzrə təklifləri 70 gündən artıq müddətdə yubadan Ermənistan tərəfi indi də bu cür pozucu açıqlamaları ilə normallaşma prosesinin perspektivlərinə xələl gətirir.

Ermənistan tərəfi bu kimi açıqlamalarla həmçinin sərhəd bölgələrində süni gərginlik yaratmaq və üçüncü dövlətlərin diqqətini cəlb etmək məqsədi güdür.

Azərbaycan öz tərəfindən postmünaqişə mərhələsində sülh və quruculuq səylərini davam etdirəcək və bu prosesə qarşı yönələn hər hansı addımların qarşısını qətiyyətlə alacaqdır", - deyə Azərbaycan XİN-in şərhində vurğulanıb.

## Köhnə hamam, köhnə tas...

### ABŞ əli çatmayana ədalətsiz tribunası olan mətbuatla qara yaxır

Azərbaycana qarşı yazını sifariş edənlər sadəcə Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin əldə etdiyi qələbəni və iqtidar-xalq birliyini həzm edə bilmirlər: "ABŞ-nin "demokratiya carçıları" digər ölkələrdə siyasi sabitliyi pozmağa və ölkələri xaosa sürükləməyə öyrəşiblər. Azərbaycana gələndə isə onların çirkin planları ayaq tutub yeriyə bilmədiyinə görə öz mətbuatlarında qarayaxma kampaniyasını davam etdirirlər".

Kim pul verib yazı sifariş edirsə, bu qəzet əsaslandırma aparmadan həmin yazıların yayımını təşkil edir: "Təbii ki, ölkəmizin əleyhinə yönəlmiş belə yazılar onların Azərbaycana qarşı münasibətini göstərməsindən başqa bir şey deyil.

→ 7

## "Ağ Ev ölkələrə qara yaxmağa adət edib"

Ermənistanda baş verən kəskin siyasi proseslərə heç bir reaksiya vermədikləri halda yalnız Azərbaycanı hədəfə almaları onların niyyətinin sağlam olmadığını sübut edir. Bu gün Paşinyan bütün siyasi həmfikirlərinə qarşı təzyiqlər göstərir, orada siyasi motivli həbslərin sayı çoxdur. Lakin buna baxmayaraq, Paşinyan demokrat kimi təqdim olunur.

ABŞ-nin "demokratiya"sı heç bir müsəlman ölkəsinə uğur gətirməyib: "Əfqanıstanda, İraqda, eləcə də Suriyada baş verənlərin günahını və məsuliyyətini birbaşa ABŞ daşıyır. Ona görə də bu ölkənin bizə ağıl öyrətməyə haqqı yoxdur. ABŞ öz işləri ilə məşğul olsa, daha yaxşıdır".

→ 7

## Azadlıqdan dəm vuran "Freedom House"un özü azad deyil

"Qlobal demokratiya və azadlıqlar indeksi", "İnternet azadlığı indeksi" və digər bu kimi hesabatlar təşkilatın veb-səhifəsində yerləşdirilib. Ayrı-ayrı ölkələrin "azad", "yarımazad" və "qeyri-azad" kateqoriyalar üzrə təsnifatlaşdırıldığı bu hesabatlar hər il olduğu kimi, bu dəfə də ciddi etirazlara səbəb olub. Hesabatla elə ilk tanışlıqdan hiss olunur ki, təşkilatın apardığı "tədqiqatlar", "təhlillər" elmi metodologiyalardan daha çox, siyasi baxışlara söykənib. Əgər belə olmasaydı, reallığı əks etdirər, həqiqətə güzgü tutardı. Burada diqqəti çəkən məqam odur ki, hesabatın hətta preambula hissəsində Çinin, Rusiya və İranın adları çəkilir.

→ 7

# “Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanda səfir təyin olunmağımdan şərəf hissi duyuram”

*Əvvəli 1-ci səh.*

Ahmad Kamrizamil Bin Mohd Rza Malayziyanın Kralı Əlahəzrət əl-Sultan Abdullah Riayatuddin əl-Mustafa Billah Şah ibni əl-Mərhum Sultan Hacı Əhməd Şah əl-Mustain Billahın və Malayziyanın Baş naziri Ənvər İbrahimin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Malayziyanın Kralına və Baş nazirinə çatdırmağı xahiş etdi.

Siyasi münasibətlərimizin yüksək səviyyədə olduğunu deyən dövlətimizin başçısı əlaqələrimizin daha da fəallaşdırılmasının və əməkdaşlığımızın yeni istiqamətlərinin, o cümlədən investisiya, qarşılıqlı ticarət, humanitar sahələrdə müəyyənləşdirilməsinin zəruriliyini bildirdi.

Beynəlxalq institutlar çərçivəsində əməkdaşlığımızdan məmnunluğunu ifadə edən Prezident İlham Əliyev BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatında ölkələrimizin bir-birini dəstəkləməsinin önəmini vurğuladı və bunu qardaşlıq əlaqələrimizin yaxşı nümunəsi kimi dəyərləndirdi.

Dövlətimizin başçısı eyni zamanda iqtisadi əlaqələrin genişləndirilməsinin də vacibliyinə toxunaraq qarşıdan gələn illərdə nazirlər, hökumət nümayəndələri, biznes dairələri arasında qarşılıqlı səfərlərin təşkilinin bu işə xidmət edə biləcəyini dedi. Prezident İlham Əliyev səfirin Azərbaycanda fəaliyyəti dövründə bu istiqamətdə səylərini əsirgəməyəcəyini qeyd edərək ona işində uğurlar arzuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi, turizm, ticarət və digər sahələrdə əlaqələrin möhkəmlənəcəyinə ümidvarlığını ifadə etdi.



Diplomat bildirdi ki, Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanda səfir təyin olunmasından şərəf hissi duyur. O, dövlətimizin başçısının çox xarizmatik və uzaqgörən bir Lider olduğunu vurğuladı.

Ahmad Kamrizamil Bin Mohd Rza əlaqələrimizin genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Söhbət zamanı ölkələrimiz arasında turizm sahəsində əməkdaşlıq, mədəni-humanitar münasibətlərin genişləndirilməsi məsələləri müzakirə olundu, birbaşa aviareyslərin həyata keçirilməsi, Azərbaycan-Malayziya iqtisadi əlaqələrinin genişləndirilməsi üçün hökumətlərarası komissiyanın yaradılması məsələlərinə toxunuldu.

## Suqovuşan-Sərsəng su anbarı-Qozlukörpü-Kəlbəcər avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Səksən kilometr uzunluğu olan Suqovuşan-Sərsəng su anbarı-Qozlukörpü-Kəlbəcər avtomobil yolunun yenidən qurulması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 yanvar tarixli 3720 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.25-ci yarımbəndində göstərilmiş məbləğin 17,0 (on yeddi) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2023-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 14 iyul tarixli 980-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765, № 9, maddə 1650, № 10, maddə 1789, № 12 (I kitab), maddələr 2314, 2321; 2018, № 1, maddə 54, № 2, maddələr 200, 219, № 3, maddələr 416, 430, 448, № 5, maddələr 916, 919, № 6, maddə 1243, № 9, maddələr 1828, 1840, № 11, maddələr 2274, 2289, № 12 (I kitab), maddələr 2540, 2587, 2601; 2019, № 1, maddə 82, № 2, maddə 216, № 3, maddə 431, № 4, maddə 620, № 5, maddələr 819, 824, 835, 866, № 7, maddə 1221, № 8, maddə 1388, № 10, maddələr 1581, 1587, № 11, maddələr 1700, 1710; 2020, № 3, maddə 252, № 5, maddələr 538, 564, № 6, maddələr 710, 714, № 7, maddələr 865, 880, № 8, maddə 1032, № 11, maddə 1345, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 33, № 6 (I kitab), maddə 566, № 8, maddə 921, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 305, 306, 323, 329, № 7, maddə 728, № 10, maddə 1146, № 11, maddələr 1251, 1267, 1269; 2023, № 1, maddələr 66, 97, № 3, maddələr 346, 375, № 4, maddələr 472, 483, 505, № 6, maddə 795, № 7, maddələr 946, 953, № 8 (I kitab), maddələr 1139, 1166, 1172, 1179, 1180, № 9, maddə 1284) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na aşağıdakı məzmunda 9-1-ci hissə əlavə edilsin:

"9-1. Məcəllənin 184.7-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol:

9-1.1. inzibati xətanı aşkar etmiş Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası adından - Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri;

9-1.2. vergi nəzarəti zamanı aşkar edildiyi hallarda Dövlət Vergi Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından - bu Siyahının 32.1-ci bəndində nəzərdə tutulan vəzifəli şəxslər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2023-cü il*

## "Azərbaycan Respublikasının Energetika Nazirliyi və Çin Xalq Respublikasının Milli Enerji Administrasiyası arasında energetika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2023-cü il oktyabrın 17-də Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikasının Energetika Nazirliyi və Çin Xalq Respublikasının Milli Enerji Administrasiyası arasında energetika sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Energetika Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çin Xalq Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 4 dekabr 2023-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 430** QƏRAR **Bakı şəhəri, 2 dekabr 2023-cü il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 386 nömrəli Qərarı ilə təsdiq edilmiş “ASAN müraciət” informasiya sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 may tarixli 2151 nömrəli Fərmanının 5.2-ci bəndinin icrasını təmin etmək məqsədiləAzərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 386 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1511; 2022, № 12, maddə 1557; 2023, № 6, maddə 839) ilə təsdiq edilmiş "ASAN müraciət" informasiya sistemi haqqında Əsasnamə"yə əlavə "ASAN müraciət" informasiya sisteminin fəaliyyətində iştirak edən qurumların Siyahısı"na aşağıdakı məzmunda 13-cü sətir əlavə edilsin:

| | |
|---|---|
| 13. | Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 431** QƏRAR **Bakı şəhəri, 2 dekabr 2023-cü il**

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 17 iyul tarixli 229 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi qaydaları”nda dəyişiklik edilməsi haqqında

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 861-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 19 iyun tarixli 729 nömrəli, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 may tarixli 539-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 19 iyun tarixli 729 nömrəli və "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" 2021-ci il 17 aprel tarixli 1315 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 5 iyul tarixli 1738 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2145 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 17 iyul tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 1068) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 5.1-ci bənddə "yerləşdirilir" sözü "yerləşdirilməsi təmin edilir" sözləri ilə əvəz edilsin.

2. 7.5-ci bənddə "yerləşdirilməsi təmin olunur" sözləri "yerləşdirilməsini təmin edir" sözləri ilə əvəz edilsin.

3. Aşağıdakı məzmunda 8.4.3-1-ci yarımbənd əlavə edilsin:

"8.4.3-1. kritik informasiya infrastrukturunun təhlükəsizliyi üzrə tələblərə riayət olunmasını kritik informasiya infrastrukturu subyektindən tələb etmək;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 432** QƏRAR **Bakı şəhəri, 2 dekabr 2023-cü il**

### “Fövqəladə vəziyyət haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Fövqəladə vəziyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 824-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Fövqəladə vəziyyət rejiminin təmin olunmasında iştirak etmiş şəxslərin qeydiyyata alınması qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 2 sentyabr tarixli 120 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 9, maddə 738; 2016, № 9, maddə 1585; 2020, № 6, maddə 807) aşağıdakı dəyişikliklər edilsin:

1.1. preambulaya "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Fövqəladə vəziyyət rejiminin təmin olunmasında iştirak etmiş şəxslərin qeydiyyata alınması Qaydası"nın 1-ci hissəsində hər iki halda və 3-cü hissəsində "Fövqəladə vəziyyət haqqında" sözləri "Fövqəladə vəziyyət və sosial xarakterli fövqəladə mühit haqqında" sözləri ilə əvəz edilsin.

2. "Fövqəladə vəziyyətin tətbiqi üçün əsas olmuş hallar nəticəsində və ya həmin halların, yaxud onların nəticələrinin aradan qaldırılması üçün müvafiq tədbirlərin tətbiq edilməsi ilə əlaqədar zərər çəkmiş şəxslərə yaşayış yerlərinin verilməsi, dəymiş maddi zərərin ödənilməsi, işə düzəlmək üçün yardım və digər zəruri köməklik göstərilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 fevral tarixli 32 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 132; 2020, № 11, maddə 1415; 2021, № 3, maddə 274) aşağıdakı dəyişikliklər edilsin:

2.1. preambulaya "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Fövqəladə vəziyyətin tətbiqi üçün əsas olmuş hallar nəticəsində və ya həmin halların, yaxud onların nəticələrinin aradan qaldırılması üçün müvafiq tədbirlərin tətbiq edilməsi ilə əlaqədar zərər çəkmiş şəxslərə yaşayış yerlərinin verilməsi, dəymiş maddi zərərin ödənilməsi, işə düzəlmək üçün yardım və digər zəruri köməklik göstərilməsi Qaydası"nın 1.1-ci bəndinə "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

3. "Fövqəladə vəziyyətin tətbiqinə səbəb olmuş şəraitin aradan qaldırılması ilə əlaqədar dövlət tərəfindən cəlb olunan ehtiyatların həcmi, aparılan işlərin maliyyələşdirilməsinin və maddi-texniki təminatının ölçüləri və qaydası, o cümlədən fövqəladə vəziyyətin tətbiqinə səbəb olmuş şərait nəticəsində zərər çəkmiş vətəndaşlara sosial ödənişlərin və kompensasiyaların, eləcə də fövqəladə vəziyyət şəraitində tətbiq olunan digər tədbirlərin görülməsi ilə əlaqədar sakinlərin müvəqqəti olaraq təhlükəsiz rayonlara köçürülməsi tədbirlərinin maliyyələşdirilməsi qaydası, əmlak və resursları sərf olunan təşkilatlara dəymiş zərərin ödənilməsi qaydası və məbləğinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 24 iyun tarixli 120 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 556; 2006, № 9, maddə 822; 2021, № 3, maddə 272; 2022, № 5, maddə 577) preambulasına "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

4. "Qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin yerinə yetirilməsi və təmin edilməsi üçün səfərbər olunmuş şəxslərə əməyə görə ödəniş verilməsi Qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 24 iyun tarixli 121 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 557; 2007, № 2, maddə 185; 2009, № 10, maddə 857) preambulasına "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 15 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 181; 2014, № 6, maddə 747; 2016, № 9, maddə 1585; 2019, № 1, maddə 163, № 7, maddə 1333; 2022, № 4, maddə 386) ilə təsdiq edilmiş "Fövqəladə vəziyyət şəraitində rabitədən istifadə üçün xüsusi Qaydalar"ın 1.1-ci bəndinə (birinci halda) "vəziyyət" sözündən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 13 yanvar tarixli 8 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 1, maddə 129, № 6, maddə 850) ilə təsdiq edilmiş "Fövqəladə hallarda, pandemiya və bu kimi xüsusi vəziyyətlərdə uşaqların təhsilə, sosial və digər xidmətlərə təhlükəsiz çıxışında bərabərliyin təmin edilməsi Qaydası"nın 1.3.1-ci, 2.3.4-cü yarımbəndlərinə, 3.3-cü bəndinə və "Qeyd" hissəsinin birinci cümləsinə "Fövqəladə vəziyyət" sözlərindən sonra "və sosial xarakterli fövqəladə mühit" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Ağ Evin Azərbaycan qərəzi və rəzaləti

***Y**üksəkvəzifəli rəsmisinin timsalında Azərbaycan Prezidentindən münasibətləri normallaşdırmağı xahiş etdikdən və bu ricasına müsbət cavab aldıqdan cəmi bir neçə gün sonra ABŞ ölkəmizə qarşı yalan və böhtan kampaniyasını dayandırmadı. Gülünc yaddaşsızlığı, divara baxıb danışmağı bir yana, artıq ciddi psixoloji fəsadları ilə diqqət mərkəzinə gələn Prezident Baydenin rəhbərlik etdiyi bu dövlət öz xarici siyasətində də eyni tərzi nümayiş etdirir. Özünü idarə edə bilməyən bir Prezidentin administrasiyasının fəaliyyətində də sistemsizlik, dövlət maraqlarının lobbi mənafelərinə qurban verilməsi, psixoloji aqressiya, sadə dillə desək, siyasi korluq kimi hallar indi daha da artıb.*

*Dünyada cinayətkarlığın, korrupsiyanın dövlət aparatında ən çox yayıldığı bu ölkənin bütün fəaliyyəti ayrı-ayrı siyasi və biznes dairələrinin mənfəətlərinin ödənməsinə yönəlib. Avropanın enerji təminatı, Yaxın Şərqdə sabitlik, qlobal təhlükəsizlik məsələlərində Azərbaycanla tərəfdaşlıq ABŞ-nin dövləti marqalarını əks etdirsə də, adminstrasiyanın korrupsiya mənfəəti onu rəsmi Bakı ilə düşmənçiliyə sövq edir.*

*Qlobal korrupsiya şəbəkəsi yaradan, narkomanlıqda və zorlamada rəsmən ittiham olunan Bayden ailəsi, lobbilər tərəfindən maliyyələşdikləri ifşa edilən Ağ Ev rəsmiləri, xarici şirkətlər tərəfindən rüşvət almaları təsdiq olunan senator və konqresmenlər ABŞ-nin əsl simasını, mahiyyətini, əxlaqını və ən əsası, fəaliyyət yönümünü bütün çılpaqlığı ilə nümayiş etdirir!*

*Yerli xalqların kütləvi soyqırımı üzərində qanla təməli qoyulan, əsrlər boyu on milyonlarla insanın məhvinə, onlarla dövlətin süqutuna, çoxsaylı savaşların başlanmasına səbəb olan Ağ Evin zülmət tarixçəsində Azərbaycana qarşı qərəzi və rəzaləti, əlbəttə ki, nə ilkdir, nə də sonuncu…*

## ABŞ Azərbaycanı öz ərazi bütövlüyünü bərpa etməkdə günahlandırır

ABŞ siyasi dairələrinin məkrli siyasətlərinin əsas ruporlarından olan "Vaşinqton Post" qəzetində Azərbaycana qarşı qərəzli, ölkə rəhbərliyini hədəfə alan məqalənin dərc olunması birinci hal deyil. Azərbaycan hər dəfə uğura imza atanda Dövlət Departamentinin sifarişi ilə "Vaşinqton Post" və onun kimi digər mediada ölkəmizə qarşı belə hücumlar təşkil olunub.

Son aylarda ABŞ-dən artan belə hücumların səbəbi Azərbaycanın torpaqlarını işğaldan azad etməsi, Qarabağda erməni separatizminə son qoymasıdır. Bayden hakimiyyəti Azərbaycanın öz əraziləri üzərində suverenliyini bərpa etməsi ilə heç cür razılaşa bilmir və Bakıdan ermənilərin intiqamını almağa çalışır. Ötən ay ABŞ Nümayəndələr Palatasının Xarici işlər komitəsinin Avropa üzrə alt komitəsində absurd teatr səhnəsini xatırladan dinləmələrin keçirilməsi, Bayden Administrasiyasının təhriki ilə anti-Azərbaycan, korrupsiyaçı, islamofob senatorların saxta məlumatları əsasında ABŞ Senatının "2023-cü il erməniləri müdafiə aktı" qəbul etməsi, bədnam "907-ci düzəliş"in yenidən qüvvəyə minməsi aydın göstərir ki, Ağ Ev Azərbaycanın öz milli haqqını bərpa etməsi ilə barışa bilmir.

Konkret desək, ABŞ Azərbaycanı öz ərazi bütövlüyünü bərpa etməkdə günahlandırır, Prezident İlham Əliyevin müstəqil siyasətini həzm edə bilmir və ona qarşı belə çirkin kampaniya, materiallar təşkil edir. "Vaşinqton Post" qəzetində dərc olunan məqalə də bu siyasətin növbəti təzahürüdür.

Əslində, ABŞ-nin Azərbaycana qarşı qərəzinin bu səviyyəyə çatması anlaşılandır. Söhbət ondan gedir ki, Fransada olduğu kimi Amerikanın siyasi dairələrinin də erməni, lobbisi ilə həm də korrupsioner əlaqələri var. Bu səbəbdən Bayden hakimiyyəti erməni lobbisinin güclü təsiri altındadır və onun oyuncağına çevrilib.

## ABŞ-də "sarsaq qoca", dünyada "kriminal ailə başçısı"...

ABŞ-nin sabiq dövlət başçısı Donald Trampın seçkiöncəsi etirafı vardı: "Biz korrupsiyalaşmış dövlət aparatına, rüşvətxor məhkəmə-hüquq sisteminə, saxtakar seçki prosesinə, fırıldaqçıların əlaltısı olan KİV-ə qarşı mübarizə aparırıq və qələbə çalmaqla onları aradan qaldıracağıq". Ancaq Tramp bunu bacarmadı, çünki qarşısında böyük cinayətkar şəbəkə, geniş korrupsiya maşını - dövlət aparatı vardı.

ABŞ tarixində korrupsiya, rüşvət və digər dövlət cinayətlərində günahlandırılan prezidentlər yetərincədir. Əslində, daha dəqiq desək, bu ittihama məruz qalmayan ABŞ Prezidenti yoxdur!

Ancaq Co Baydenin hakimiyyəti illərində bu ittihamlar daha intensiv hal alıb. Ən maraqlısı da odur ki, əgər Baydenin sələfləri daha çox vasitəçilərlə rüşvət qəbul edirdilərsə, Bayden qanunsuz ödəmələri birbaşa özü və ailəsi tərəfindən alır. Özü də çəkinmədən, həm də daha iri məbləğdə, davamlı olaraq… İnternet resurslarından Bayden ailəsinin, xüsusən oğlunun korrupsioner əlaqələri barədə minlərlə informasiya əldə etmək mümkündür.

ABŞ mediası bizim şəkililər kimi hər məşhur adama bir ayama, ləqəb qoyur. Onilliklər boyu Baydeninin də ləqəbi çox olub, ən məşhuru isə "sarsaq qoca"dır. Bu, indi ona aid edilən yeganə ayamadır. ABŞ qəzetləri prezidentlərini belə adlandırırlar. Ancaq dünya mediası Baydeni "sarsaq qoca" yox, "kriminal ailə başçısı" kimi təqdim edir.

Bayden dünya mediasında yalnız psixi durumu, müəmmalı davaranışları, hər gün törətdiyi növbəti rəsmi protokol qalmaqalı ilə deyil, həm də ailəsinin və şəxsən özünün cinayətləri ilə manşetləri "bəzəyir".

Baydenlər "zəngin" kriminal keçmişə və müasir cinayətkar fəaliyyətə malikdirlər. Bu ailənin kriminal "inciləri" ən məşhur mafiya, narkobaron ailələrinin cinayətləri ilə yarışmağa hazırdır.

Bu barədə qlobal media resurslarında yüz minlərlə istinadlar, danılmaz faktlar, aşkar sübutlar var. Bu faktların içində həm də məişət pozğunluğu, zorlama, pedofeliya, ailədaxili təcavüz kimi cinayətlər də var ki, bunlar ABŞ hakimiyyətinin əsl mahiyyətini, mənəvi iyrəncliyini real göstərir.

## ABŞ-nin ən məşhur cinayətkarı Bayden ailəsinə mənsubdur

Bayden ailəsi ilə bağlı yazılan və deyilənlərə istinad etməyəcəyik. Yalnız istintaq materiallarına çevrilən, hüquqi araşdırmalara diqqət ayıracağıq. Məsələn, Co Baydenin artıq ABŞ-nin "ən məşhur cinayətkarı" adını alan oğlu Hanterə qarşı Cinayət Məcəlləsinin azı 20 maddəsi ilə ittiham irəli sürülüb.

Barak Obamanın hakimiyyət illərində ABŞ vitse-prezidenti olan Baydenin oğlu Hanter Ukraynada nüfuz lobbiçiliyi vasitəsilə milyonlarla dollar qanunsuz vəsait qazanıb. Məsələn, o, ən böyük müstəqil qaz istehsalçısı olan "Burisma Holdings"dən beş il ərzində 3-5 milyon dollar arasında vəsait mənimsəyib. Eyni zamanda ABŞ-dəki təsir vasitələrindən istifadə edərək kredit anlaşması adı ilə on milyonlarla dollar vəsait əldə edib. Özü də bu prosesdə bütün tərəfləri şantajla təhdid edib. Ukraynanın kabusuna çevrilən Baydenin oğlunun qanunsuz əməlləri daha geniş miqyas alanda Ukraynanın baş prokuroru Viktor Şokin Hanter barədə cinayət işi açıb.

Bu məqamda prosesə "Xaç atası" - ata Bayden müdaxilə edir. Ukrayna rəhbərliyinə şantajları nəticəsində baş prokurorun vəzifədən azad edilməsinə nail olur.

Ukraynadakı gizli laboratoriyaları da hədəfə götürən Hanter Bayden qanunsuz nüfuz lobbiçiliyi ilə ABŞ Müdafiə Nazirliyinin podratçısı "Black&Veatch" ilə patogenlərin tədqiqi üzrə əməkdaşlıq edən "Metabiota" tibb şirkətinə ABŞ hökuməti ilə çoxmilyonluq müqavilə bağlamağa "kömək" edir. Qanunsuz pul dövriyyəsinin 50 milyon dollara yaxın olduğu barədə rəsmi məlumat verilir. Fakt aşkar olunanda istintaqı ABŞ Federal Təhqiqatlar Bürosu (FTB) öz üzərinə götürür. Lakin Co Baydenin müdaxiləsi ilə istintaqa məlum olan məlumatlar gizlədilir. Bir müddət sonra isə istintaq materialları "məxfi" qrifi ilə arxivə atılır.

Rusiya qarşısında tək qalmamaq üçün Ukrayna rəhbərliyi Bayden ailəsinin şantajlarına boyun əyir, Hanterin on milyonlarla dollar həcmində qanunsuz gəlirinə göz yumur, bu cinayətkar fəaliyyətin davamlılığına şərait yaradır…

Vitse-prezident Bayden və ailəsi Ukraynanın maliyyə resurslarını, iqtisadiyyatını beləcə dağıdır…

İllər keçir, Bayden artıq Prezident statusunda Ukraynanın çoxəsrlik dövlətçiliyini, müstəqilliyini süquta uğratmağa başlayır, onu savaşa sövq edərək məğlubiyyətə uğradır, milyonlarla ukraynalını vətənindən didərgin salır…

Amma bu dəfə yalnız Ukraynaya vurulan zərər artmamışdı, yüksələn həm də Baydenlər ailəsinin qanunsuz gəlirləri idi…

Ata və oğul Baydenlər daha on milyonlar yox, on milyardlar qazanırdı və ən azı hələ 2025-ci ilin yanvarınadək qazanacaq da…

## Çindən Baydenlərə göndərilən 5 milyonluq rüşvət

Əslində, Baydenin milyardlar qazanan oğlu elə də xüsusi ağıla, hazırlığa malik deyil. O, narkoman olduğunu aşkar etiraf edir, küçələrdə gecələdiyini gizlətmir. Məsələn, narkotikin təsiri altında olan Hanter xarab olmuş kompüterini Delaver ştatında kompüter təmiri sexinə verir. Burada isə onun növbəti cinayətləri barədə faktlar aşkar olur. ABŞ mediasına ötürülən məlumatlardan məlum olur ki, oğul Baydenin Çin şirkətlərindən milyonlarla dollar aldığını göstərən real bank sənədləri var.

Bank qeydlərində Çin dövlət şirkəti "CEFC China Energy"dən Hanter Baydenin "Hudson West" şirkətinə və "Owasco" hüquq firmasına 14 ayda 4,8 milyon dollar köçürülməsi əks olunmuşdu.

ABŞ Nümayəndələr Palatasının Nəzarət Komitəsinin sədri Ceyms Komerin araşdırması nəticəsində isə məlum olub ki, 2019-cu ildə Hanter Bayden çinli investor Li Xiang Shengdən atası Co Baydenlə ünsiyyət qurması üçün 250 min dollar alıb.

## Prezidentin narkoman oğlunu 25 ilə qədər həbs cəzası gözləyir

Baydenin oğlunun noutbukunda aşkar edilmiş elektron məktublar başqa cinayətləri də üzə çıxarıb. Atasının siyasi nüfuzundan xarici biznes sövdələşmələrində gen-bol istifadə edən Hanterin noutbukundakı 103 min mətn mesajı, 154 min elektron məktub, 2 mindən çox fotoşəkil əsasında o, narkotik vasitələrin qanunsuz dövriyyəsi və fahişəliyə cəlbetmə ilə məşğul olmaqda da şübhəli bilinib.

Prezident Co Baydenin oğlu Hanter odlu silah alarkən özü haqqında yalan ifadə verməyə görə hazırda üç maddə ilə əlavə ittiham olunur. Bu, Amerika tarixində vəzifədə olan prezidentin övladının cinayət məsuliyyətinə cəlb edilməsi ilə bağlı ilk dəfə baş verir.

Son ittihamların hər üçü H.Baydenin narkotik aludəçisi olduğu zaman odlu silah alarkən federal sənədlərdə yalan yazmasından irəli gəlir. O qeyd edib ki, qanunsuz narkotiklərdən istifadə etmir və ondan asılı deyil, baxmayaraq ki, faktiki olaraq həmin vaxt aktiv şəkildə kokaindən istifadə edirdi. Məhkəmə sənədlərinə görə, Hanter 2018-ci ilin oktyabrında Delaverdəki silah mağazasından Kolt tapançası alıb. ABŞ federal qanunları narkotikdən istifadə edərkən odlu silah saxlamağı cinayət hesab edir. Ədliyyə Nazirliyinin bəyanatında deyilir ki, təqsirli bilinərsə, H.Baydeni 25 ilə qədər həbs cəzası gözləyir.

Hanterin noutbukunda tapılan və Donald Trampın şəxsi vəkili Rudi Culianinin ictimailəşdirdiyi yazışmalar, fotoşəkillər oğul Baydenin narkotik alveri və fahişəliklə bağlı cinayət fəaliyyətlərində iştirakını təsdiqləyir. Bir çox media orqanı Hanterin qrup sekslə məşğul olması və narkotikdən istifadəsini göstərən fotoşəkillər yayımladı.

Elektron məktublardan üzə çıxan bir fakt da ABŞ prezidenti Co Baydenin oğlu Hanter Bayden qızının təhsili üçün ayrılan 20 min dolları alkoqol, narkotik və fahişələrə xərcləməsini etiraf etməsi olub. Bayden və onun şəxsi bankirləri arasında yazışmalardan aydın olur ki, 2018-ci ilin dekabrında o, narkotik və fahişələrlə bir ay ərzində əylənmək üçün qızı Meysinin kollec əmanətindən 20 min dollar götürüb. O zaman Hanterin şəxsi hesabında cəmi 44 sentin qaldığı bildirilirdi.

Media ABŞ Maliyyə Nazirliyinin sənədlərinə istinadən xəbər vermişdi ki, bank müstəntiqləri Hanter Baydeni "Şərqi Avropada seks alveri şəbəkəsi" ilə bağlı və fahişələrə ödənişlər üçün çekləri saxtalaşdırmaqda şübhəli bilirlər.

Xatırladaq ki, Co Baydenin oğlunun qalmaqallı həyatından bəhs edən "Oğlum Hanter" filmi artıq yayımlanıb. Filmin süjeti Hanterin həyatından, atası ilə münasibətindən, korrupsiyalaşmış biznesindən və pozğun həyat tərzindən ibarətdir. "Daily Mail" oxucularına filmi belə təqdim etmişdi: "Xəbərdarlıq! Bu filmdə fahişəlik, narkotik, çirkli pulların yuyulması və qohumbazlıq var".

## Qızından ata Baydenə təcavüz ittihamı

Bayden ailəsinin bir rəzaləti də böyük oğul Bo Baydenin xərçəng xəstəliyindən vəfatından sonra Hanterin qardaşının dul arvadı ilə intim münasibətlər saxlaması barədə faktların üzə çıxması oldu. Bu əlaqə ailə tərəfindən heç təkzib də olunmadı…

Təkzib olunmayan digər faktlar da var ki, bunlar elə ata Baydenin özü ilə bağlıdır…

Hələ 1993-cü ildə senator Co Baydenə qarşı keçmiş işçisi Tara Ridin tərəfindən zorlanma ilə bağlı ittiham irəli sürüldü. Bayden özünə bəraət məqsədilə bildirdi ki, huşsuzluqdan - demensiya xəstəliyindən əziyyət çəkir və hadisəni xatırlamır. ABŞ Senatının kabinetində baş verən cinsi təcavüz beləcə ört-basdır edildi.

Amma Baydenlərin ən böyük rəzaləti elə ailədaxili təcavüzlə bağlıdır…

Baydenin qızı Eşli də narkomandır və bu asılılıqdan müalicə üçün mütəmadi olaraq klinikalarda reabilitasiya keçir. 41 yaşlı Eşli öz gündəliyini "Palm Beach"dəki narkoklinikadakı palatasında döşəyin altında unudur, bundan xəbərdar olan 39 yaşlı Aime Harris adlı birisi isə onu taparaq, mediaya 40 min dollara satır.

"Fox News" telekanalı gündəlikdəki etirafları geniş müzakirəyə çıxarır. ABŞ Prezidenti Co Baydenin qızı Eşli gündəliyində bildirir ki, uşaq ikən "atamla birgə duş qəbul edirdik, bu, yəqin ki, düz hərəkət deyildi". "Fox News" iyrənc faktları təhlil edərək Amerika liderini pozğunluqda günahlandırıb və polisin müdaxiləsini tələb edib: "Öz qızı ilə "uyğun olmayan" duş



qəbul etmək? Əgər bu, pedofiliya cəhdi deyilsə, bu, şübhəsiz ki, polisin gəlişi üçün bir səbəbdir".

Gündəliyində prezidentin qızı deyir ki, narkotiklər onu iflas həddinə çatdırıb…

## Hələ Baydenin özündən geri qalmayan bir qardaşı da var...

Co Bayden oğlunun Çin, Meksika, Ukrayna, Qazaxıstan və digər ölkələrdən olan biznes tərəfdaşları ilə mütəmadi görüşüb, bəzilərini Ağ Evə dəvət edib, hətta vitse-prezidentin rəsmi istifadəsində olan təyyarəsini onların ixtiyarına verib.

Baydenin qardaşı Cim də ailənin cinayətkar şəbəkəsinin fəal üzvlərindəndir. O da dünyanı Baydenin qardaşı statusunda dolanır, öz xidmətlərini təklif edir və yüz milyonlarla dollar müqabilində xarici dövlətlərin, şirkətlərin maraqlarını ABŞ-də təmin edir.

ABŞ Prezidenti Co Baydenin ailəsini korrupsiyada günahlandıran israilli professor Qal Luftun başına gələn bir hadisə isə bu ailənin mafiya qanunları ilə idarə olunduğunu göstərir.

Belə ki, Q.Luft 2023-cü ilin fevralında ABŞ-nin tələbi ilə Kipr polisi tərəfindən saxlanılıb, girov müqabilində sərbəst buraxılıb, lakin sonradan azad edilmə şərtlərini pozaraq yoxa çıxıb. Hazırda onun harada olduğu məlum deyil.

Həbsindən sonra professor dərhal bildirib ki, Baydenin oğlunun və qardaşının Çinin biznes dairələri ilə korrupsiya əlaqələri haqqında əlində olan məlumata görə ABŞ tərəfindən siyasi təqiblərin qurbanı olub. Amerikanın "New York Post" qəzeti professorun növbəti ittihamlarla 14 dəqiqəlik videosunu dərc edib. Luftun sözlərinə görə, 2019-cu ildə o, FTB və Ədliyyə Nazirliyinin müstəntiqlərinə sübut təqdim edib. Görüş Brüsseldə gizli baş tutub.

Luft bu materiallarla Amerika Konqresinin aşağı palatasının komissiyasında çıxış etməli idi, lakin Kiprdə həbs olunduğu üçün macal tapmayıb. Komissiya əmin edib ki, professor axtarışda olmasına baxmayaraq, potensial şahid statusunda qalır.

## Ailəsinin cinayətlərinə görə Baydenə qarşı Konqres impiçmentə başlayır

Yenə də vurğulayırıq ki, bütün bu faktlar rəsmı xarakterlidir, hüquqi əsaslıdır, bir hissəsi isə sabiq prezident D.Trampın etirafları və ABŞ mediasının gündəmə gətirdiyi mətləblərdir. ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Mayk Consonun iki gün öncəki bəyanatı ilə hesab edirik ki, mövzu həm də məntiqi sonluğuna çatdı.

"Prezident Co Baydenin impiçmenti sadəcə zərurətdir. Bu ehtiyac Prezidentin və onun administrasiyasının Bayden ailə üzvləri ilə bağlı istintaqa mane olması ilə bağlıdır", - deyən spiker əlavə edib ki, Baydenin impiçment məsələsinə Konqresdə yaxın həftələrdə baxıla bilər.

Conson qeyd edib ki, Konqresin bir neçə komitəsi Bayden ailəsinin qanunsuz hərəkətlərinə dair sübutlar tapmaq üçün işləyir. Eyni zamanda o, Bayden administrasiyasının "minlərlə səhifəlik sübutu" gizlətməyə çalışdığını söyləyib.

Necə deyərlər, əlavə şərhə lüzum yoxdur...

## İnsana rənginə görə fərq qoyulan ölkə "demokratiya beşiyi" ola bilməz

Dövlət aparatı və rəhbərləri korrupsiyalaşmış bir dövlət hələ utanmadan özünü "demokratiyanın beşiyi" adlandırır. Amma insana dərisinin rənginə görə fərq qoyulan ölkədə hansı demokratiyadan söhbət gedə bilər? Bu mənada ABŞ-də insan haqlarının kütləvi şəkildə pozulduğu barədə kifayət qədər fakt ortaya qoymaq mümkündür. Məsələn, "Uoll striti işğal et!", Ferqyuson- və Baltimor hadisələri və digər faktlar təsdiq edir ki, ABŞ-də insanlara etiraz səslərini ucaltmağa imkan verilmir.

Bu ölkənin "demokratiyası" təsdiq edir ki, jurnalistlər, bloqçular, vəkillər, hüquq müdafiəçiləri belə istənilən formada təzyiqlə üzləşə bilərlər. Məsələn, jurnalist və ictimai fəal Deniel Makqouen "Haffington Post"da Təcridxanalar üzrə Federal Büronu tənqid etdiyinə görə həbs olunmuşdu. "Wikileaks" saytının yaradıcısı Culian Assancın, Mərkəzi Kəşfiyyat İdarəsinin keçmiş əməkdaşı Edvard Snoudenin başlarına açılan oyunlar Ağ Evin öz opponentlərinə qarşı necə qəddar davranış nümayiş etdirdiyinin əyani sübutlarıdır. Üstəlik, rəsmi Vaşinqton əlində olan bütün vasitələrlə Assancı və Snoudeni müdafiə edən medianı, hüquq müdafiə təşkilatlarını susdurur.

Bunlar göstərir ki, Ağ Evin öz tənqidçilərini susdurmağa yönəlmiş sevimli alətlərindən biri də həbsdir. Baxmayaraq ki, Amerika prezidentləri öz çıxışlarında az qala hüquq müdafiəçilərini belə geridə qoyurlar. Elə keçmiş prezident D.Trampa qarşı olan təzyiqlər də Amerikada siyasi plüralizmin olmamasından, demokratların öz siyasi opponentlərinə qarşı qanunsuz əməllərindən xəbər verir.

## ABŞ-nin qanlı və faciəli demokratiyası

Məhz belə bir ölkə riyakarcasına söz azadlığı, insan hüquqları kimi dəyərləri bütün dünyada yaymağı əsas vəzifələrindən biri kimi elan edib. Amma ABŞ-nin öz ərazisindəki "demokratiya" nə qədər demokratiyadan uzaqdırsa, onun postsovet məkanını, Şərq coğrafiyasını "azadlıq" nağılı ilə nəzarətə götürməyə çalışması və Avrasiya bölgəsinə bəxş etdiyi "demokratiya" bir o qədər qanlı və faciəlidir. Ağ Evin özünü necə adlandırmasından asılı olmayaraq müasir reallıq, ən əsası isə "azadlıq ixracı" pərdəsi altında dünyaya gətirdiyi savaş ABŞ-nin xalqların suverenlik və seçim hüququna qənim kəsildiyini göstərir.

Son onilliklərdə dünyanın müxtəlif yerlərində baş verən inqilablar və hakimiyyət çevrilişləri də ABŞ-nin layihələridir. Həmin ölkələrdə Sorosun, USAİD-in planları ilə hakimiyyət çevrilişləri həyata keçirilir, vətəndaş qarşıdurması stimullaşdırılır, bütün bunlar nəticə vermədikdə isə birbaşa hərbi təcavüz edilir.

Məlum olduğu kimi, bir müddət əvvəl Gürcüstan Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən ölkədə vətəndaş iğtişaşları və zorakılıqla hakimiyyət dəyişikliyinin planlaşdırıldığı barədə açıqlama yayılıb. Məlumatlardan aydın olur ki, qonşu ölkədə hakimiyyətin devrilməsinə yönəlmiş cəhdlərin təşkilatçısı USAİD-dir. Adında inkişaf olsa da, USAİD-in fəaliyyət göstərdiyi bütün ölkələrdə pozuculuq fəaliyyəti ilə məşğul olduğu dəfələrlə öz təsdiqini tapıb. Keçmiş sovet ittifaqının bir çox ölkələrində bu təşkilatın adı hər zaman siyasi proseslərə açıq müdaxilədə, hakimiyyət çevrilişlərinə cəhdlərdə və bütün bunlar üçün gənclərin radikal şəkildə yönləndirilməsi və s. hallanıb.

ABŞ-nin "demokratikləşmə", "terrorçuluqla mübarizə" adı altında əslində ekspansiya və müasir müstəmləkəçilik siyasəti yürütdüyünü isə sübuta yetirməyə və hansısa xüsusi araşdırmalara lüzum yoxdur. Suriyada, Liviyada, Əfqanıstanda, İraqda partlayan hər bir bomba, qətlə yetirilən hər bir insan məhz ABŞ "demokratiyasının" nəticəsidir. Əbu-Qreyb, Quantanamo həbsxanaları tarixdə ABŞ demokratiyasının "rəmzləri" kimi qalacaqlar. İnsanlara məhz müsəlman olduqlarına görə Hitler Almaniyasında olduğu kimi ən qəddar metodlarla işgəncə verilib. Öz imperialist siyasəti ilə həm də ABŞ dünya siyasətində quldurluq, reket ənənəsini yaradan və yaşadan dövlətdir.

İsraillə Fələstin, Ukrayna ilə Rusiya arasında insan faciəsi, yaşayış məntəqələrinin yer üzündən silinməsi ilə müşayiət edilən müharibələrin planları birbaşa Pentaqonda, Mərkəzi Kəşfiyyat İdarəsində hazırlanıb, Ağ Evdə təsdiq olunub. Xüsusilə qeyd etmək lazımdır ki, ABŞ-nin Rusiyanı zəiflətmək məqsədilə Ukraynada müharibəni qızışdırması Vaşinqtonun nə qədər riyakar olduğunu göstərir. Bu müharibədə Ukrayna dağılıb, əhalisi 20 milyona enib, amma özünü dünyada sülhpərvər dövlət kimi göstərməyə çalışan ABŞ bir dəfə də olsun bu müharibənin dayandırılmasına çağırış etməyib, əksinə, təhrikedici mövqedə dayanıb. Son aylarda isə ABŞ dünya ictimai rəyini Ukraynanın bölünməsinə hazırlamaqla məşğuldur. VaxtiləVyetnamda, Koreyada, Latın Amerikasında və Əfqanıstanda "onların xalqlarının azadlığına dəstək", "demokratiyaya dəstək", "terrorçuluqla mübarizə" kimi şüarlarla başlatdığı hərbi kampaniyalarından sonra həmin ölkələri taleyin ümidinə buraxan ABŞ Ukrayna-Rusiya müharibəsində məqsədlərinin reallaşmadığını görüncə mövqeyini 180 dərəcə dəyişib. Bu gün Bayden administrasiyası müxtəlif hərbi-siyasi səviyyələrdə verilən açıqlamalarla tədricən qlobal ictimai rəyi Ukraynanın məğlubiyyətinin qaçılmazlığına hazırlayır.

## Saxta informasiyalar yaymaqda ABŞ mediası liderdir

Qayıdaq "Vaşinqton Post"un məqaləsinə. Əvvəlcə bir məqamı xatırladaq ki, ABŞ mətbuatının qərəzli və böhtançı tribunaya çevrildiyini bu ölkənin sadə vətəndaşından tutmuş prezidentinə qədər hər kəs etiraf edir. Hətta sabiq Prezident Donald Tramp etiraf edir ki, dünyada saxta informasiyalar yaymaqda ABŞ mediası liderdir. D.Tramp ölkə vətəndaşlarına və dünya əhalisinə dönə-dönə müraciət edərək onları ABŞ mediasına inanmamağa çağırıb.

"Vaşinqton Post"da dərc olunan məlum məqalənin ABŞ Dövlət Departamentinin hansısa kabinetində yuxarıdan alınan tapşırıqla hazırlanması da Trampın dediklərini təsdiq edir. "Vaşinqton Post" özü isə azad media mənsubu deyil, sifarişlə müxtəlif ölkələrə, xalqlara, ictimai-siyasi xadimlərə, iş adamlarına çirkab atan, divar kağızı ənənəsini yaşadan təxribat mexanizmidir.

Soros ənənəsini yaşadan və dağıdıcı siyasətin ruporu olan bu qəzet, guya, Azərbaycanda demokratiya və insan hüquqlarının, söz azadlığının təəssübünü çəkir. Əslində isə Bayden hakimiyyəti "Vaşinqton Post"un dili ilə Qarabağı azad edən Prezident İlham Əliyevin müstəqil siyasətini həzm edə bilmədiyini göstərir və ona görə dövlətimizin başçısına qarşı belə çirkin kampaniya, materiallar təşkil edir. Bu təkcə Prezident İlham Əliyevə qarşı deyil, ümumilikdə Azərbaycan xalqına və dövlətinə qarşı hörmətsizlik və təhqirdir.

Bununla yanaşı, Ağ Evdəkilər ABŞ-nin Azərbaycanda qurduğu, maliyyələşdirdiyi, dövlətimizə və xalqımıza qarşı istifadə etdiyi antiazərbaycançı şəbəkənin, onun bariz nümunəsi olan "Abzas Media"nın ifşa olunmasından və əl-qolunun bağlanmasından narahatdırlar. Amma aydındır ki, bu məqalənin sifarişçilərinin məqsədi orada toxunulan məqamlar deyil. Onların məqsədi qalib Azərbaycanın uğurlarına kölgə salmaq, ölkəmizin nüfuzunu sarsıtmaqdır.

İnsan hüquqlarının və demokratiyanın ən çox pozulduğu ölkənin mediasına xatırlatma: şüşəli evdə yaşayan başqasına daş atmaz. ABŞ demokritayasının qara üzü barədə kifayət qədər danışmaq olar.

## ABŞ ədalət tələbini niyə cinayət sayır?

Beynəlxalq sosioloji sorğu mərkəzləri son onilliklərdə 200-ə yaxın ölkədə respondentlər arasında ənənəvi rəy öyrənir: "Hansı dövləti özünüzə düşmən sayırsınız?" Uzun illərdir əsas cavab dəyişməz qalır: ABŞ!

150-dən artıq ölkənin vətəndaşları birinci sırada, 30-a qədər dövlətdəki respondentlər isə ikinci sırada göstərir ABŞ-ni…

Bütün dünya ABŞ-ni özünə düşmən hesab edir…

ABŞ vətəndaşları da öz administrasiyasını özünə ən böyük düşmən sayır…

ABŞ dünyada savaşların, tənəzzülün, böhranın - bütün şeytan əməllərinin qara rəmzi kimi tanınır…

ABŞ şərin simvoluna çevrilib…

Ötən əsrin "dünya jandarması" bu əsrin "dünya eskortu"dur…

Və Ağ Ev unutmamalıdır ki, bu gün dünyada demokratiyaya ən çox ehtiyacı olan məhz onun özüdür - Amerika Birləşmiş Ştatlarıdır...

Ağ Evin zülmət administrasiyasının - bir ovuc korrupsionerin, cinayətkarın, təcavüzçünün, narkomanın məkrli eksperiment hədəfi olan dünya artıq ABŞ-dən ƏDALƏT, ƏDALƏT, ƏDALƏT tələb edir!

Ədalət tələb etmək ABŞ-nin despotik və korrupsioner administrasiyasında qıcıq yaratsa da, bu, əsla cinayət deyil!

**"Azərbaycan" qəzeti redaksiyası**

# Müdafiə naziri Misirdə səfərdədir



**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti Misir Ərəb Respublikasının müdafiə nazirinin dəvəti ilə "EDEX 2023" sərgisində iştirak etmək üçün bu ölkədə səfərdədir.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, general-polkovnik Z.Həsənov dekabrın 4-də "EDEX 2023" beynəlxalq müdafiə sərgisinin təntənəli açılış mərasimində iştirak edib.

Mərasimdə çıxış edən Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi qonaqları salamladıqdan sonra sərgini açıq elan edib.

Müdafiə naziri "EDEX 2023" beynəlxalq müdafiə sərgisində nümayiş etdirilən Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin müəssisələrinə, eləcə də Türkiyə Respublikasının "TUSAŞ", "ROKETSAN", "ASELSAN", "SARSILMAZ", "CANİK", "BAYKAR" şirkətlərinə məxsus silah, texnika və hərbi təyinatlı vasitələrlə tanış olub.







Səfər çərçivəsində general-polkovnik Z.Həsənov şirkət rəhbərləri ilə görüşüb.

Görüşlərdə hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı müzakirələr aparılıb.

# Azərbaycanın müdafiə naziri "EDEX 2023" sərgisində müxtəlif ölkələrin şirkətlərinin məhsulları ilə tanış olub

**Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun Misir Ərəb Respublikasına səfəri davam edir.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, "EDEX 2023" beynəlxalq müdafiə sərgisində iştirak edən general-polkovnik Z.Həsənov İtaliya Respublikasının "Leonardo" şirkətinin, eləcə də Misirin "ARMADA" və "AOI" şirkətlərinin stendlərində təqdim edilən müasir silah və döyüş texnikası nümunələrini maraqla izləyib.

Sərgidə müxtəlif ölkələrin şirkətləri istehsal etdikləri hərbi təyinatlı məhsullar barədə ziyarətçilərə ətraflı məlumatlar veriblər.

# Azərbaycanın xarici işlər naziri Rusiyaya səfərə yola düşüb

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov dekabrın 4-də Xəzəryanı ölkələrin Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak etmək məqsədilə Rusiya Federasiyasına işgüzar səfərə yola düşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Ceyhun Bayramovun tədbirdə çıxışı və ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulub.

# İran Hərbi Dəniz Qüvvələrinin nümayəndə heyəti Bakıda səfərdədir

İran İslam Respublikası Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Şəhram İraninin rəhbərlik etdiyi nümayəndə heyəti Bakıda səfərdədir. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, səfər çərçivəsində komandanın Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovla görüşü, həmçinin Hərbi Dəniz Qüvvələrinin qərargahını və Heydər Əliyev adına Hərbi İnstitutu ziyarəti planlaşdırılır.

# “Qəti surətdə təkzib edirik”

Azərbaycan Ordusunun bölmələri tərəfindən dekabrın 4-ü saat 14:35 radələrində Ermənistan silahlı qüvvələrinin Paşalı rayonunun Sultanbəy yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərinə, guya, atəş açılması və nəticədə bir hərbi qulluqçunun ölməsi barədə bu ölkənin müdafiə nazirliyinin yaydığı məlumat həqiqəti əks etdirmir, tamamilə yalandır.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, qarşı tərəfin təxribat xarakterli məlumatını qəti surətdə təkzib edirik.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Dubayda COP-28 çərçivəsində iqlim dəyişiklikləri üzrə müzakirələrdə iştirak edib

**Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən COP-28 çərçivəsində dekabrın 4-də Ümumi Qadınlar Birliyinin sədri Şeyxa Fatimə Bint Mübarəkin himayəsi altında "Qadınlar tərəqqiyə liderlik edir: Su və Dayanıqlı İnkişaf Məqsədləri" mövzusunda panel iclas təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, Birləşmiş Millətlər Təşkilatının (BMT), Ümumi Qadınlar Birliyinin və İsveçrə Qadınlar və Gücləndirmə Assosiasiyasının təşkilatçılığı ilə keçirilən iclasda Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, BMT-nin Cenevrə bölməsinin baş direktoru Tatyana Valovaya, Birləşmiş Ərəb Əmirliklərinin iqlim dəyişikliyi və ətraf mühit naziri Mariam Almheiri iştirak ediblər.

İclasda bildirilib ki, iştirakçılar BMT Baş Assambleyasının təhlükəsiz və təmiz içməli su hüququnu başlıca insan hüquqlarından biri kimi təsbit edən qətnaməsinə uyğun olaraq, su idarəçiliyi ilə bağlı aktual problemi həll etmək, onun icmalara və ekosistemlərə təsirlərini araşdırmağa yönəlmiş səyləri əlaqələndirməyə və gücləndirməyə çalışacaqlar.

Müzakirələrdə çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva deyib: "Biz görürük ki, iqlim dəyişikliklərinə görə Kür, Samur, Araz çaylarında suyun səviyyəsi aşağı düşür. Volqa çayında suyun səviyyəsi enir və bu, Xəzər dənizinə də təsir edir. Biz ötən 7-8 ildə Azərbaycanda quraqlığa şahid olmuşuq və bu da aqrar sahəyə təsirini göstərir. Hökumət ölkədə 10 su rezervuarı yaratmağı planlaşdırır və bununla problem həll olunacaq. Digər məsələ isə odur ki, təəssüf, biz ölkəmizin ərazisinin 20 faizinin 30 il ərzində işğal altında qaldığı dövrdə həmin torpaqlardakı su ehtiyatlarımızdan məhrum olmuşduq".

Çıxışlar zamanı su problemlərinin həlli ilə bağlı qarşılıqlı məlumatlılığın artırılmasının, davamlı su idarəçiliyi üçün inklüziv və məlumatlı həllərin təşviq edilməsinin, Dayanıqlı İnkişaf Məqsədlərinə və gender bərabərliyinə nail olmağın əhəmiyyəti xüsusi vurğulanıb. Panel iştirakçıları həmçinin BMT-nin 17 Dayanıqlı İnkişaf Məqsədinə nail olunmasını sürətləndirmək baxımından dünya miqyasında icmaların rifahına, sağlamlığına və bərabərliyinə müsbət təsir göstərə biləcək daha yaxşı su idarəçiliyi üçün qabaqcıl təcrübə və mümkün həll mexanizmlərini, eləcə də iqlim məsələlərini müzakirə ediblər.

Xəlifə Universitetinin professoru Mariam Rashed Al Shehihi bildirib: "Biz BƏƏ-də su ilə bağlı vəziyyət haqqında ən yeni məlumata sahib olmalıyıq. Bununla da problemləri daha yaxşı anlayıb su ehtiyatlarının daha səmərəli idarə edilməsinə nail ola bilərik. Biz anlamalıyıq ki, məsələn, BƏƏ-də hansı sahələrdə nə qədər su sərf edilir. Bununla da biz problemləri, indiki və gələcəkdə yarana biləcək vəziyyəti daha yaxşı başa düşə bilərik".


















Panel iclasından sonra iştirakçılar COP-28 çərçivəsində fəaliyyət göstərən Azərbaycan pavilyonunda olublar. Məlumat verilib ki, dekabrın 12-dək davam edəcək COP-28 çərçivəsində Heydər Əliyev Fondu, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə yaradılan milli pavilyon "İqlim dayanıqlılığı üçün davamlı həlləri rəhbər tutaq" mövzusunu əhatə edir.

Pavilyonun konsepsiyası Azərbaycanın zəngin flora və faunası üzərində qurulub. İnteraktiv formatda qurulan pavilyonda ölkəmizin iqlim dəyişikliyi sahəsində siyasəti, atmosferə atılan istixana qazlarının azaldılması istiqamətində Azərbaycan hökumətinin tədbirləri, mitiqasiya və adaptasiya üzrə fəaliyyəti və digər layihələr barədə məlumat verilir. Bildirilib ki, ölkəmiz 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyasının 35 faiz azaldılması, 2050-ci ildə isə bu hədəfin 40 faizə çatdırılacağına dair öhdəliyi təsdiqləyib. Bu istiqamətdə aktiv fəaliyyət göstərmək Azərbaycan hökuməti üçün prioritet məsələdir.

Dekabrın 4-də həmçinin Azərbaycan pavilyonunda IDEA İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Ümumdünya Təbiəti Mühafizə Fondunun təşkilatçılığı ilə "İqlim dəyişməsi və ekosistemlərin bərpası" mövzusunda tədbir keçirilib.

Ümumdünya Təbiəti Mühafizə Fondunun Qafqaz ofisinin mühafizə meneceri Maka Bitsadze, layihə meneceri Yerney Strith, Fondun Azərbaycan nümayəndəliyinin rəhbəri Elşad Əskərov və IDEA təşkilatının nümayəndəsi Zərxanım Ağayeva regionda təbiətin mühafizəsi və bərpası layihələri barədə məlumat verib, Azərbaycanın bu layihələrdəki xüsusi rolunu vurğulayıblar. Bildirilib ki, ötən əsrin ortalarında nəsli kəsilməkdə olan ceyranların tarixi arealı bərpa olunmaqdadır və yeni ərazilərə 350 başa yaxın ceyran köçürülüb. O cümlədən işğaldan azad olunmuş ərazilərə 33 baş ceyran reintroduksiya edilib və bu proses davam etdiriləcək.

# COP-28 çərçivəsində SOCAR ilə bir sıra xarici şirkətlər arasında vacib sənədlər imzalanıb

**Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində təşkil olunan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası (COP-28) çərçivəsində Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin (SOCAR) prezidenti Rövşən Nəcəf bir sıra xarici şirkət rəhbərləri ilə görüşlər keçirib.**

SOCAR-dan AZƏRTAC-a bildiriblər ki, Rövşən Nəcəfin "Boston Consulting Group" (BCG) şirkətinin qlobal sədri Riç Lesser ilə görüşündə şirkətlər arasında iqlim dəyişmələri, emissiya həcmlərinin qiymətləndirilməsi istiqamətlərində birgə layihələrin uğurla həyata keçirildiyi vurğulanıb, enerji keçidi, dekarbonizasiya və rəqəmsallaşma sahələrində potensial əməkdaşlıq imkanları nəzərdən keçirilib.

Görüşdə SOCAR ilə BCG arasında Əməkdaşlıq proqramının icrası ilə bağlı müqavilə imzalanıb.

Səfər çərçivəsində SOCAR prezidenti Rövşən Nəcəfin "Masdar" şirkətinin baş icraçı direktoru Məhəmməd Cəmil Əl Rəmahi ilə görüşü olub. Görüşdə birgə həyata keçirilən layihələrin Azərbaycanda istixana qazı emissiyalarının azaldılmasına, bərpaolunan enerji mənbələrinin inkişafına əhəmiyyətli töhfə verəcəyi qeyd edilib, həmçinin əməkdaşlığın genişləndirilməsinə dair məsələlər müzakirə olunub.

"Ernst & Young" şirkətinin qlobal sədr müavini xanım Amy M.Brachio ilə görüşdə bərpaolunan enerji, rəqəmsallaşma, könüllü karbon bazarları sahələrində potensial əməkdaşlıq imkanlarına və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

Eyni zamanda SOCAR ilə Əbu-Dabi Milli Neft Şirkəti (ADNOC) arasında Strateji Əməkdaşlığa dair Saziş imzalanıb.

Saziş SOCAR ilə ADNOC şirkətləri arasında ətraf mühitin mühafizəsi sahəsində birgə fəaliyyətin daha da genişləndirilməsini, "mavi hidrogen", geotermal və karbon idarə edilməsi üzrə əməkdaşlıq məsələlərini nəzərdə tutur.

COP-28 çərçivəsində həmçinin SOCAR ilə "Sirius" beynəlxalq holdinqi arasında Strateji Əməkdaşlığa dair Saziş imzalanıb.

# YAP-ın nümayəndələri və AK Parti nümayəndə heyəti Ümummilli Lider Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər





**Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakayanın rəhbərlik etdiyi nümayəndə heyəti Yeni Azərbaycan Partiyasının (YAP) dəvəti ilə ölkəmizə səfərə gəlib.**

Səfər çərçivəsində dekabrın 4-də YAP-ın nümayəndələri və AK Parti nümayəndə heyəti Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, gül dəstələri düzüblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Sonra YAP-ın nümayəndələri və AK Parti nümayəndə heyəti tərəfindən Şəhidlər xiyabanı ziyarət olunub. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.



Daha sonra Bakıdakı "Türk şəhidliyi" abidəsi ziyarət edilib. Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçən, Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyini, sarsılmazlığını əks etdirən bu məzarlıqda uyuyan qəhrəman və fədakar türk qardaşlarımızın əziz xatirəsi anılıb, abidənin önünə əklil qoyulub, gül dəstələri düzülüb.

# YAP ilə AK Partinin nümayəndələri arasında görüş

**Dekabrın 4-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin xarici əlaqələr üzrə müavini Zafer Sırakayanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**



Qonaqları salamlayan YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan-Türkiyə əməkdaşlığının genişləndirilməsində hakim partiyalar arasındakı səmərəli əlaqələrin mühüm rol oynadığını vurğulayaraq YAP-AK Parti işbirliyinin önəminə diqqəti cəlb edib. Bu ilin oktyabr ayında YAP nümayəndə heyətinin qardaş Türkiyəyə səfərini məmnunluqla xatırlayan Tahir Budaqov səfər çərçivəsində məhsuldar görüşlərin keçirildiyini vurğulayıb. O, 2021-ci il iyunun 2-də iki partiya arasında imzalanmış Əməkdaşlıq Protokolundan irəli gələn vəzifələrin icra olunmasının, o cümlədən qarşılıqlı səfərlərin reallaşdırılmasının, fikir və təcrübə mübadiləsinin aparılmasının həm YAP-AK Parti, həm də bütövlükdə Azərbaycan-Türkiyə münasibətlərinin inkişafına mühüm töhfə olduğunu diqqətə çatdırıb.

İki partiyanın gəncləri arasında əlaqələrin gücləndirilməsinin önəminə diqqəti cəlb edən YAP Mərkəzi Aparatının rəhbəri AK Parti nümayəndə heyətinin ölkəmizə səfərinin məhsuldar və faydalı olacağına əminliyini ifadə edib.

Səmimi qəbula və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz və bütün dünyaya nümunə olduğunu vurğulayıb. "Azərbaycan ilə Türkiyə hər zaman bir-birinin yanındadır", - deyən Zafer Sırakaya qarşılıqlı səfərlərin münasibətlərin inkişafına və əməkdaşlığın dərinləşdirilməsinə təkan verdiyini bildirib.

Hakim partiyalar arasında əlaqələrin inkişafının dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsi kimi diqqət mərkəzində olduğunu söyləyən Z.Sırakaya AK Partinin YAP ilə işbirliyinə böyük önəm verdiyini qeyd edib. Partiyalararası münasibətlərin dinamik xarakter daşıdığını qeyd edən AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini "Şübhə yoxdur ki, genişmiqyaslı əməkdaşlıq çərçivəsində görəcəyimiz işlər həm partiyalarımız, həm də ölkələrimiz üçün faydalı olacaq, müştərək hədəflərin gerçəkləşməsini təmin edəcək", - deyib.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

# YAP Mərkəzi Aparatında birgə mətbuat konfransı keçirilib

**Dekabrın 4-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin xarici əlaqələr üzrə müavini Zafer Sırakayanın birgə mətbuat konfransı keçirilib.**



AK Parti nümayəndə heyətini və media nümayəndələrini salamlayan YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan-Türkiyə münasibətlərinin bənzərsiz dostluq-qardaşlıq və unikal əməkdaşlıq nümunəsi olduğunu vurğulayıb. "Ölkələrimizi bir-birinə bağlayan amillər təkcə strateji müttəfiqlik münasibətləri, dövlət maraqları - dövlətçilik mənafeləri deyil, eyni zamanda ortaq milli-mənəvi dəyərlər və köklü tarixi ənənələr üzərində təşəkkül tapmış sarsılmaz qardaşlıq əlaqələridir", - deyən Tahir Budaqov iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində Azərbaycan-Türkiyə münasibətlərinin ən yüksək səviyyədə olduğunu, milli maraqlarımızın uğurla təmin edildiyini vurğulayıb.

Dövlətlərarası əlaqələrdə son 20 il ərzində böyük inkişaf yolunun qət olunduğunu deyən YAP Sədrinin müavini bildirib ki, 44 günlük Vətən müharibəsi qardaşlığımızın sarsılmazlığını bir daha sübuta yetirdi. 2021-ci il iyun ayının 15-də Azərbaycan ilə Türkiyə arasında Strateji Müttəfiqliyə dair Şuşa Bəyannaməsinin imzalanmasının dövlətlərarası münasibətlərin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsini şərtləndirdiyini deyən Tahir Budaqov bildirib: "Prezident İlham Əliyevin prinsipial mövqeyi nəticəsində Azərbaycan haqq işini qələbə ilə yekunlaşdırdı - əzəli və əbədi torpağımız olan Qarabağda lokal antiterror tədbirlərinin həyata keçirilməsi ilə ölkəmizin suverenliyi, konstitusiya quruluşu tam bərpa edildi. 44 günlük Vətən müharibəsində Azərbaycana böyük mənəvi-siyasi dəstək göstərən qardaş Türkiyənin yeni reallıqlar fonunda da ölkəmizin haqlı mövqeyini müdafiə etməsi qardaşlıq örnəyi kimi yüksək qiymətə layiqdir".

Azərbaycan-Türkiyə birliyinin türk dünyasında da yeni imkanlar və parlaq perspektivlər yaratdığını bildirən YAP Sədrinin müavini mövcud gerçəkliklər fonunda türk dövlətlərinin ortaq hədəflərə yönəlik birgə təşəbbüslərinin böyük önəm daşıdığını diqqətə çatdırıb.

İki ölkənin hakim partiyaları - YAP ilə AK Parti arasında münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini söyləyən Tahir Budaqov "Azərbaycan-Türkiyə birliyinin güclənməsi və işbirliyinin dərinləşməsində partiyalarımız arasında əməkdaşlığın mühüm rolu var", - deyib. İqtidar partiyaları arasında əlaqələrin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini söyləyən YAP Sədrinin müavini bildirib: "2021-ci il iyunun 2-də YAP ilə AK Parti arasında imzalanmış Əməkdaşlıq Protokolundan irəli gələrək ikitərəfli münasibətlərin inkişafına xidmət edən məqsədyönlü fəaliyyətimizi uğurla davam etdiririk. Eyni zamanda türk dünyasında hakim siyasi partiyalar arasında əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi məsələlərini də diqqət mərkəzində saxlayırıq. Bu il noyabrın 14-də Yeni Azərbaycan Partiyası, Ədalət və İnkişaf Partiyası və Şimali Kipr Türk Cümhuriyyətinin hakim Ulusal Birlik Partiyası arasında Anlaşma Memorandumunun imzalanmasını bu baxımdan xüsusi qeyd etmək lazımdır. Bu fakt YAP ilə AK Parti arasındakı sıx təmasların təkcə ikitərəfli münasibətlərin inkişafını əhatə etmədiyini, həm də çoxşaxəli əməkdaşlığa hədəfləndiyini təsdiqləyir".

AK Parti nümayəndə heyətinin ölkəmizə səfərinin Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətlərinin daha bir bariz nümunəsi olduğunu söyləyən Tahir Budaqov "Hakim siyasi partiyalar kimi qarşılıqlı fəaliyyətimizi uğurla davam etdirəcək və əlaqələrimizi daha da gücləndirəcəyik. Biz birlikdə güclüyük və bundan sonra da möhtəşəm uğurlara imza atmaq əzmindəyik", - deyib.

AK Parti Sədrinin xarici əlaqələr üzrə müavini, İstanbul millət vəkili Zafer Sırakaya yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirərək Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edib. O qeyd edib ki, Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı və strateji müttəfiqliyi bu gün dünyada mühüm bir reallıqdır və tamamilə fərqli məzmuna, müstəsna əhəmiyyətə malikdir: "İstər Azərbaycan Prezidenti cənab İlham Əliyev, istərsə də Türkiyə Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan hər zaman iki qardaş ölkə arasındakı münasibətlərin bənzərinin olmadığını, Azərbaycan-Türkiyə qardaşlığının əbədi olduğunu qürurla ifadə edirlər. Təqdirəlayiq haldır ki, ölkələrimiz bu gün dünyada davamlı inkişafı və yüksək nüfuzu ilə fərqlənir, beynəlxalq münasibətlər sistemində layiqli yer tutur və öz mövqelərini möhkəmləndirirlər. Dövlət başçılarının iradələri əsasında Azərbaycan-Türkiyə qardaşlığı sarsılmaz xarakter alıb və ikitərəfli münasibətlərimiz keyfiyyətcə yeni mərhələyə yüksəlib. Azərbaycan yeni hədəflərinə əmin addımlarla irəliləyən Türkiyəyə öz qardaş dəstəyini göstərir. Türkiyədə bu ilin əvvəlində baş vermiş dəhşətli zəlzələnin fəsadlarının aradan qaldırılmasında Azərbaycanın qardaş dəstəyinin unudulmaz olduğunu xüsusi qeyd etmək istəyirəm. Türkiyə də öz növbəsində Azərbaycanın yanında olduğunu qətiyyətlə ifadə edir. Xüsusilə də, 44 günlük Vətən müharibəsində və sonrakı proseslərdə Prezident cənab Rəcəb Tayyib Ərdoğan başda olmaqla Türkiyə ictimaiyyəti qardaş Azərbaycana birmənalı mənəvi-siyasi dəstəyini ifadə etmiş, qətiyyətli mövqe ortaya qoymuşdur. Bu bizim qardaşlıq borcumuzdur və sarsılmaz birliyimizin bariz örnəyidir. Bütün bunlar sevincimizin də, kədərimizin də bir olduğunu təsdiqləyir".

Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyini bərpa etməsini tarixi hadisə kimi dəyərləndirən Zafer Sırakaya Azərbaycan ilə Türkiyənin birgə təşəbbüslərinin regionda sülhə, sabitliyə və təhlükəsizliyə xidmət etdiyini bildirib: "Azərbaycanın qələbəsindən sonra regionda yeni reallıqlar yaranıb. Təbii ki, bu tarixi mərhələ ölkələrimiz və partiyalarımız üçün də yeni vəzifələr müəyyənləşdirib. Hakim partiyalar kimi YAP ilə AK Parti həm ikitərəfli münasibətlərin inkişafı, həm də yeni gerçəkliklərdən irəli gələn hədəflərin reallaşdırılması üçün ardıcıl fəaliyyət göstərirlər. Artıq qeyd olunduğu kimi, biz 2021-ci ildə Əməkdaşlıq Protokolu imzalamaqla partiyalar arasında qarşılıqlı faydalı işbirliyinin möhkəm siyasi-hüquqi əsaslarını yaratmışıq və səmərəli fəaliyyətimizi davam etdiririk. Əməkdaşlıq Protokolu Yeni Azərbaycan Partiyası ilə AK Parti arasında çoxşaxəli işbirliyini təsbit edən mühüm yol xəritəsidir və sənəddə əks olunan öhdəliklərin yerinə yetirilməsi bizə yeni nailiyyətlər qazandıracaqdır".

Rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin partiyalar arasında əməkdaşlığın dərinləşdirilməsi baxımından faydalı olacağına inamını ifadə edən Z.Sırakaya "Yeni çağırışlar bizi daha güclü olmağa vadar edir. Qardaş ölkələrin hakim siyasi partiyaları kimi qarşıda duran bütün hədəfləri gerçəkləşdirəcəyimizə şübhə yoxdur. Azərbaycanın yanındayıq, yanında olmağa davam edəcəyik", - deyib.

Daha sonra jurnalistlərin sualları cavablandırılıb.

# QMİ-nin sədri Qazaxıstanın mədəniyyət və informasiya naziri ilə görüşüb

**Dekabrın 4-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Dünya və Ənənəvi Dinlər Liderləri Qurultayının katibliyinin üzvü Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə səfərdə olan Qazaxıstanın mədəniyyət və informasiya naziri Aidə Balayeva ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Şeyxülislam A.Paşazadə Azərbaycan və qazax xalqlarının tarixi dostluq münasibətlərindən bəhs edib, ölkələrimiz arasında bir sıra sahələrdə olduğu kimi, mədəni əlaqələrin də inkişaf etdiyini vurğulayıb.

Söhbət zamanı əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün birgə layihələrin həyata keçirilməsinin önəmi qeyd olunub. Bildirilib ki, Türk Dövlətləri Təşkilatı çərçivəsində qardaş xalqlarımız və dövlətlərimiz arasında bütün sahələrdə münasibətlərin inkişafı, o cümlədən dini-mənəvi əlaqələrin dərinləşməsi üçün yeni imkanların açıldığı bir dövrdə ortaq dini-mədəni dəyərlərin, türk-islam irsinin, tarixi, milli ənənələrin qorunub saxlanılması istiqamətində səylər artırılır.

Nazir Aidə Balayeva iki ölkə arasında əlaqələrin yüksək səviyyəsindən məmnunluğunu ifadə edib. O deyib ki, ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsinə töhfə verə biləcək geniş imkanlar mövcuddur.

Dövlət başçılarının qarşılıqlı səfərlərinin qardaş ölkələrimiz arasında əlaqələrin inkişafına böyük təkan verdiyini vurğulayan Şeyxülislam A.Paşazadə öz növbəsində Dünya və ənənəvi din liderlərinin 20 illik tarixə malik Astana qurultaylarında mütəmadi iştirakından danışıb, TDT Müsəlman Dini İdarə rəhbərlərinin növbəti toplantısının gələn il Qazaxıstanda keçiriləcəyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclis Sədrinin müavini Fəzail İbrahimli, parlamentin komitə sədrləri və deputatlar, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri iştirak ediblər.

# Azərbaycan nümayəndə heyəti Çində Dünya Media Sammitində iştirak edir

**Çinin Quancou şəhərində 5-ci Dünya Media Sammiti işə başlayıb.**

**AZƏRTAC xəbər verir ki, Sinxua agentliyinin evsahibliyi ilə keçirilən tədbirə 101 ölkədən 450-dən çox qonaq, o cümlədən dövlət qurumlarının rəsmiləri, media qurumlarının və beyin mərkəzlərinin rəhbərləri, tanınmış ekspertlər, beynəlxalq təşkilatların nümayəndələri qatılıb.**

Azərbaycanı tədbirdə Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov, AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev, Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin xarici media ilə iş sektorunun müdiri Orxan Səttarov təmsil edirlər.

"Qlobal etibarlılığı artırmaq, medianın inkişafını təşviq etmək" devizi altında keçirilən sammitin açılış mərasimində və plenar iclasında çıxış edənlər, o cümlədən Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin təbliğat departamentinin baş icraçı direktorunun müavini Hu Hepin, Quandon vilayətinin qubernatoru Van Veycon, Sinxua agentliyinin prezidenti Fu Hua, "Reuters" agentliyinin rəhbəri Su Bruks, TASS İnformasiya Agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman və başqaları medianın müasir problemlərinə, yeni çağırışlar fonunda jurnalistlərin üzləşdiyi çətinliklərə toxunublar, medianın cəmiyyətin həyatında vacib sosial məsuliyyət daşıdığını qeyd ediblər. Ciddi jurnalistikanın saxta informasiya yayımı ilə mübarizədə səylərinin artırılmasının vacibliyi vurğulanıb. Çıxış edənlər dünyada sülhün, inkişafın və əməkdaşlığın təminatı üçün fəal informasiya mübadiləsinin həyata keçirilməsinin vacibliyini qeyd ediblər. Medianın işində müasir texnologiyaların, o cümlədən süni intellektin tətbiqinin faydaları vurğulanıb.

Tədbirdə qaynar ocaqlarda peşə borcunu yerinə yetirərkən həlak olan media nümayəndələrinin xatirəsi anılıb.

Müharibələr, münaqişələr, "soyuq müharibə" təfəkkürünün qlobal etimadın möhkəmlənməsinə mane olan əsas amillərdən olduğu vurğulanıb.

Qeyd olunub ki, Dünya Media Sammiti kimi platformalar müxtəlif ölkələri və xalqları bir araya gətirərək sülh və inkişafa dialoq vasitəsilə nail olmağın yollarını axtarmağa imkan verir. Bu səbəbdən də sammitin işində təkcə media qurumlarının rəhbərləri deyil, cəmiyyətin daha geniş spektrini əhatə edən təbəqələrin nümayəndələri iştirak edirlər. Dekabrın 8-dək davam edəcək sammitin müxtəlif mövzularda plenar və panel iclasları keçiriləcək.

Qeyd edək ki, Dünya Media Sammiti 2009-cu ildə Sinxua, "Associated Press", "Reuters", "Kyoda" və TASS İnformasiya Agentliyi daxil olmaqla aparıcı media qurumlarının birgə təşkilatçılığı ilə təsis edilib və elə ilk sammit də Çində, Pekində keçirilib. Ardınca Moskva və Dohada sammitlər təşkil olunub. Pandemiyanın səngiməsindən sonra digər beynəlxalq tədbirlər kimi Dünya Media Sammitinin işi də bərpa olunub.



# MÖHTƏŞƏM 20 İL 2003 2023



# Dövlət maliyyəsinin idarəedilməsi: islahatlar və yeniliklər

**Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlət maliyyəsinin idarəedilməsi sahəsində həyata keçirilən islahatlar ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının reallaşdırılmasına imkan verməklə müxtəlif istiqamətli problemlərin həllini təmin edib.**

Bu islahatların əsası bu il 100 illiyini qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun tərəfindən yürüdülən siyasət nəticəsində Azərbaycan ötən əsrin 90-cı illərinin ortalarından etibarən müstəqil dövlət kimi inkişaf edərək, bütün sahələrdə uğurlara imza atmağa başladı. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və həyata keçirilən islahatlar ölkə iqtisadiyyatının böhrandan çıxarılmasına və davamlı böyüməsinə hədəflənən strateji xəttin özəyini təşkil edirdi. Ümummilli Lider tərəfindən aparılan çoxşaxəli iqtisadi siyasət ölkənin maliyyə resurslarının artırılmasına, dayanıqlı maliyyələşdirmə mənbələrinin formalaşdırılmasına, iqtisadi inkişafın təmin edilməsinə imkan verdi. İldən-ilə dövlət büdcəsinin gəlirlərinin artması ölkədə bütün sahələrdə xərcləri də artırırdı ki, bu da öz növbəsində hesabatlılıq və şəffaflığın əvəzedilməz təminatçısı hesab olunan maliyyə nəzarəti mexanizmlərinin təkmilləşdirilməsi zərurətini yaradırdı. Bu zərurəti öncədən görən Ümummilli Lider Azərbaycan Respublikası Konstitusiyasının layihəsinin 92-ci maddəsinə "Hesablama Palatası" adlı qurumun yaradılması ilə bağlı müddəanın əlavə edilməsinə nail olmaqla hakimiyyətin icra qoluna aid olmayan, Azərbaycan Respublikasının Milli Məclisi qarşısında hesabat verən, ali audit orqanının konstitusion statusunun müəyyən edilməsinin əsas təşəbbüskarı olmuşdur.

Ulu Öndərin siyasətinin Prezident İlham Əliyev tərəfindən ötən 20 il ərzində uğurla davam etdirilməsi və islahatların müvəffəqiyyətlə reallaşdırılması nəticəsində Azərbaycan beynəlxalq birliyin etibarlı tərəfdaşına, regionun lider dövlətinə çevrilmiş, eyni zamanda ölkəmizin siyasi imicinin və iqtisadi potensialının güclənməsi təmin edilmiş, bütün sahələrdə dayanıqlı və dinamik inkişafın əldə olunması üçün zəmin yaradılmışdır. Hətta əvvəlcədən proqnozlaşdırılması çətin olan hadisələr zamanı vətəndaşların sosial rifahının möhkəmləndirilməsi, həmçinin dövlətin iqtisadi gücünün qorunması istiqamətində möhtərəm cənab Prezident tərəfindən düşünülmüş siyasət və tədbirlər həmin proseslərin inkişaf etmiş bir çox ölkələrlə müqayisədə daha az ağrı ilə yaşanmasına imkan vermişdir.

Müasir dünyada baş verən siyasi, iqtisadi proseslər, qlobal rəqabət meyillərinin hər gün sürətli şəkildə artan təzahürləri və geosiyasi çəkişmələr hər bir dövləti müəyyən olunmuş məqsədlərə nail olunması üçün öz resurslarını səfərbər etməyə və bu resurslardan daha rasional istifadə olunmasına sövq edir. Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş və Azərbaycan Respublikasının hər bir sahədə prioritetlərini əks etdirən strateji sənədlərin müvəffəqiyyətli icrası da maliyyə vəsaitlərinin daha effektiv istifadəsini tələb edir. Bu tələblər cənab Prezident tərəfindən dəfələrlə səsləndirilmiş və dövlət qurumlarının qarşısında bir vəzifə olaraq müəyyən edilmişdir.

Dövlət başçısının maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi ilə bağlı verdiyi tapşırıqlar bu gün şəffaflıq və hesabatlılığın vacibliyini bir qədər də artırmışdır. Dayanıqlı inkişafın təmin olunmasında mühüm rolu olan şəffaflıq və hesabatlılıq son illərdə müxtəlif sahələrdə, o cümlədən dövlət maliyyəsinin idarəedilməsinin gücləndirilməsi üçün hazırlanan sənədlərin əsas hədəflərindən biri olaraq qəbul edilmişdir.

Dövlət maliyyəsinin idarəedilməsi sahəsində son 20 il ərzində əldə olunmuş nailiyyətlər həm kəmiyyət, həm də keyfiyyət göstəriciləri ilə ifadə edilə bilər.

İlk olaraq rəqəmlərlə bağlı bəzi məqamlara nəzər salaq.

Son 20 il ərzində dövlət büdcəsinin gəlirləri 1,2 mlrd. manatdan 34,9 mlrd. manata, xərclər isə 1,2 mlrd. manatdan 35,9 mlrd. manata yüksəlib ki, bu da təxminən 30 dəfə artım deməkdir.







Bütün dövrlərin dövlət büdcəsində ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi, sosialyönlü və investisiyayönlü xərcləri diqqətdə saxlanılıb.

Prezident İlham Əliyev xüsusilə ordu quruculuğuna həmişə diqqət və qayğı ilə yanaşıb. Təbii ki, bunun da başlıca səbəbi lazım gəldiyi anda Azərbaycanın ərazi bütövlüyünü hərbi yolla bərpa etmək qüdrətinə nail olmaq idi.

Müdafiə, milli təhlükəsizlik və hüquq-mühafizə ilə bağlı xərclər 2003-cü ildəki 155,0 mln. manatdan 8,7 mlrd. manata yüksəlib. Bu, 56 dəfədən də artıqdır.







Məhz 2020-ci ildə 44 günlük Vətən müharibəsində düşmən üzərində tarixi zəfər qazanmaqla bu siyasətin ən doğru seçim olduğunu bir daha dünyaya nümayiş etdirmiş olduq. Ata vəsiyyətini yerinə yetirən cənab Ali Baş Komandanın yüksək sərkərdəlik qabiliyyəti sayəsində bu gün Azərbaycan bütün ərazilərində öz suverenliyini bərpa edib. Bu qalibiyyətimiz də 2023-cü ilin sentyabr ayında aparılan lokal xarakterli antiterror tədbirləri nəticəsində baş verdi. Bu gün öz gücünü Ulu Öndər Heydər Əliyev ideyalarından alan, inkişaf və tərəqqi siyasətini davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan əmin addımlarla irəliləyir.

Ordu quruculuğu, milli təhlükəsizlik və hüquq-mühafizə ilə bağlı məsələlər növbəti illər üçün də prioritet olacaqdır. Növbəti ildə cari illə müqayisədə bu xərclərin daha 8% artımı nəzərdə tutulub.

Son 20 ilin büdcələrini xüsusiləşdirən məqamlardan biri də vətəndaş rifahının maliyyə təminatının hər ilin büdcəsində xüsusi diqqətdə saxlanılması, hər zaman dövlət büdcəsinin əhəmiyyətli bir hissəsinin sosial məsələlərə yönəlik olması ilə bağlıdır. Ölkəmizin iqtisadi cəhətdən qüdrətlənməsi dövlət başçımızın həyata keçirdiyi siyasətin ən başlıca hədəflərindən biridir. Bu siyasətin yürüdülməsi nəticəsində əldə olunan gəlirlər sosial sahələrə, insanların güzəranının yaxşılaşdırılmasına sərf olunur.

2003-cü ildə sosial sahələrə ayrılan xərclər 551,8 mln. manat təşkil edirdisə, bu gün bu rəqəm 11,1 mlrd. manata yüksəlib. Qeyd olunan dövr üzrə ÜDM-in nominal ifadədə artımı təxminən 13 dəfə, dövlət büdcəsinin sosial sahələrə ayrılan xərclərinin artımı isə 20 dəfədən çox olmuşdur. Sosial xərclər həm də iqtisadiyyatla müqayisədə daha sürətlə artır. Bu, sosial öhdəliklərin icrasının hər zaman prioritet olduğunun göstəricisidir.







Sosial sahədə aparılan islahatlara diqqət yetirsək görərik ki, respublikamızda böyük sosial paketlər, layihələr, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları reallaşdırılır və bundan milyonlarla vətəndaş bəhrələnir. Təsadüfi deyil ki, "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" ifadəsini çıxışlarında qeyd edən dövlət başçısı, eyni zamanda bildirir ki, Azərbaycan hökuməti daim öz vətəndaşının yanındadır və maddi imkanları hələ də məhdud olan vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması diqqət mərkəzindədir. Bu baxımdan Prezident İlham Əliyev tərəfindən sosial sahədə aparılan islahatların davamı olaraq bu sahədə xidmətlərin şəffaf, operativ və əlçatan şəkildə təşkilinə yönəlik bir sıra fərman və sərəncamlar imzalanıb.

Ölkəmizin xalis maliyyə aktivlərinə və ya strateji valyuta ehtiyatlarına nəzər salsaq, son 20 il ərzində burada artımın 40 dəfədən çox olduğunu deyə bilərik. Ölkəmiz xalis maliyyə aktivlərinin ÜDM-ə nisbət göstəricisinə (təxminən 70%) görə dünyada ön sıralardadır.







Həm Dövlət Neft Fondunun, həm də Mərkəzi Bankın ehtiyatlarında əhəmiyyətli artım izlənilir. Əlbəttə, rəqəmlərin böyüməsinə qiymət və hasilat faktorları təsir edir. Lakin bir məqama nəzər yetirmək lazımdır ki, bu gün yalnız bir mədaxil mənbəyi vəsaitlərin idarəedilməsindən daxilolmaların məbləği 20 il əvvəlki Dövlət Neft Fondunun büdcəsinin gəlirlərini təxminən 10 dəfəyə yaxın üstələyir.

*Rəqəmlərlə yanaşı, keyfiyyət dəyişikliyi ilə bağlı məqamlar da xüsusi vurğulanmalıdır.* Dövlət maliyyəsinin idarəedilməsi sahəsində son 20 ildə keçirilən islahatlar bir qəzet səhifəsinə, əlbəttə, yerləşdirilə bilməz. Bu baxımdan ən vaciblərini vurğulaya bilərik.

Dövlət maliyyəsinin yeni komponentləri formalaşdırılmışdır. Burada Dövlət Sosial Müdafiə, İşsizlikdən Sığorta, İcbari Tibbi Sığorta Fondlarını qeyd edə bilərik. Bu institutların hər biri sığorta prinsiplərinə əsaslanır və burada da islahatın qayəsində vətəndaş durur. Bu fondların bir büdcə ilinə düşən məbləği təxminən 10,0 mlrd. manat (dövlət maliyyəsinin komponentləri üzrə təkrarlanan elementlər nəzər alınmaqla) ətrafındadır. 20 il əvvəl isə bu fondların 2-si mövcud belə deyildi.

Dövlət maliyyəsinin idarəedilməsi sahəsində islahatlar arasında fiskal qaydaların ölkəmizdə tətbiqi də xüsusi qeyd edilməlidir. Bu, makroiqtisadi dayanıqlılığı, maliyyə və borc intizamını təmin edən büdcə siyasətinin həyata keçirilməsi üçün makroiqtisadi və büdcə göstəricilərindən ibarət çərçivəni əks etdirir. Hədəfləri cənab Prezident tərəfindən müəyyən olunan bu fiskal institutun formalaşdırılmasının məqsədi xərclərin maliyyələşdirilməsində qeyri-neft sektorunun payının artırılması, eləcə də dövlət borcunun dayanıqlılığının təmin edilməsidir. Sevindirici haldır ki, hər 2 göstərici üzrə əvvəlki illərə nəzərən irəliləyiş müşahidə olunur.

Mühasibat uçotu haqqında qanunvericilikdə dəyişikliklər edilməklə, ölkəmizdə həm dövlət, həm də özəl sektor üzrə uçotun tam olaraq beynəlxalq standartlara keçid edilməsi qərara alınmışdır. Bütün digər məqsədlərlə yanaşı, bu islahatın özəyi ölkəmizin investisiya mühitinin bir qədər yaxşılaşdırılması ilə əlaqəlidir.

Dövlət borcunun idarəedilməsi ilə bağlı strategiyanın qəbulu da keyfiyyət dəyişikliyini təmin edən məqamlardandır. Bu strategiya qlobal miqyasda formalaşmış yeni makroiqtisadi və maliyyə çağırışları fonunda dövlət borcunun idarəolunan səviyyədə saxlanılmasına xidmət edir.

Bu dövrdə ortamüddətli xərclər çərçivəsi və nəticəəsaslı büdcə islahatının tətbiqinə başlanılıb. Büdcə planlaşdırılmasının yeni mərhələsini ehtiva edən bu institutun tətbiqinin məqsədi dövlət sektorunun qurumlarında strateji idarəetmə prinsiplərinin istifadəsidir. Hələlik 3 sektorda pilot kimi tətbiq olunan bu yanaşmanın gələcəkdə genişləndirilməsi nəzərdə tutulub.

Dövlət satınalmaları ilə bağlı yeni qanunvericilik aktının qəbulu da dövlət maliyyəsinin idarəedilməsinin effektivliyinə töhfə verəcəyi düşüncəsindəyik. Bu, dövlət satınalmalarının əhatəsinin artırılmasına xidmət etməklə, eyni zamanda dövlət satınalmalarının səmərəliliyinin gündəmə gətirilməsinə səbəb olmuşdur.

Bu siyahını bir qədər də uzatmaq olar. Bura dövlət investisiyalarının idarəedilməsi və monitorinqi, açıq hökumətin təşviqi mexanizmləri, vahid büdcə təsnifatının yenilənməsi, dövlət büdcəsinin icrası ilə bağlı hesabatlılıq formalarının əhəmiyyətli genişləndirilməsi, dövlət sektorunun yeni institusional vahidi olan publik hüquqi şəxslərin fəaliyyətinin hüquqi tənzimlənməsi, dövlət müəssisələrində korporativ idarəetmənin və sağlamlaşdırmanın aparılması məqsədilə institusional dəyişikliklərin edilməsi aid edilə bilər.

Dövlət maliyyəsinin idarəedilməsi sahəsində islahatlar barədə danışdıqda, əlbəttə ki, ona nəzarət üzrə nailiyyətlər də qeyd olunmalıdır. Burada ən vaciblərini sadalamaq istərdim: Cənab Prezidentin fərmanı ilə 2018-ci ildən tətbiqinə başlanılmış "Hesablama Palatası haqqında" qanun beynəlxalq prinsip, standart və təlimatlara əsasən müəyyən edilmiş hər 3 auditin növünün hüquqi əsasını qoymuş oldu. Eyni zamanda qanuna əsasən, Hesablama Palatasının statusu ali audit orqanı olaraq müəyyən edildi, ona dövlət vəsaiti üzərində maliyyə nəzarəti səlahiyyəti verildi. Qanuna əsasən, Hesablama Palatasının təşkilati və funksional müstəqilliyi təsbit olundu. Məhz bu dəyişikliklər ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinin yaxşılaşmasına töhfə verdi. Məsələn, Açıq Büdcə İndeksi üzrə ölkəmizin audit orqanının mövqeyi 89 bal olmaqla dünya üzrə yüksəkdə olanlardandır.

*Sonda məsuliyyət hissi ilə bildirirəm ki, ali audit orqanı olaraq üzərimizə düşən bütün vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacaq, Ulu Öndər Heydər Əliyev və onun layiqli davamçısı olan möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən dövlət maliyyəsi sahəsində bizə göstərilmiş etimadı doğrultmaq üçün əlimizdən gələni edəcəyik. Bununla biz, ali audit orqanı tərəfindən cəmiyyət üçün dəyər yaratmağı və vətəndaşların həyatına müsbət dəyişikliklər gətirməyi nəzərdə tutan INTOSAI-P 12-də əksini tapmış prinsiplərin tətbiqinin gücləndirilməsini hədəfləyirik.*

**Vüqar GÜLMƏMMƏDOV,**
***Azərbaycan Respublikası Hesablama Palatasının sədri***

# Antiazərbaycançı şəbəkənin qəsd planı iflasa məhkumdur

## Mənfur siyasətin ruporu

### "The Washington Post" çirkin əməllərin daşıyıcısıdır

**"Dünya artıq bir çox hadisələrin fərqinə vardıqca Amerikanın iç üzü açılır, onun rəsmi dairələrinin əməlləri dünyaya bəlli olur. Çünki ABŞ tarixən müstəmləkəçilik yolunu tutub, dünyanın bir çox ölkələrini demokratiya pərdəsi altında özünün əsarətinə alaraq çoxsaylı faciələr, münaqişələr, müharibələr törədib. Ukrayna-Rusiya, eləcə də İsrail-Fələstin müharibələri, dünyanın bir çox ölkələrində baş verən qarşıdurmalar məhz Amerikanın, Fransanın çirkin məqsədlərinin nəticəsidir. ABŞ sözdə demokratiya, söz, mətbuat azadlığı, insanların hüquqlarının müdafiə edilməsi şüarları ilə çıxış etsə də, əməllərində tamamilə başqa yol tutur və özünün şəxsi maraqları üçün dünyanı müharibələrə sürükləyir".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Onun sözlərinə görə, nəinki ABŞ Konqresi, Senatı, parlamentariləri, eləcə də Amerikada fəaliyyət göstərən aparıcı mətbuat orqanları da bu məkrli məqsədlərdən qidalanır, pul gücünə, maliyyə hesabına özlərinin çirkin niyyətlərini həyata keçirmək üçün müstəqil dövlətlər, öz suverenliyini qazanan ölkələr haqqında bədnam məqalələr dərc edir, yalan, böhtan kampaniyası aparırlar: "Sözsüz ki, bu sahədə "The Washington Post" qəzeti xüsusilə fərqlənir. Azərbaycana qarşı münasibətdə də biz bunu aydın görürük. Həmin qəzetdə bu, birinci yazı deyil, dəfələrlə reallıqlara əsaslanmayan, faktlara söykənməyən bir çox məqalələr dərc edilib. Qəzet Azərbaycanın bilavasitə dövlət müstəqilliyinə kölgə salmaq, imicinə ziyan vurmaq məqsədilə özünün antidemokratik prinsiplərini həyata keçirməyə çalışıb".



Tahir Rzayev qeyd edib ki, belə yazılar Amerikanın dövlət siyasətindən, onun rəhbərlərinin əməllərindən qaynaqlanır və ilk növbədə erməni lobbisinin, ermənipərəst qüvvələrin maliyyəsi hesabına dərc edilir: "Bu gün Amerikanın Azərbaycana münasibətində tamamilə düşmən mövqeyi görürük. Çünki istər Amerika Konqresi, istərsə də bir çox rəsmi nümayəndələr son aylar Azərbaycan əleyhinə tamamilə yanlış mövqedən çıxış edirlər. Onlar Ermənistana maliyyə vəsaiti ayıraraq, onu silahlandıraraq Cənubi Qafqazda müharibəni yenidən alovlandırmaq fikrindədirlər. Sözsüz ki, bu məqsədlə Ermənistan kartından istifadə edirlər. "The Washington Post" da məhz bu çirkin əməllərin daşıyıcısıdır. Çünki Azərbaycan torpaqları 30 il işğal altında qaldığı, bir milyondan çox qaçqınımız illər boyu əzab-əziyyət çəkdiyi zaman nə bu mətbu orqan, nə də Amerikanın rəsmi dairələri Azərbaycan haqqında, haqlı tələblərimizlə bağlı bir kəlmə də dilə gətirdilər, əksinə, təcavüzkarı - Ermənistanı müdafiə etmək mövqeyində durdular. Dünən də belə idi, bu gün də belədir və sabah da belə olacaq".

Komitə sədri deyib ki, Amerika, onun mətbuat orqanları, dövlət rəsmiləri demokratiyaya, azadlığa, insan hüquqlarına heç də dəstək vermirlər: "Onlar silah satmaq, ölkələri qarət etmək, xalqları incitmək yolunu tutublar və bu mənfur siyasəti uzun illərdir həyata keçirirlər. "The Washington Post" da bu yoldadır və həmin dairələrin sözünü deməyə məcburdur, qarşıya onların yolunu davam etdirmək məqsədini qoyub".

Tahir Rzayev vurğulayıb ki, Azərbaycan qüdrətli, inkişaf edən dövlətdir və onunla diktə dili ilə danışmaq mümkün deyil. Xalqımız, ordumuz, Prezidentimiz 44 günlük müharibə dövründə gücümüzü, birliyimizi, qüdrətimizi ortaya qoydu və keçirilən 23 saatlıq antiterror tədbirləri ilə Qarabağda erməni separatçıların kökünü kəsdi. Dövlət başçısı dəfələrlə ABŞ-nin mənfur siyasətini dünyaya açıb göstərib, öz fikirlərini açıq bildirib və qeyd edib ki, Amerika bu gün ədalətsiz yoldadır, tutduğu yol iki ölkə arasında münasibətlərə ciddi xələl gətirir. Bu, gələcək üçün yaxşı heç nə vəd etmir".

"The Washington Post"un tutduğu yolun yanlış olduğunu qeyd edən komitə sədri bildirib ki, bu, yolverilməzdir, xalqımız haqq, ədalət, demokratiya uğrunda mübarizəsini davam etdirir və bu yoldan onu heç bir qüvvə, yalan, böhtan, şantaj kampaniyası döndərə bilməz.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## "Ağ Ev ölkələrə qara yaxmağa adət edib"

**ABŞ-nin " The Washington Post" qəzeti növbəti dəfə Azərbaycana qarşı sərt ittihamlarla dolu redaksiya məqaləsi dərc edib. Qəzet ölkəmizi guya söz azadlığının olmamasında, korrupsiya hallarının geniş yayılmasında, həmçinin siyasi motivli həbslərin baş verməsində ittiham edib.**



Azərbaycanın müstəqil siyasətini həzm edə bilməyən ABŞ belə çirkin kampaniyalar təşkil etməklə ölkəmizin beynəlxalq imicini korlamaq niyyətindədir. Lakin dəfələrlə sifarişli yazıları ilə gündəmə gələn "The Washington Post"un ittihamları bizim üçün heç bir əhəmiyyət kəsb etmir.

Bu mövzu ilə bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Ceyhun Məmmədov bildirib ki, sözügedən məqalə ABŞ-nin növbəti riyakarlığının və ikiüzlülüyünün göstəricisidir: "Belə əsassız ittihamlar bu dövlətin haqq-ədalətin yanında olmadığını, yalnız öz hegemon maraqlarını düşündüyünü açıq-aydın göstərir. Görünür, ABŞ-yə Trampla bağlı hadisələri, ölkədə qaradərililərə qarşı polis zorakılığının geniş yayıldığını, siyasi müstəvidə baş verən müxtəlif diskriminasiyaları tez-tez xatırlatmaq lazımdır. Əgər söhbət insan hüquqlarının pozulmasından gedirsə, sözsüz ki, ABŞ liderlər sırasındadır".

Deputat deyib ki, Ermənistanda baş verən kəskin siyasi proseslərə heç bir reaksiya vermədikləri halda yalnız Azərbaycanı hədəfə almaları onların niyyətinin sağlam olmadığını sübut edir. Bu gün Paşinyan bütün siyasi həmfikirlərinə qarşı təzyiqlər göstərir, orada siyasi motivli həbslərin sayı çoxdur. Lakin buna baxmayaraq, Paşinyan demokrat kimi təqdim olunur.

Ceyhun Məmmədovun sözlərinə görə, ABŞ-nin "demokratiya"sı heç bir müsəlman ölkəsinə uğur gətirməyib: "Əfqanıstanda, İraqda, eləcə də Suriyada baş verənlərin günahını və məsuliyyətini birbaşa ABŞ daşıyır. Ona görə də bu ölkənin bizə ağıl öyrətməyə haqqı yoxdur. ABŞ öz işləri ilə məşğul olsa daha yaxşıdır".

Deputat həmçinin onu da qeyd edib ki, ölkəmizin uğurları ABŞ-ni ciddi şəkildə narahat etdiyinə görə bu ölkənin belə absurd yollara əl atması təbiidir: "Görünür, qəzet öz ambisiyalarına uyğun gəlmədiyi halda, hansısa ölkələrin və ya siyasi şəxslərin imicini korlamağı adət edib. Lakin biz nəyi necə və nə vaxt etmək lazım olduğunu hər kəsdən yaxşı bilirik. Bizə ABŞ-nin hələ heç kimə xoşbəxtlik gətirməyən "demokratiya"sı və "söz azadlığı" lazım deyil".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

## Köhnə hamam, köhnə tas...

### ABŞ əli çatmayana ədalətsiz tribunası olan mətbuatla qara yaxır

**Qərbin, eyni zamanda ABŞ-nin son zamanlar Azərbaycan əleyhinə davamlı fəaliyyəti danılmazdır. Amerikanın rəsmi şəxslərinin qərəzli, ədalətsiz, əsassız çıxışlarının tez-tez şahidi oluruq. Amma sözlərinin kəsərli olmadığını görəndə qələmə üz tuturlar. Çirkin məqsədlərindən istifadə zamanı müəyyən mətbu orqanları pulla alır, öz ədalətsiz tribunalarına çevirirlər.**



Bu il ərzində dəfələrlə Azərbaycana qarşı qərəzli, əsassız məqalələr dərc edən mətbu orqanlar arasında ABŞ-nin "The Washington Post" qəzeti də yer alır. Bəli, söhbət son illər erməni lobbisinin, müəyyən siyasi dairələrin maliyyəsi hesabına sifarişli yazıları ilə ad çıxaran "Washington Post"dan gedir. Maraqlısı odur ki, görəsən, söz azadlığından dəm vuran mətbu orqanın tapşırıqlı yazıları özündə hansı azadlığı ifadə edir?

Milli Məclisin deputatı Azər Badamov "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, ABŞ-nin "The Washington Post" qəzeti həm Amerikada, həm də ölkə hüdudlarından kənarda sifarişli və əsassız yazılar dərc edən mətbuat orqanı kimi ad qazanıb.

Deputat qəzetin keçmiş prezident Donald Trampa qarşı iftira dolu yazılar yaydığına görə məhkəməyə verildiyini xatırladıb: "O cümlədən belə məhkəmə predmeti olan digər yazılar da dəfələrlə dərc olunub və qəzet məhkəmələrə verilərək təzminatlar ödətdirilib. Demokratlar Partiyasının sol qanadının əsas media ruporu olan bu mətbuat orqanı şəxsi maraqlar naminə istər ABŞ daxilində, istərsə də dünyanın fərqli ölkələrindəki siyasətçiləri və hökumətləri hədəfə alır. Azərbaycan haqqında da ermənilərin və qələbəmizi həzm edə bilməyənlərin sifarişlərini işıqlandırır. Məqalədə Azərbaycanda mətbuat azadlığının boğulduğu, demokratik təsisatlara imkanların məhdudlaşdırıldığı ilə bağlı əsassız fikirlər səsləndirilir. Amma belə yazıların tam əksi olaraq, Azərbaycan söz azadlığını təmin edən, mətbuatda senzuranı ləğv etmiş və sosial şəbəkələrdə heç bir məhdudiyyət tətbiq olunmadan hər bir kəsin fikir ifadəsinə şərait yaratmış ölkədir".

A.Badamov bildirib ki, Azərbaycana qarşı yazını sifariş edənlər sadəcə Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin əldə etdiyi qələbəni və iqtidar-xalq birliyini həzm edə bilmirlər: "ABŞ-nin "demokratiya carçıları" digər ölkələrdə siyasi sabitliyi pozmağa və ölkələri xaosa sürükləməyə öyrəşiblər. Azərbaycana gələndə isə onların çirkin planları ayaq tutub yeriyə bilmədiyinə görə öz mətbuatlarında qarayaxma kampaniyasını davam etdirirlər".

Maliyyə çətinliyini yaşayan "The Washington Post" qəzeti üçün əsas məsələnin pul olduğunu deyən deputat əlavə edib ki, kim pul verib yazı sifariş edirsə, bu qəzet əsaslandırma aparmadan həmin yazıların yayımını təşkil edir: "Təbii ki, ölkəmizin əleyhinə yönəlmiş belə yazılar onların Azərbaycana qarşı münasibətini göstərməsindən başqa bir şey deyil. Həm də "The Washington Post" qəzetinin fəaliyyətinin pul, yalan və sifariş üzərində qurulduğunu bütün dünya bilir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Azadlıqdan dəm vuran "Freedom House"un özü azad deyil

**Azərbaycana qarşı həmişə qərəzli mövqe nümayiş etdirən "Freedom House" beynəlxalq qeyri-hökumət təşkilatı hazırladığı son hesabatında yenə də ölkəmiz haqqında həqiqətdən çox-çox uzaq olan uydurma məlumatlar yayıb. Yarandığı vaxtdan indiyə qədər dilinə doğru söz gəlməyən "Freedom House"un 2023-cü il üzrə hesabatı da əvvəlkilərdən heç nəyi ilə fərqlənmir.**



"Qlobal demokratiya və azadlıqlar indeksi", "İnternet azadlığı indeksi" və digər bu kimi hesabatlar təşkilatın veb-səhifəsində yerləşdirilib. Ayrı-ayrı ölkələrin "azad", "yarım-azad" və "qeyri-azad" kateqoriyalar üzrə təsnifatlaşdırıldığı bu hesabatlar hər il olduğu kimi, bu dəfə də ciddi etirazlara səbəb olub. Hesabatla elə ilk tanışlıqdan hiss olunur ki, təşkilatın apardığı "tədqiqatlar", "təhlillər" elmi metodologiyalardan daha çox, siyasi baxışlara söykənib. Əgər belə olmasaydı, reallığı əks etdirər, həqiqətə güzgü tutardı.

Burada diqqəti çəkən məqam odur ki, hesabatın hətta preambula hissəsində Çinin, Rusiya və İranın adları çəkilir. Bu dövlətlər ictimaiyyətə "bütün azadlıq indeksləri üzrə pis tendensiyaların yaradıcıları" kimi təqdim edilirlər. Hamıya məlumdur ki, adları çəkilən bu dövlətlər ABŞ-nin strateji planlarında hədəf seçilən, rəqib qismində görünən və "şər üçbucağı" adlandırılan ölkələrdir. Onlar eyni prinsip əsasında "Freedom House" tərəfindən də hədəfə alınırlar. Açıq-aydın görünür ki, bu təşkilat "hesabat"ını ABŞ-nin dirijorluğu ilə hazırlayıb. ABŞ-nin siyasəti ilə razılaşmayan bu və ya digər dövlətlər "qeyri-azad ölkələr" indeksi üzrə dəyərləndirilirlər. Hansı dövlətlər ki, Amerika ilə müttəfiqdir, hesabatda onlara müsbət rəy verilir.

Qeyd etdiklərimiz "Qlobal demokratiya və azadlıqlar indeksi"nin obyektivliyini şübhə altına alan yeganə məqam deyil. "Freedom House" ABŞ-nin siyasi hədəflərinə uyğun davranışlarını davam etdirərək mərhələ-mərhələ digər ölkələrə də yer ayırır. Türkiyə başda olmaqla, Türk Dövlətlər Təşkilatına üzv olan ölkələri də özünün qarayaxma kampaniyasına qatır.

"Freedom House"un bu qərəzli addımlarına aydınlıq gətirmək üçün bir neçə faktı vurğulamaq yerinə düşərdi. Qeyd edək ki, Ermənistan "Qlobal demokratiya və azadlıqlar indeksi", həmçinin "İnternet azadlığı indeksi" üzrə 2-ci kateqoriyada, yəni yarım-azad ölkələr sırasında yerləşdirilib. Türkiyə isə ondan geri pillədə - "azad olmayan" dövlətlər sırasında yer tutub. Türkiyəni Ermənistanla müqayisə etmək, Ermənistanı yüksək, Türkiyəni isə aşağı kateqoriyada göstərmək nümunəsi "Freedom House" tərəfindən hazırlanmış hesabatların gerçək olmadığını üzə çıxarır. Yeri gəlmişkən onu da diqqətə çatdıraq ki, "Freedom House" tərəfindən hazırlanmış "İnternet azadlığı indeksi"ndə 100 ölkə arasında 39 ölkə qeyri-azad, 29 ölkə yarımazad, 31 ölkə isə tam azad ölkə kimi göstərilib. ABŞ-nin maraqlarına rəqib olan dövlətlərin hamısı qruplaşdırılaraq, "39 qeyri-azad ölkə" kateqoriyasına salınıb.

13 ildir ki, "Freedom House" "internet azadlığı indeksi"nin vəziyyətini dünya ictimaiyyətinə açıqlayır. Hər dəfə də hansısa yeni maxinasiyası və yalanları ilə özünü ifşa edir. 2023-cü il hesabatı da bu baxımdan əvvəkilərdən heç nəyi ilə fərqlənmir. Sanki ötənilki hesabatın yalnız tarixini dəyişərək yenidən dünyaya sırımağa çalışır. Sonuncu hesabatın "özəl xüsusiyyəti" "Freedom House" tərəfindən etnik-separatizmin dəstəklənməsidir. Gülünc doğuran odur ki, bu təşkilat 2023-cü il hesabatında özü səhvə yol verərək "Dağlıq Qarabağ"ı Azərbaycandan ayrı bir qurum kimi qiymətləndirir. Hansı ki, bu qondarma qurum sentyabr ayında özünü buraxdığını rəsmən təsdiq edib. Amma bu təşkilat hələ də ölmüş bir qurumu dünya ictimaiyyətinə diri kimi göstərir. Beləliklə, ABŞ-nin son bir il ərzində Azərbaycana qarşı həyata keçirdiyi təxribatçı siyasət "Freedom House" tərəfindən hazırlanan hesabatlarda da əksini daha eybəcər şəkildə tapıb. Sanki ABŞ-nin siyasəti ilə "Freedom Hause"un hesabatı bir medalın eyni üzüdür, adı başqadır. ABŞ Ermənistan-Azərbaycan münasibətlərinin "tənzimlənməsində" hansı maxinasiyaları tətbiq edirsə, "Freedom House" da "demokratik azadlıqlar indeksi"ndə həmin siyasəti təkrarlayır. Olmayan "Dağlıq Qarabağ"ı əlahiddə subyekt kimi göstərməklə Azərbaycanın ərazi bütövlüyünə qarşı hörmətsizlik edir. Ən acınacaqlısı odur ki, hesabatda çoxdan inzibati ərazi kimi ləğv olunmuş "Dağlıq Qarabağ" həm də "demokratik azadlıqlar" konteksində Azərbaycandan qoparılır. Hesabatda Azərbaycan "qeyri-azad", "Dağlıq Qarabağ" isə "yarım-azad" ərazi kimi dəyərləndirilərək Ermənistanla eyniləşdirilir. Göründüyü kimi, "Freedom Hause"un də mövqeyi ABŞ ilə üst-üstə düşür. Deməli, bu təşkilat Amerikanın barmağının işarəsi ilə oturub-durur.

"Freedom House"un dünəninə boylananda görürük ki, bu təşkilat Azərbaycan müstəqilliyini elan etdiyi gündən indiyə qədər heç vaxt ölkəmiz haqqında obyektiv rəy sərgiləməyib. "Freedom House" bu illər ərzində hazırladığı hesabatlarda Azərbaycana qarşı qərəzli münasibət nümayiş etdirib. Həmişə qaraya ağ, ağa da qara deyib. Belə gedişlə, yəqin ki, bu təşkilat heç vaxt mövqeyindən əl götürməyəcək. Tutuquşu kimi ABŞ-nin dediklərini təkrar edəcək.

Bir şey də ürəkaçan deyil ki, təşkilat bu cür ədalətsiz, qərəzli davranışlarını gizlətmir də. Veb səhifəsində açıq-açığına yazır ki, o, ABŞ-nin siyasi maraqlarının qlobal təbliğatçısı və təşviqatçısıdır. Bu etiraf artıq kölgədə qalan hər şeyi deyir.

Reallıqla yanaşanda demokratiyadan dəm vuran beynəlxalq təşkilat öz işini sifarişlər üzərində qurmamalıdır, kiminsə diktəsi ilə işləməməlidir. Ya olduğu kimi görünməli, ya da göründüyü kimi olmalıdır. Özünü beynəlxalq təşkilat elan edibsə, müstəqilliyini qorumalı, obyektiv olmalı, demokratik inkişaf, insan haqları, azadlıqlar uğrunda gerçəkdən çalışmalıdır. Hazırladığı hesabatın mahiyyətinə, məqsədinə baxanda aydın görünən odur ki, "Freedom House" özü azad və müstəqil deyil. Buna görə də, onun hazırladığı "Qlobal demokratiya və azadlıqlar indeksi", həmçinin, "İnternet azadlığı indeksi" azadlıqların dəyərləndirilməsi üçün əsas meyar kimi qəbul edilə bilməz.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Özbəkistan parlamentinin nümayəndə heyəti ölkəmizdə səfərdədir





**Dekabrın 4-də ölkəmizdə səfərdə olan Özbəkistan Respublikası Ali Məclisi Senatının Aparat rəhbəri Qüdrət Nurullayevin başçılıq etdiyi nümayəndə heyəti Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə tər çiçəklər düzüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, sonra nümayəndə heyəti Şəhidlər xiyabanını ziyarət edərək, ölkəmizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb. Eyni zamanda "Əbədi məşəl" abidəsi ziyarət olunub.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən qonaqlara Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Ziyarət zamanı nümayəndə heyətini Milli Məclis Aparat rəhbərinin müavini Rüstəm Mahmudov və digər rəsmi şəxslər müşayiət ediblər.

❖ ❖ ❖



Sonra Özbəkistan Respublikası Ali Məclisi Parlamentinin nümayəndə heyəti Milli Məclisin inzibati binasına gəlib.

Parlamentin plenar iclas zalı ilə tanış olan qonaqlara Milli Məclisin fəaliyyəti və qanunvericilik prosesinin həyata keçirilməsi prosesi haqqında geniş məlumat verilib.

"Heydər Əliyev adına xatirə zalı"na dəvət olunan qonaqlar, müstəqil Azərbaycan dövlətinin həyatında əlamətdar rol oynayan Konstitusiya aktı ilə, Milli Məclisin qəbul etdiyi tarixi sənədlərlə yaxından tanış olublar. Burada onlara müasir müstəqil Azərbaycanın qurulmasında müstəsna rolu olan Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti, Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirdiyi daxili və xarici siyasəti, müstəqil Azərbaycanın gücləndirilməsi və müasir dövlətin qurulması naminə görülən işlərlə bağlı geniş məlumat verilib.

Sonra Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış qələbəyə həsr olunmuş Zəfər Guşəsi ilə tanış olan qonaqlara Milli Məclisin foyesində yaradılmış həmin guşə haqqında məlumat verilib. Bildirilib ki, Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə yaradılmış bu guşəyə müharibə dövründə canlarından keçərək şəhidlik zirvəsinə ucalan əsgər və zabitlərimizin adları həkk olunub. Qonaqlar guşədə yer alan və Vətən müharibəsində qələbə münasibətilə təsis olunmuş orden və medallarla da tanış olublar.

*"Azərbaycan"*

# Özbəkistan parlamentinin nümayəndə heyəti Milli Məclisdə olub

**Dekabrın 4-də Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev ölkəmizdə səfərdə olan Özbəkistan Respublikası Ali Məclisi Senatının Aparat rəhbəri Qüdrət Nurullayevin başçılıq etdiyi parlament nümayəndə heyəti ilə görüşüb.**







Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Parlament Aparatının rəhbəri qonaqları Milli Məclisdə salamlayaraq bildirib ki, Azərbaycan və özbək xalqları arasında dərin köklərə söykənən dostluq əlaqələri ölkələrimiz müstəqillik əldə etdikdən sonra daha da möhkəmlənib. Bu sahədə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xidmətləri geniş ictimaiyyətə yaxşı məlumdur. O, bu gün iki ölkə arasında münasibətlərin gücləndirilməsində Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin xidmətlərindən danışıb.

Fərid Hacıyev 44 günlük Vətən müharibəsi və cari ildə həyata keçirilən uğurlu lokal antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam bərpa edilməsi barədə söhbət açıb. O, Prezident Şavkat Mirziyoyevin tapşırığına əsasən işğaldan azad edilmiş Füzuli şəhərində Özbəkistan tərəfindən məktəb binasının tikilməsinə görə təşəkkürünü bildirib.

Söhbət zamanı Fərid Hacıyev spiker Sahibə Qafarovanın Özbəkistana rəsmi səfəri çərçivəsində Azərbaycan və Özbəkistanın qanunverici orqanları arasında imzalanmış əməkdaşlıq haqqında sazişin əhəmiyyətini vurğulayıb.

Sonra Parlament Aparatının rəhbəri Milli Məclisin strukturu, fəaliyyəti, ölkədəki seçki sistemi, parlamentdə təmsil olunan partiyalar, mövcud komitə və komissiyalar, qanun yaradıcılığı prosesi barədə qonaqlara məlumat verib.

Özbəkistan Respublikası Ali Məclisi Senatının Aparat rəhbəri Qüdrət Nurullayev ölkəmizə dəvətə və səmimi görüşə görə öz minnətdarlığını ifadə edib. O, ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu, bir çox sahələrdə qarşılıqlı faydalı əlaqələrin inkişaf etdiyini söyləyib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi münasibəti ilə təbriklərini çatdıran qonaq Ulu Öndərin xatirəsinin Özbəkistanda əbədiləşdirildiyini, Heydər Əliyevin adının Daşkənd şəhərinin mərkəzi küçələrindən birinə verildiyini və barelyefinin qoyulduğunu diqqətə çatdırıb.

Senatın Aparat rəhbəri ölkəsinin Azərbaycanın öz əzəli torpaqlarını işğaldan azad etməsindən məmnunluğunu ifadə edib. O, Özbəkistan dövlət başçısının təşəbbüsü ilə ölkəsinin Füzuli şəhərində müasir məktəb binası inşa etməsini xalqlarımız arasında möhkəm dostluq əlaqələrinin rəmzi kimi qiymətləndirib.

Sonra görüşdə iştirak edən Özbəkistan Ali Məclisinin Qanunvericilik Palatasının Aparat rəhbəri vəzifəsini icra edən Boburcan Rədcəbov çıxış edərək bu görüşün parlamentlərarası əlaqələrinin gələcək inkişafına xidmət edəcəyini söyləyib.

Söhbət zamanı Boburcan Rədcəbov Özbəkistan parlamentinin fəaliyyəti ilə bağlı geniş məlumat verib.

Görüşdə qanunvericilik sahəsində əməkdaşlıq, parlamentlərarası əlaqələrin genişləndirilməsi ilə bağlı da fikir mübadiləsi aparılıb.

❖ ❖ ❖

Sonra Milli Məclisin Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvlərinin Özbəkistan Respublikası Ali Məclisi Senatının Aparat rəhbəri Qüdrət Nurullayevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü olub.

Qonaqları salamlayan parlamentin İntizam Komissiyasının sədri, Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov strateji əməkdaşlıq xarakteri daşıyan Azərbaycan-Özbəkistan qardaşlıq münasibətlərinin çoxəsrlik tarixindən danışıb. Dövlət başçıları arasında da xoş və səmimi münasibətlərin olduğunu deyən işçi qrupunun rəhbəri ölkə başçılarının qarşılıqlı səfərlərinin, həmçinin keçirilən görüşlərin əhəmiyyətini xüsusi vurğulayıb.

Görüşdə əlaqələrimizin dərinləşməsində qanunverici orqanların özünəməxsus rolu qeyd olunub, parlament spikerlərinin qarşılıqlı səfərlərinin, təmasların mühüm əhəmiyyəti barədə danışılıb. Deputatlarımızın dostluq qrupları çərçivəsində, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığı müsbət qiymətləndirilib.

Eldar İbrahimov ərazilərimizin Ermənistan tərəfindən 30 illik işğalına son qoymuş 44 günlük Vətən müharibəsindən sonra bu torpaqlarda aparılan bərpa-quruculuq işləri barədə danışıb, Füzuli rayonunda məktəb tikintisi ilə bağlı verdiyi dəstəyə görə Özbəkistana minnətdarlığını bildirib.

Görüşdə Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Cavanşir Paşazadə, Elman Nəsirov, Aydın Hüseynov ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin möhkəmləndirilməsi ilə bağlı fikirlərini səsləndiriblər.

Səmimi qəbula görə təşəkkür edən Özbəkistan Ali Məclisi Senatının Aparat rəhbəri Qüdrət Nurullayev Azərbaycan və Özbəkistan arasında strateji tərəfdaşlığın uğurla inkişaf etdiyini bildirib. O, çoxəsrlik tarixə malik olan dostluq və qardaşlıq münasibətlərinin genişləndirilməsində qanunverici orqanların rəhbərlərinin rolunu qeyd edib, dostluq qruplarının səmərəli əməkdaşlığından danışıb.

Özbəkistanda Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin xatirəsinin dərin ehtiramla yad edildiyini deyən Senatın Aparat rəhbəri bu böyük şəxsiyyətin 100 illik yubileyinin ölkəsində də təntənəli şəkildə qeyd olunduğunu diqqətə çatdırıb.

Qonaq Özbəkistan Ali Məclisi Senatının Aparatı ilə Milli Məclis Aparatı arasında əlaqələrin dərinləşməsindən, gələcəkdə nəzərdə tutulan birgə layihələrdən bəhs edib.

❖ ❖ ❖

Milli Məclis Aparatı rəhbərinin müavini Rüstəm Mahmudov və Parlament Aparatının bir neçə şöbə müdiri dekabrın 4-də Özbəkistan Respublikası Ali Məclisi Senatının Aparat rəhbəri Qüdrət Nurullayevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüblər.

Milli Məclis Aparatı rəhbərinin müavini Rüstəm Mahmudov qonaqları salamlayaraq, Azərbaycan Parlamentinin Sədri Sahibə Qafarovanın parlamentlərarası əməkdaşlıq kontekstində aparatlar səviyyəsində əlaqələrə böyük önəm verdiyini diqqətə çatdırıb. O, Milli Məclisin beynəlxalq fəaliyyəti və həyata keçirdiyi uğurlu parlament diplomatiyasından söz açaraq, Azərbaycan və Özbəkistan parlamentlərinin qlobal parlament dialoqunun möhkəmlənməsində oynadığı rolundan danışıb, parlamentlərimizin müxtəlif beynəlxalq parlament platformalarında, o cümlədən Qoşulmama Hərəkatı Parlament Şəbəkəsində səmərəli əməkdaşlığını vurğulayıb.

Görüşdə Parlament Aparatının Milli Məclisin, komitələrin və komissiyaların işinin təşkili şöbəsinin müdiri Gülnarə İsmayılova, Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Mehman Qaibov, Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev, İnformasiya resursları və texnologiyaları şöbəsinin müdiri Şahin Həsənov rəhbərlik etdikləri şöbələrin funksiyaları, iş prinsipləri və tətbiq etdikləri texnoloji yeniliklər barədə məlumat veriblər.

Söhbət zamanı parlament aparatlarının strukturları arasında əməkdaşlığın və təcrübə mübadiləsinin inkişaf etdirilməsi, həmçinin tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Qərbi Azərbaycan İcmasında beynəlxalq konfransın iştirakçıları ilə görüşlər olub

**Dekabrın 5-də Qərbi Azərbaycana həsr olunmuş "Ermənistandan didərgin salınmış azərbaycanlıların təhlükəsiz şəkildə və ləyaqətlə geri qayıdışını təmin etmək: Qlobal kontekst və ədalətli həll" mövzusunda beynəlxalq konfransa qatılmaq üçün Azərbaycana səfər etmiş iştirakçılarla Qərbi Azərbaycan İcmasında görüşlər baş tutub.**



Qərbi Azərbaycan İcmasından AZƏRTAC-a bildirilib ki, ilk görüşdə icmanın İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, icma sədrinin müavini, deputat Ramil Həsən, Xaricdə yaşayan Qərbi Azərbaycan İcmasının üzvləri - Almaniya Azərbaycanlıları Alyansının rəhbəri, Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, tibb elmləri doktoru, dosent Nuran Abdullayev, azərbaycanlı hüquqşünas, politoloq, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, "Qərbi Azərbaycana Qayıdış" təşkilatının rəhbəri Zaur Sadıqbəyli, Şimali Karolina-Qrinsboro Universitetinin Sülh və Münaqişələrin Tədqiqatları Departamentinin dosenti və həmsədri Əli Əsgərov iştirak ediblər.

İcma sədri Əziz Ələkbərli Qərbi Azərbaycana qayıdış istiqamətində xaricdə yaşayan soydaşlarımızın məqsədyönlü fəaliyyətinin böyük önəm daşıdığını bildirib. Sədr qeyd edib ki, bununla bağlı xaricdə yaşayan qərbi azərbaycanlıların üzərinə mühüm vəzifə düşür.

İcma sədrinin müavini Ramil Həsən deportasiyalar nəticəsində öz ata-baba yurdlarından çıxarılan soydaşlarımızın bu insanlıq əleyhinə cinayət nəticəsində dünyanın müxtəlif ölkələrinə də səpələndiyini, bütün bu halların deportasiyaların miqyasının nə qədər geniş olduğunu deməyə əsas verdiyini diqqətə çatdırıb.

Xaricdə yaşayan soydaşlarımız Nuran Abdullayev, Əli Əsgərov və Zaur Sadıqbəyli icma rəhbərliyinin səsləndirdikləri fikirlərə qoşularaq ata-baba yurdlarına qayıdışla bağlı xaricdəki soydaşlarımızın təşkilatlanmasının önəmini vurğulayıblar.

Qeyd edək ki, konfransda Azərbaycandan və 30-dan artıq ölkədən 100-dən çox millət vəkili, ekspert və digər tanınmış şəxslər iştirak edəcəklər.

# Bakıda əlilliyi olan şəxslərin və mina qurbanlarının hüquqlarının müdafiəsi ilə bağlı tədbir keçirilib

**Dekabrın 4-də Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatı və Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Azərbaycanda əlilliyi olan şəxslərin və mina qurbanlarının hüquqlarının müdafiəsi" mövzusunda "dəyirmi masa" keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən insan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva əlilliyi olan şəxslərin hüquqlarının daim müdafiə və təşviq, onlar üçün ictimai həyatın bütün sahələrində bərabər imkanların yaradılmasının təmin edilməli, bu sahədə maarifləndirmə işinin daha da gücləndirilməli olduğunu bildirib. O qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal dövründə, habelə ondan sonrakı illərdə Qarabağ və Şərqi Zəngəzur bölgələrində çoxsaylı minalar və partlamamış hərbi sursatlar yerləşdirilib, qarşı tərəf isə hələ də onların xəritə-sxemləri barədə dəqiq məlumatları vermək istəmir.

Ombudsman həmçinin diqqətə çatdırıb ki, statistik məlumatlara əsasən, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ilə nəticələnmiş Vətən müharibəsinin başa çatdığı 2020-ci il noyabrın 10-dan indiyədək arasında mülki şəxslərin üstünlük təşkil etdiyi 65 nəfər mina partlayışı nəticəsində həlak olub, 272 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb. Ümumilikdə 1991-ci ildən bu günədək 357-si uşaq, 38-i qadın olmaqla 3416 nəfər minadan zərərçəkən qeydə alınıb.

"Böyük təəssüf hissi ilə bir daha qeyd etmək istəyirəm ki, çoxsaylı insan itkilərinə, ağır xəsarətlərə və minlərlə insanın əlilliyinə səbəb olan qlobal mina terroru işğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı tikinti-quruculuq, bərpa işlərinə, eləcə də ədalətli və davamlı sülhə ciddi maneə yaratmaqda, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına təhlükəsiz qayıdışı prosesini ləngitməkdədir", - deyə Səbinə Əliyeva qeyd edib.

Mina qurbanlarına və onların ailələrinə müxtəlif istiqamətlərdə yardımların göstərilməsinin vacibliyini vurğulayan Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Draqana Koiç bildirib: "2020-ci ildən sonra Azərbaycanda mina qurbanlarının böyük əksəriyyəti kişilərdir. Nəzərə alsaq ki, onlar ailələrinə baxan əsas şəxslərdir, onların ailələrinin ehtiyac duyduğu xidmətlərlə təmin edilməsi çox vacibdir. Biz Ombudsman Aparatına dəstək göstərməyə hazırıq. Məqsədimiz qabaqcıl təcrübələri nəzərdən keçirmək, boşluqları müzakirə edib onları aradan qaldırmaq və gələcəkdə görə biləcəyimiz işlərin müzakirəsidir".

Azərbaycan Minatəmizləmə Agentliyinin (ANAMA) Maarifləndirmə, Beynəlxalq və İctimaiyyətlə Əlaqələr İdarəsinin müdir müavini Fərhad İsayev diqqətə çatdırıb ki, azad olunmuş ərazilərdə 147 min 988 hektar sahə minalarla və partlamamış hərbi sursatlarla yüksək səviyyədə, 675 min 570 hektar sahə isə orta səviyyədə çirklənib. Tapılan partlayıcı qurğular arasında 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalar da var. Bunlar da qanunsuz erməni birləşmələri tərəfindən ərazimizə daşınıb. Yaşayış məntəqələri həmçinin sökülərək daşınıb. Ərazilərimizdə minalarla yanaşı, sürpriz tələlərdən, partlayıcı qurğulardan da istifadə olunub. Əksər tələlər isə sadə vətəndaşlara qarşı qurulub. 2020-ci ilin noyabrından bu günədək ümumilikdə 197 mina hadisəsi baş verib. Onlardan 56-sı keçmiş təmas xətti boyunca, 141-i isə keçmiş təmas xəttindən çox-çox uzaqlarda baş verib. Bu isə onu göstərir ki, bütün bu minalanma mülki əhaliyə qarşı yönəlib. İndiyədək 390 min 709-dan artıq piyada və tank əleyhinə partlayıcı qurğu aşkarlanaraq zərərsizləşdirilib. O həmçinin qeyd edib ki, Azərbaycanda artıq minatəmizləyən maşınlar istehsal olunur. Onlar tank və piyada əleyhinə minaları aşkarlayır. Bu maşınlar hazırda istifadədədir.

Əhalinin maarifləndirilməsi məsələsinin vacibliyinə toxunan Fərhad İsayev qeyd edib: "İndiyədək ANAMA-nın müvafiq idarəsi tərəfindən 445 min 232 nəfər üçün mina təhlükəsi barədə maarifləndirmə tədbiri keçirilib, 150 mindən çox çap materialı paylanılıb. Ümumi olaraq təhlükəli ərazilərdə 925 xəbərdaredici işarə, nişan quraşdırılıb".

Tədbirdə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının rəhbəri Aydın Səfixanlının moderatorluğu ilə aidiyyəti dövlət orqanlarının, ictimai təşkilatların nümayəndələri və beynəlxalq ekspertlərin iştirakı ilə əlilliyi olan şəxslərin hüquqlarının təmin edilməsi kontekstində, münaqişələrin ağır nəticəsi olan minaların bəşəriyyət üçün törətdiyi fəsadlar fonunda mina qurbanlarının və zərərçəkənlərin hüquqlarının müdafiəsi sahəsində aparılan işlər, nailiyyətlər və digər əlaqəli mövzular üzrə müzakirələr aparılıb.

# Azərbaycan Cənubi Qafqazda mina problemindən ən çox əziyyət çəkən ölkədir

**"Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin təşkilatçılığı ilə dekabrın 4-də "Minalardan Azad Cənubi Qafqaz" regional kampaniyası çərçivəsində "Cənubi Qafqazda mina qurbanları ilə həmrəylik: Cənubi Qafqazda minaların və onların nəticələrinin ləğvi strategiyasının mühüm sütunu" mövzusunda "dəyirmi masa" keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Milli Məclisin deputatları, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA), Ombudsman Aparatı, QHT-lər və beynəlxalq ictimaiyyətin nümayəndələri, o cümlədən Avropa İttifaqının (Aİ) Azərbaycandakı səfiri və Aİ-yə daxil olan altı ölkənin səfiri, eləcə də minadan zərərçəkənlər iştirak ediblər.

"Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədri Hafiz Səfixanov tədbirdə çıxış edərək bildirib ki, Azərbaycan 30 ildən artıqdır mina problemi ilə üz-üzədir. "Azad edilən ərazilərdə aparılan işlər nəticəsində bir milyondan çox minanın basdırıldığı məlum olub. İşğal zamanı yalnız burada deyil, İranla sərhəddə də minalar basdırılıb. Azərbaycan hazırda Cənubi Qafqazda minalardan ən çox əziyyət çəkən ölkədir. Ümidvaram ki, ölkələr mina problemi ilə əlaqədar daha diqqətli olacaqlar. Biz 44 günlük Vətən müharibəsindən sonra, demək olar ki, hər gün mina qurbanları barədə xəbərlər alırıq", - deyə İctimai Birliyin sədri qeyd edib.

"LİNKS Europe" təşkilatının direktoru Dennis Sammut qeyd edib ki, Azərbaycana minatəmizləmə sahəsində göstərilən yardım, görülən işlər problemin çərçivəsinə adekvat deyil. Gələn il donor təşkilatları Azərbaycana dəvət olunacaq və mümkün qədər daha böyük işlərin görülməsinə çağırışlar ediləcək.

Avropa İttifaqının (Aİ) Azərbaycandakı səfiri Peter Mixalko Azərbaycanın bu gün Cənubi Qafqazda mina problemindən ən çox əziyyət çəkən ölkə olduğunu vurğulayıb: "Çalışırıq ki, Azərbaycana problemin həlli ilə bağlı əlimizdən gələn qədər kömək edək. Mina problemi siyasi məsələ deyil, humanitar məsələdir. Avropa İttifaqı Azərbaycanda mina probleminin aradan qaldırılmasında maraqlıdır. Lakin bu, çox uzun bir prosesdir".

ANAMA-nın Maarifləndirmə, Beynəlxalq və İctimaiyyətlə Əlaqələr İdarəsinin Beynəlxalq əlaqələr və donorlarla iş bölməsinin müdiri Rövşən Kərimov nəzərə çatdırıb ki, Agentlik humanitar minatəmizləmə işləri çərçivəsində 110 hektar ərazini mina və hərbi sursatlardan təmizləyib: "ANAMA minatəmizləmə işlərində kifayət qədər təcrübə qazanıb. 44 günlük müharibədən sonra 18 mindən çox tank əleyhinə, 30 mindən çox piyada əleyhinə minalar, 56 mindən çox silah-sursat qalıqları aşkar edilərək zərərsizləşdirilib".

Daha sonra mina qurbanları yaşadıqları problemlərlə əlaqədar tədbir iştirakçılarını məlumatlandırıb, mina problemi ilə mübarizədə beynəlxalq təşkilatlara çağırışlar ediblər.

Tədbir sözügedən problemlərin müzakirəsinə həsr olunmuş panel iclasları ilə davam edib.

# Yeni LAÇIN - innovativ quruculuq, modern şəhər, rahat yaşam



## Böyük qayıdışın möhtəşəm ünvanı həm də investisiya üçün ən əlverişli məkanlardan biridir

**Laçındayıq...**

**Əsrarəngiz mənzərəsi, füsunkar təbiətinə uyğun yenidən qurulan şəhər sanki şiş qayalar üzərində bərq vurur.**

**Fərdi evlər, çoxmənzilli yaşayış binaları, infrastrukturun qurulması - işıq, qaz, su xətləri, asfalt yollar, bir sözlə, hər bir iş nizam-intizamla aparılır. Bu əsrarəngiz mənzərəni izlədikcə ürəyimiz dağa dönür.**

**Laçına həyat yenidən qayıdıb. Şəhər mərkəzi demək olar ki, Avropa standartları səviyyəsində bərpa olunub, əhalinin rahat yaşayışı və fəaliyyəti üçün lazımi infrastruktur yaradılıb.**

### İlk nərəyetişdirmə təsərrüfatı, yüksək əməkhaqqı

Hazırda digər azad olunan ərazilərə olduğu kimi, Laçına da əhalinin köçürülməsi intensiv şəkildə davam edir, ən prioritet məsələ isə buraya köçən insanların məşğulluq məsələsidir.

Əvvəlki reportajımızda bununla bağlı məlumat vermişdik. Laçında məşğulluqla bağlı məsələlərin həlli istiqamətində çox sürətli işlər aparılır. Aqro və Sənaye Parkında yaradılan müəssisələrdə, digər təsərrüfatlarda, sosial-iqtisadi və iaşə obyektlərində əhalinin işlə təmini məsələsi həll edilir. Biz də yolumuzu bir neçə müəssisədən salaraq həm iş prosesi, həm də məşğulluqla bağlı görülən tədbirlərlə tanış olduq.

Belə müəssisələrdən biri "Həkəri Balıq Təsərrüfatı"dır. Müəssisə bu ilin avqustun 25-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Laçına səfərləri zamanı açılıb.

Həkəri çayı üzərində yaradılan müəssisə Şərqi Zəngəzur zonasında ilk nərəyetişdirmə təsərrüfatıdır. Müəssisənin rəhbəri Fariz Şirinov deyir ki, 7 ha ərazidə salınan təsərrüfatda 3 növ balıq - kür nərəsi, çökə və əlvan forel yetişdirilir. Bunun üçün müəssisədə hər birinin uzunluğu 40, eni 3 metr olan açıq tipli 36 beton kanal yaradılıb. Gələcəkdə balıq çeşidlərinin artırılması da nəzərdə tutulur. Müəssisədə il ərzində 35 ton Kür nərəsi, 1,5 ton çökə və 5 ton forel yetişdiriləcək.

Nərə balığının yetişdirilməsi və kürünün əldə edilməsi prosesi barədə də danışan Fariz Şirinovun sözlərinə görə, ana balıq kürünün formalaşmasından sonra cinslər üzrə məhsul əldə edilməsi üçün mövsümə uyğun olaraq martdan mayadək nohurlarda, bütün il boyu isə şirin suyu olan qapalı su təchizatı qurğusunda saxlanılır. Balıqların cinsi təyin edildikdən sonra isə damazlıq sürü müəyyənləşdirilir. Sonrakı mərhələdə balıqların genetik pasportlaşdırılması və çipləşdirilməsi həyata keçirilir. Daha sonra balıq məhsullarının hazırlanması və emalı üçün erkək balıqların ayrılması, dişi balıqlardan kürü istehsalına başlanması prosesi aparılır. Sonda isə körpə balıqların buraxılması, kürü və balıq məhsullarının əldə edilməsi prosesi həyata keçirilir.

Gələcəkdə müəssisənin fəaliyyətinin genişləndirilməsi planlaşdırılır. Belə ki, nərə əti istehsalının ildə 70 tona, kürünün 3 tona, forel ətinin isə 10 tona çatdırılması nəzərdə tutulur. Gələn ilin axırında ölkə bazarlarında həkərinin nərə balıqları satışa çıxarılacaq.

Hazırda müəssisədə 37 nəfər işçi çalışır. Onların hər biri Laçın şəhər sakinidir. İşçilər hər cür şəraitlə təmin olunublar. İşçilər burada yaradılan kampda qalır, gündə üç dəfə yemək yeyirlər. Əməkhaqları isə 800-1300 manat arasında dəyişir.

*(Əvvəli qəzetin 3 dekabr tarixli nömrəsində)*

Laçın şəhər sakini 24 yaşlı Namiq Quliyev burada balıqçı vəzifəsində çalışır. Hələlik evləri hazır olmadığı üçün kampda qalır: "Şəraitimiz çox əladır. Gündə 3 dəfə yemək verirlər. Bol çeşidli ev yeməkləri yeyirik, həvəslə də işləyirik. Avqust ayından burada çalışıram. Həm hovuzlarımızın təmizliyi ilə məşğulam, həm də balıqları yemləyirəm. Çox maraqlı işdir, amma diqqətli olmaq lazımdır, çünki balıqlara yemi qədərində vermək lazımdır. Onlar çox həssasdırlar. Heç ağlıma da gəlməzdi ki, bir gün Laçına qayıdacam və burada belə maraqlı işdə çalışacam. Bu gün Laçın şəhərində hər kəsin əvvəllər yaşadığı evin yerində yeni mənzil tikilir. Bizim də evimiz hazırda tikilməkdədir. Tezliklə ailəlikcə burada yaşayacağıq. Sağ olsun Prezidentimiz, torpaqlarımızı da qaytardı, evimizi də tikib verir, işlə də təmin edir. Bundan yaxşı heç nə ola bilməz. Kimsə mənə dünyada İlham Əliyev kimi Prezident göstərə bilərmi?! Yoxdur belə dövlət başçısı. Bütün məcburi köçkünlər - bizlər ömür boyu Prezidentimizə minnətdar olacağıq".

### Nadir rast gəlinən qırmızı və yaşıl kahı balıq suyu ilə yetişdirilir

Laçın hər gün bir boy da böyüyüb, gözəlləşir. Bu gözəlliklər diyarında təkcə ermənilərin dağıdıb viran qoyduğu infrastruktur, evlər, küçələr yox, həm də tarixi ənənəsi olan təssərüfatlar da bərpa edilir.

Geniş ərazilərə, təbii yem bazasına sahib olan Laçın rayonu ət, süd və yun, bir sözlə, heyvandarlıq məhsullarının satışına və istehsalına görə respublikamızın fərqlənən rayonlarından olub. Ətlik istiqamət üzrə ixtisaslaşmış təsərrüfatın yaradılması üçün sınaq məqsədilə pilot layihə çərçivəsində Qırğızıstandan 100 baş yak növlü iribuynuzlu heyvanın Laçına gətirilməsi faktı məlumdur.

Cəmi bir il bundan əvvəl ermənilərin çıxarıldığı Laçın rayonu bu gün kənd təsərrüfatının inkişafı, bərpası və yenidənqurulması sahəsində innovativ texnologiyanın tətbiq olunduğu bir mərkəzə çevrilməkdədir. Mübaliğəsiz demək olar ki, Laçında kənd təsərrüfatı məhsullarının yetişdirilməsi ilə məşğul olan sahələrə hər gün bir yeni ünvan əlavə olunmaqdadır.

"Həkəri Balıq Təsərrüfatı" ilə tanışlıqdan sonra yaxınlıqda yerləşən digər müəssisəyə üz tuturuq. Bu, balıq suyu ilə nadir rast gəlinən qırmızı və yaşıl kahı yetişdirən "Aquaponix"dir. Fəaliyyətə başladığı qısa müddətdən istehsal etdiyi məhsulu bazara çıxaran "Aquaponx"in öyünməyə daha çox haqqı var. Burada nadir rast gəlinən qırmızı və yaşıl kahı növü yetişdirilir. Eyni zamanda acı və şirin bibər, pomidor yetişdirilməsi də nəzərdə tutulub.

Həmsöhbət olduğumuz Laçın sakini Elnur Musayev müəssisənin işi barədə məlumat verərək bildirir ki, təsərrüfatın özəlliyi burada bitkiçiliklə yanaşı, balıqçılıqla da məşğul olmalarıdır. Xüsusi hazırlanmış hovuzlarda Som, Aynalı karp, sazan balığı yetişdirilir. Balıq saxlanılan sudan bitkilərin yetişdirilməsi üçün gübrə kimi istifadə edilir. Balıqlar böyüyüb müəyyən həddə çatdıqdan sonra onları satıb, kiçik balıqlarla əvəz edirlər: "Keçən ay ilkin olaraq 150 kiloqram Som balığı satılıb. Qürurla qeyd edə bilərəm ki, fəaliyyətə başladığımızın 4 ay olmasına baxmayaraq, daxili bazarın da kahıya olan ehtiyacını ödəyə bilmişik".

Elnur Musayev deyir ki, təsərrüfatda innovativ texnologiya tətbiq olunduğu üçün çox əmək sərf edilmir. Cəmi 5-6 nəfər çalışanla 30-35 günə az fiziki əmək tətbiq etməklə məhsul əldə etmək olur. "Aquaponix"in nəticələri uğurlu olduğu üçün fəaliyyət dairəsinin genişlənməsi də nəzərdə tutulur. Bu da təsərrüfatda çalışanların sayının artması ilə yanaşı, daxili bazarda məhsul artımının, bolluğun yaranması deməkdir.

### Müxtəlif ölkələrdən gətirilmiş qoyun və keçi cinsləri

Laçında kənd təsərrüfatı ailəsinin yeni üzvlərindən biri də Zerti kəndində yaradılmış Heyvandarlıq Seleksiya Mərkəzidir. Müasir standartlara cavab verən, hər birinin ölçüsü 240 kvadratmetr olan 5 saxlancdan ibarət mərkəzdə xırdabuynuzlu heyvanların cins tərkibinin yaxşılaşdırılması, onların sayının artırılması üçün müxtəlif növ keçilər və qoyunlar saxlanılır.

Təsərrüfatda yaranmış səliqə-sahman, təmizlik göz oxşayır. İnsan özünü başqa bir aləmdə hiss edir. Burada həm çalışanlar üçün, həm də təsərrüfatda bəslənən heyvanlar üçün ağılın qəbul edə bilməyəcəyi gözəllikdə şərait yaradılıb. Təsərrüfatda olan hər kəs özünü başqa bir dünyada hiss edir. Dövlətinin gücünü, qüdrətini görməyin, insanların əməyini asanlaşdıran, insan amilinə verilən qiyməti görməyin bir ayrı zövqü var...

Öyrənirik ki, təsərrüfatda 15 nəfər laçınlı gənc çalışır.

Taleh Əliyev mərkəzin fəaliyyəti barədə məlumat verərək deyir ki, burada dünyanın müxtəlif ölkələrindən gətirilmiş, yerli şəraitə uyğunlaşma dövründə olan qoyun və keçilər bəslənilir. Təsərrüfatın yaranmasında məqsəd həm heyvandarlığın bu növü ilə məşğul olan fermerlərin işini asanlaşdırmaq, onlara praktiki məsləhətlər vermək, qoyun, keçi alarkən yardımçı olmaqdır. Eyni zamanda təsərrüfatımızda gələcəkdə ətlik-südlük və yun çıxımı daha yüksək olan seleksiyanı təşkil etməkdir.

Öyrənirik ki, mərkəzdə 31 baş fərqli keçi saxlanılır. Öz xüsusiyyəti ilə fərqlənən Hələb, Honamlı, Alpin, Klis və Saanen tipli cins heyvanlar fərqli görünüşləri ilə də seçilirlər. Vətəni Suriya olmaqla Şərq ölkələrindən gətirilmiş keçilərə Şam keçisi, Dəməşq keçisi də deyilir. Bu növ keçi dünyanın 50-dən çox ölkəsinə yayılıb, isti iqlimə dözümlü və məhsuldar olduğu üçün fermerlər, təsərrüfatlar bu heyvanlara daha çox üstünlük verirlər. Hələb keçisinin erkək növünün (təkə) hündürlüyü 1 metrə, çəkisi 130 kiloqrama qədər, dişi növünün isə hündürlüyü 75 santimetrə qədər, çəkisi isə 85-95 kiloqrama qədər olur. Bu keçinin yeni doğulan balası isə 5 kiloqram ağırlığında olur. Ətlik-südlük cins olsa da, onun südünə daha çox üstünlük verilir. Hər cür iqlim şəraitinə tez uyğunlaşan, sürü halında asan idarə olunan bu heyvanları gündə iki dəfə sağmaq mümkündür. Keçinin baş sayı artdıqda texnoloji üsulla sağımın tətbiqi daha müvafiq hesab edilir. Fermerlərin və mütəxəssislərin məlumatına əsasən deyə bilərik ki, keçilərə yaxşı qulluq edilərsə, qüvvəli yem verilərsə, gün ərzində 3-6 litr süd sağmaq mümkündür.

"Laçın Abadlıq Xidməti"nin direktor müavini söyləyib ki, rayonda artıq bir neçə internet provayderi fəaliyyət göstərir: "İnternetlə, eləcə də rabitə ilə bağlı heç bir problem yoxdur".

Göründüyü kimi, Böyük qayıdışın möhtəşəm ünvanı olan Laçında yeni-yeni müasir innovasiyalar əsasında müəssisələr yaradılır. Məqsəd bəllidir: yurduna qayıdan insanların işlə təmin olunması...

Sonda qeyd edək ki, Laçının yaxınlığında yerləşən Zeyirdi kəndi ərazisində olan 52 ha ərazidə salınmış Aqro və Sənaye Parkında 46 müəssisə fəaliyyət göstərəcək. 46 müəssisə üzrə 1169 vakansiya mövcuddur. Artıq orada bir neçə müəssisə fəaliyyətə başlayıb və 430 nəfər Laçın sakini işlə təmin edilib.

Dağların qoynunda yeni qurulan Laçında investisiya üçün qapılar açıqdır. Yerli və xarici sahibkarların burada istənilən müəssisə yaratmaları üçün əlverişli şərait mövcuddur. İnanırıq ki, çox qısa zamanda təkcə Laçında deyil, azad edilmiş bütün şəhər və rayonlarımızda, kəndlərimizdə müasir innovasiyalara əsaslanan sənaye zonaları, sosial-iqtisadi müəssisələr yaradılacaq. İnsanların məşğulluğu istiqamətində heç bir problem yaşanmayacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

*Bakı-Laçın-Bakı*

























# Təşəbbüs yenə İlham Əliyevdədir

**Ölkələrarası münasibətlərin tənzimlənməsində, elcəcə də iqtisadi və siyasi əməkdaşlıqların dərinləşməsində mühüm rola malik olan beynəlxalq və regional təşkilatlarda fəal iştirak müasir dövrdə ciddi əhəmiyyət kəsb edir. Azərbaycanın beynəlxalq arenada aparıcı aktora çevrilməsi ölkəmizin belə təşkilatların fəal üzvü, hətta sədri olmasına imkan yaradıb.**

Xəbər verildiyi kimi, GUAM-a sədrlik 2024-cü ildə Ukraynadan Azərbaycana keçir. GUAM-ın Milli Əlaqələndiricilər Şurasının məlumatına görə, Azərbaycan GUAM-a növbəti sədrliyinə yanvarın 1-də başlayacaq. Təşkilatın Nizamnaməsinə uyğun olaraq, GUAM-ın hər bir üzv dövləti rotasiya prinsipi əsasında öz sədrliyini birillik müddətdə həyata keçirir.

Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna tərəfindən təsis edilmiş regional təşkilat olan GUAM 1997-ci ildə Strasburqda Birgə Kommünike imzalamaqla fəaliyyətə başlayıb. Azərbaycanın GUAM-a ilk sədrliyi 2007-ci ilin iyulun 19-da Bakı Zirvə Toplantısından sonra start götürüb. Bundan başqa, 2012, 2016 və 2020-ci illərdə də ölkəmiz GUAM-a sədrlik edib. Azərbaycanın COVID-19 pandemiyasına təsadüf edən sonuncu sədrliyi dövründə prioritet istiqamətlər isə enerji təhlükəsizliyi, nəqliyyat və ticarət dövriyyəsi olub.

Xatırladaq ki, GUAM təşkilatına 2003-cü ildə BMT Baş Assambleyasında müşahidəçi statusu verilib. BMT Baş Assambleyasının gündəliyinin BMT ilə regional və digər təşkilatlar arasında əməkdaşlıq bəndi altında 2012-ci ildən etibarən ardıcıl olaraq "Birləşmiş Millətlər Təşkilatı və Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat - GUAM arasında əməkdaşlıq" adlı qətnamə qəbul olunur. Bu qətnamələrdə layihələrin birgə həyata keçirilməsi və ümumi məqsədlərə nail olmaq üçün BMT-nin ixtisaslaşmış qurum, təşkilat, proqram və fondları GUAM-la əməkdaşlıq etməyə və birbaşa əlaqələri inkişaf etdirməyə dəvət olunurlar.

Azərbaycanın sədrliyi müddətində GUAM-ın beynəlxalq mövqeyi daha da möhkəmlənib. Sədr və üzv dövlətlərin birgə səyləri nəticəsində təşkilatın regional əhəmiyyəti yüksəlib və ona beynəlxalq dəstək güclənib. Həmçinin Azərbaycan sədr ölkə kimi üzvlərin ümumi maraqlarının uyğunlaşdırılması və təşkilat daxilində əməkdaşlıq sisteminin inkişaf etdirilməsi vəzifəsini də layiqincə yerinə yetirib.

Ötən dövrlərdə uğurlu sədrlik təcrübəsi Azərbaycanın növbəti ildə də GUAM-a sədrliyi müddətində qarşıya qoyulmuş başlıca strateji istiqamətlərə xüsusi diqqət yetirəcəyinə və öhdəliklərini ən yaxşı şəkildə icra edəcəyinə əminlik yaradır. Prezident İlham Əliyevin irəli sürdüyü təkliflərin beynəlxalq miqyasda yüksək səviyyədə qəbul edildiyi bir dövrdə Azərbaycanın təşkilata sədrliyi daha mühüm töhfələr verəcək.

Xüsusilə Vətən müharibəsində və bu ilin sentyabrında həyata keçirilmiş antiterror tədbirlərində əldə etdiyimiz qələbələr nəticəsində ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş bir dövlət kimi Azərbaycanın regiondakı nüfuzu daha da artır. Ona görə də Azərbaycanın GUAM təşkilatına növbəti bir illik sədrliyinin kifayət qədər səmərəli və fəal olacağına şübhə yoxdur.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Dövlət-özəl tərəfdaşlığının mühüm nəticəsi:
# İspan memarlar AzMİU-da tədrisə cəlb olunacaqlar

**Dekabrın 4-də İspaniyanın məşhur memarları və memarlıq şirkətlərinin rəhbərləri Azərbaycan Memarlıq və İnşaat Universitetinə (AzMİU) səfər ediblər.**



"F-Holding"in təşkilatçılığı ilə reallaşan səfər heyətində "Bilbao Architecture Team"in (BAT) təsisçisi Xabier Arranz, BAT-ın tərəfdaşları Juan Miguel Rioboo Fuentes və Peru Canada, "Fundacion Metropoli"nin London Şəhər Laboratoriyasının direktoru Naiara Vegara, "Ortiz Leon Arquitectos"un həmtəsisçisi Inigo Ortiz, ETSASS-ın baş memarı Jaime Otegui təmsil olunublar.

Universitetdə AzMİU-nun rektoru, memarlıq doktoru Gülçöhrə Məmmədovanın qonaqlarla görüşü keçirilib. Görüşdə AzMİU-nun kafedra müdiri, Azərbaycan Memarlar İttifaqının sədri professor Elbay Qasımzadə, AzMİU-nun keçmiş tələbəsi, "F-Holding"in təsisçisi, İspaniyadakı Azərbaycan diasporunun tanınmış simalarından olan Fərid Mustafayev, universitet rəhbərliyi, memarlıq təhsili üzrə professor-müəllim heyəti və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Professor Gülçöhrə Məmmədova AzMİU haqqında məlumat verib, universitetdə aparılan tədris prosesi, fakültələr, ixtisaslar, akademik heyət, beynəlxalq əməkdaşlıq əlaqələri, ikili diplom proqramları, mübadilə proqramlarından danışıb, istehsalatla qurulan sağlam əməkdaşlıq əlaqələrini diqqətə çatdırıb.

Rektor qeyd edib ki, AzMİU-nun ixtisaslarına tələb daha da yüksəlib: "Bu gün Qarabağda 30 il müddətində dağıdılan şəhərlərimiz yenidən bərpa olunur. Çalışırıq ki, təhsilimizi yüksək səviyyədə quraq ki, məzunlarımız, mütəxəssislərimiz memarlığın ən qabaqcıl təcrübəsindən yararlansın, onlar öz bilik və bacarıqlarını həmin ərazilərdə də bərpa-quruculuq işlərinə sərf etsinlər. Yeni şəhərlər və kəndlər inşa etsinlər ki, soydaşlarımız öz yurd-yuvalarına daha tez qayıda bilsinlər".

AzMİU-nun memalıq və dizayn sahələrində İtaliya, İspaniya, Fransa, Türkiyə və digər ölkələrin nüfuzlu universitetlərilə qurulan əməkdaşlıq əlaqələrinə toxunan rektor bu əməkdaşlıqla paralel istehsalat müəssisələri ilə tərəfdaşlığın önəminə diqqət çəkib: "Bizim üçün dövlət-özəl tərəfdaşlığının ana xəttini təhsilin kefiyyətini daha da artırmaq təşkil edir. Bu baxımdan bugünkü görüş memarlıq təhsili üçün böyük əhəmiyyət daşıyır. AzMİU bir çox sahələrdə istehsalat müəssisələri ilə əməkdaşlıq əlaqələri qurub. Qurulan bu əlaqələrin başlıca magistral istiqaməti isə təhsilin keyfiyyətinin artırılmasıdır. Biz çalışırıq ki, tələbələrimiz istehsalatda çalışan mütəxəssislərdən praktik təcrübə qazansınlar. İspan memarların gələcəyə yönəlik binaların layihələndirilməsi sahəsində zəngin təcrübəsi var. Mən əminəm ki, onların təcrübəsindən bizim tələbələr faydalana biləcəklər".

"F-Holding"in təsisçisi Fərid Mustafayev çıxışında memorandumun Azərbaycan memarlarının xaricdə, xarici memarların isə Azərbaycanda fəaliyyətinə şərait yaradağını vurğulayıb: "Hazırda işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq işləri aparılır. Bu işlərə töhfə vermək üçün yüksək bilik və bacarıqlara malik memarlar yetişdirmək lazımdır. Mən inanıram ki, əməkdaşlığımız yetişəcək gənc memarlara dünya səviyyəli mütəxəssislər olmasına töhfə verəcək".

Fərid Mustafayev çıxışında AzMİU-nun yataqxana kompleksi ilə bağlı məsələyə də toxunub. Şirkət rəhbəri qeyd edib ki, "F-Holding" yataqxananın təmir işlərini öhdəsinə götürür və gələn ildən etibarən təmir-bərpa işlərinə başlamaq olar.

Professor Elbay Qasımzadə isə çıxışında görüşü Azərbaycan memarlığı üçün əlamətdar hadisə adlandırıb: "Bu gün Azərbaycanda şəhərsalma və memarlıq sahəsində əsl dönüş yaranıb, ölçüyəgəlməz işlər həyata keçirilir. Xüsusilə işğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda infrastruktur tamamilə yenilənir. Bütün şəhərlərin baş planları üzərində iş aparılır. Bütün bu işlər bizim qarşımızda daha böyük vəzifələr qoyur. Bu baxımdan uğurlu beynəlxalq təcrübənin tədrisə daha intensiv tətbiqi müsbət nəticələrə yol açacaq".

İspan qonaqlar da öz növbələrində səmimi qarşılanmaya görə AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədovaya təşəkkürlərini bildiriblər. Çıxışlarda müasir memarlıq təcrübələrini universitetin auditoriyalarında bölüşməyə hazır olduqlarını deyiblər. AzMİU-nun memarlıq ixtisası üzrə tədris aparan akademik heyəti və tələbələrlə öz müasir memarlıq təcrübələrini bölüşməkdən məmnun olacaqlarını bildiriblər.

Görüşdə bir sıra istiqamətlər üzrə əməkdaşlıq məsələləri müzakirə olunub və AzMİU ilə "F-Holding" arasında Anlaşma Memorandumu imzalanıb. Memorandumu AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədova və "F-Holding"in direktoru Fərid Mustafayev imzalayıblar.

Dövlət-özəl əməkdaşlığına əsaslan memorandumda xarici mütəxəssislərin AzMİU-da Memarlıq fakültəsində tədrisə, müxtəlif proqramlara, ustad dərslərinə cəlb olunması, konfrans və konqreslərin keçirilməsi nəzərdə tutulub. Eyni zamanda birgə layihələrin işlənilməsi planlaşdırılır. Daha sonra ispan memarların Memarlıq fakültəsinin müəllim və tələbələri üçün təqdimatları təşkil olunub. Təqdimatlarda əcnəbi memarlar özlərinə məxsus məşhur layihələri, həmin layihələrin elmi-nəzəri, həmçinin praktiki aspektləri haqqında geniş məlumat veriblər.

***"Azərbaycan"***

# GDU-nun tələbələri "Zəfərimiz əbədidir" intellektual yarışının qalibi olmuşlar

Gəncə Dövlət Universitetinin (GDU) tələbələri regionda fəaliyyət göstərən ali təhsil müəssisələri arasında keçirilən "Zəfərimiz əbədidir" adlı intellektual yarışın qalibi olublar. GDU-nun komandasına kubok, Fəxri fərman və təşəkkürnamə tədqim edilib.




Sonrakı iki yeri Bakı Dövlət Universiteti Qazax filialının və Mingəçevir Dövlət Universitetinin komandaları tutmuşlar.

Bu günlər GDU-nun rektoru Yusif Yusibov yarışın qalibləri ilə görüşərək qazandıqları uğura görə onları təbrik etmişdir. Qeyd olunmuşdur ki, bilik yarışında region üzrə 14 komanda öz biliyini nümayiş etdirmişdir. 3 turdan ibarət olan yarışda "Ümummilli Lider Heydər Əliyev", "Azərbaycan tarixi", "Zəfər Günü", "İşğaldan azad olunmuş ərazilərdə tarixi abidələr" və digər mövzulara aid suallar təqdim olunmuşdur. Rektor gələcəkdə tələbələrə daha böyük uğurlar arzulamışdır.

***"Azərbaycan"***

# Əlilliyi olan şəxslər cəmiyyətin tamhüquqlu üzvləridir

**Ağstafada Beynəlxalq Əlillər Günü ilə bağlı tədbir keçirilmişdir. İştirakçılar öncə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsini birdəqiqəlik sükutla yad etmişlər.**

Tədbiri giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Seymur Orucov açaraq diqqətə çatdırmışdır ki, ölkəmizdə əlillər, sağlamlıq imkanı məhdud olan insanlar hərtərəfli dövlət dəstəyi ilə əhatə edilmişlər: "Bu gün əlillərin reablitasiyası, sosial müdafiəsinin gücləndirilməsi, həyat şəraitinin yaxşılaşdırılması, məşğulluğunun təmin olunması istiqamətində davamlı iş aparılır və bununla bağlı qəbul edilmiş dövlət proqramları uğurla icra olunur. Əlilliyi olan şəxslərin maddi təminatının gücləndirilməsi də dövlət siyasətinin əsas istiqamətlərindən biridir".

Sonra Dövlət Sosial Müdafiə Fondunun 1 saylı Qazax-Tovuz Regional Filialının Ağstafa rayon şöbəsinin müdiri Asif Qəmbərov çıxış edərək əlillərin sosial rifahının yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərdən, bu qəbildən olan insanların hüquqlarının qorunması və onların cəmiyyətin həyatında bərabərhüquqlu iştirakının təmin edilməsi məqsədi ilə icra olunan layihələrdən danışmışdır.

44 günlük Vətən müharibəsi iştirakçıları - Ağstafa şəhər 3 saylı tam orta məktəbin müəllimi Arif Vəliyev və 2-ci qrup əlil Kamil Hüseynov ölkəmizdə fiziki sağlamlığı məhdud olan insanlara dövlətin göstərdiyi diqqət və qayğıdan razı qaldıqlarını bildirmişlər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Polis əməkdaşlarına müqavimət göstərməkdə təqsirləndirilən şəxslər məsuliyyətə cəlb ediliblər

**Baş Prokurorluq və Daxili İşlər Nazirliyinin Mətbuat xidmətləri birgə məlumat yayıb. Məlumatda qeyd olunur ki, dekabrın 2-də Qəbələ rayonunun Vəndam qəsəbəsində xidməti vəzifələrini icra edən polis əməkdaşlarına zor tətbiq olunmasına dair rayon prokurorluğuna məlumat daxil olub.**

Aparılan araşdırma zamanı Qəbələ rayonunun Vəndam qəsəbə sakini 1981-ci il təvəllüdlü Səxavət Ağayevin qeyd olunan tarixdə yaşadığı qəsəbənin ərazisində yol hərəkəti qaydalarını pozaraq sərxoş vəziyyətdə müvafiq etibarnamə olmadan idarə etdiyi "Vaz 2107" minik markalı avtomobillə saxlanılarkən 1974-cü il təvəllülü qardaşı Eldəniz Ağayevlə birgə hamı tərəfindən qəbul olunmuş davranış qaydalarına və əxlaq normalarına saymazlıq nümayiş etdirmələri, ictimai qaydanı kobud surətdə pozmaları, habelə hakimiyyət nümayəndəsi qismində ictimai qaydanın qorunması üzrə vəzifələrini yerinə yetirən polis əməkdaşlarının qanuni tələblərinə tabe olmayaraq onlara zor tətbiq edilməsi ilə müşayiət olunan qərəzli xuliqanlıq hərəkətləri etməklə müqavimət göstərmələrinə və Qəbələ RPŞ-yə məxsus avtomobili zədələmələrinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı başlanmış cinayət işi üzrə Eldəniz Ağayev Cinayət Məclləsinin 221.3 (silah qismində istifadə olunan əşyalardan istifadə edilməklə xuliqanlıq) və 315-ci (hakimiyyət nümayəndəsinə qarşı müqavimət göstərmə və ya zor tətbiq etmə), Səxavət Ağayev isə həmin Məcəllənin 221.2.1, 221.2.2 (bir qrup şəxs tərəfindən ictimai qaydanın qorunması üzrə vəzifəni yerinə yetirən şəxsə müqavimət göstərməklə xuliqanlıq) və 315-ci maddələrilə təqsirləndirilən şəxs qismində cəlb edilib.

Məhkəmənin qərarı ilə Eldəniz Ağayev barəsində həbs, Səxavət Ağayev barəsində isə ev dustaqlığı qətimkan tədbiri seçilib.

Cinayət işi üzrə bütün hallar tam, hərtərəfli və obyektiv istintaq edilməklə təqsiri olan bütün şəxslərin əməllərinə hüquqi qiymət verilməsi təmin ediləcəkdir.

***"Azərbaycan"***

# Qızılcaya yoluxma artır

## Xəstəlik uşaqların sağlamlığı üçün ciddi təhlükə olaraq qalır

**Son həftələr yüksək yoluxduruculuğa malik qızılca ilə xəstələnənlərin sayında artım var. Təkcə uşaqlar deyil, böyüklər arasında da müşahidə edilən yoluxmaların kütləvi xarakter alması və uşaq ölümlərinin qeydə alınması cəmiyyətdə, xüsusən də valideynlər arasında ciddi narahatlığa səbəb olub.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ölkəmizdəki nümayəndəliyi 2021-ci ildən başlayaraq qızılcaya qarşı peyvəndin əhatə dairəsinin azalması nəticəsində 2022-ci ildə qlobal miqyasda qızılcaya yoluxma hallarının 18 faiz, ölüm hallarının isə 43 faiz artdığını bildirib. Qeyd edilib ki, xəstəlik uşaqların sağlamlığı üçün ciddi təhlükə olaraq qalmaqda davam edir.

### Bu xəstəlik ev şəraitində təcrid olunaraq müalicə edilməlidir

Uşaqlıq dövrünün infeksion xəstəliklərindən hesab olunan qızılca xüsusilə azyaşlılar arasında yayılan, lakin böyüklərdə də rast gəlinə bilən yoluxucu xəstəlikdir. Rubeola virusu tərəfindən yaradılan qızılca əsasən hava-damcı yolu ilə yayılır və dəri ləkələri, hərarət, linfa düyünlərinin şişməsi kimi əlamətlərlə özünü göstərir. Qızılcaya yoluxma ömürdə bir dəfə, istisna hallarda isə iki dəfə olur.

Mütəxəssislər qızılcanın spesifik müalicəsi olmadığını, adətən ev şəraitində izolyasiya olunaraq müalicə edilən xəstəlik olduğunu bildirirlər. Bu xəstələr ailə sağlamlıq mərkəzlərinin həkimləri tərəfindən nəzarətə götürülürlər. Bir sıra hallarda yoluxmuş şəxslərdə xəstəliyin ağırlaşma halları baş verə bilər. Bunlara pnevmoniya, orta qulağın iltihabı, bağırsaq mənşəli ağırlaşmalar, ensefalit, meningit və s. aiddir. Belə olan hallarda xəstələr TƏBİB-in tabeli tibb müəssisələrində fəaliyyət göstərən yoluxucu xəstəliklər şöbələrinə yatırılaraq müalicəyə cəlb olunurlar.

### İnfeksiyadan qorunmağın yeganə yolu peyvəndləmədir

ÜST qızılcaya yoluxmada artım sayını proqnozlaşdırmışdı. Buna səbəb kimi uşaqların peyvənd yaş dövrünün COVID-19 pandemiyasına təsadüf etməsi olub, məhdudlaşdırma tədbirləri ilə bağlı olaraq onlara vaksin vurulmayıb. Buna görə də hazırda yoluxmalar məktəb və bağça yaşlı uşaqlar arasında üstünlük təşkil edir.

Mütəxəssislər qızılcadan qorunmağın yeganə yolunun peyvəndləmə olduğunu bildirirlər. Peyvənd xəstəliyə qarşı güclü immunitet yaradaraq yoluxma riskini xeyli azaldır. ÜST-nin məlumatına görə, qızılcaya qarşı peyvəndləmə əhatəsi 95 faizdən aşağı olduğu zaman bütün ölkələr və icmalar üçün xəstəliyin geniş yayılma riski yaranmış olur. 2000-ci ildən 2022-ci ilə qədər qızılcaya qarşı peyvənd qlobal miqyasda 57 milyon insanın qızılcadan ölməsinin qarşısını alıb.



Xəstəlik uşaqlarla bərabər, 40 yaşdan yuxarı əhali arasında da müşahidə olunduğuna görə təqvimdənkənar peyvənd kampaniyalarına başlanılıb. Mütəxəssislər bildirirlər ki, peyvənd olunanlar qızılcaya yoluxsalar belə, xəstəliyi daha yüngül keçirirlər. Xəstəliyin peyvəndi uşaqlara 2 dəfə olmaqla 1 və 6 yaşlarında müvafiq olaraq Qpm 1 və Qpm 2 (qızılca, parotit, məxmərək), böyüklərə isə yalnız qızılca peyvəndi vurulur. Əgər peyvəndlər zamanında yaşa uyğun olaraq vurulmayıbsa, 1 ay fasilə ilə hər iki doza qəbul edilir.

Şagirdlər arasında qızılca xəstəliyinin aşkar olunması səbəbindən müvafiq qabaqlayıcı tədbirlərin həyata keçirilməsi məqsədilə ölkə ərazisində qızılca ilə mübarizə çərçivəsində təhsil müəssisələrində dezinfeksiya işləri aparılıb. Bakıda bəzi məktəblərdə müəyyən siniflər distant tədrisə keçirilib.

Qızılcanın başqa profilaktikası gigiyena qaydalarına əməl etmək, ara məsafəni gözləmək, xəstə insanlarla təmasdan qaçmaqdır. Amma ən önəmlisi peyvənd olunmaqdır.

### Qonşu ölkələrdə də qızılcaya yoluxma artıb

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, son bir il ərzində türk dünyası coğrafiyasında qızılcaya yoluxmada artım müşahidə olunur. Ən çox yoluxma Türkiyədə qeydə alınıb. Son bir il ərzində qardaş ölkədə qızılcaya 2 min 986 nəfər yoluxub. Eyni zamanda Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistanda da artım olub.

2023-cü ilin əvvəlindən Qazaxıstanda 17,7 min nəfər qızılcaya yoluxub. Onların 82 faizi uşaqlardır. Bununla belə, hökumət ölkədə qızılca epidemiyası ilə bağlı hər hansı məhdudlaşdırıcı tədbir tətbiq etməyi planlaşdırmır.

Qazaxıstan Səhiyyə Nazirliyinin Sanitariya və Epidemioloji Nəzarət Komitəsi bildirib ki, qızılcaya yoluxmuş 15 minə yaxın uşağın 83 faizi peyvənd olunmayıb. Xəstə uşaqların 60 faizi valideynlərin imtinası səbəbindən peyvənd almayıb, qalan uşaqlar isə peyvənd yaşına çatmayıblar və ya tibbi güzəştlərə malik deyillər.

Qazaxıstanda ÜST tərəfindən yenidən kvalifikasiyadan keçmiş Hindistanda istehsal olunan peyvənd 2012-ci ildən tətbiq edilir və effektivliyini sübuta yetirə bilib. Noyabr ayından qızılcaya yoluxma halları ilə bağlı epidemioloji vəziyyəti sabitləşdirmək məqsədilə uşaqların əlavə kütləvi immunizasiyasının aparılması qərara alınıb. Ötən ay ölkəyə 500 min doza gətirilib, dekabrda isə daha bir milyon dozanın çatdırılacağı gözlənilir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## SOCAR ilin birinci yarısını xalis mənfəətlə başa vurub

**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) bu ilin birinci yarısını 1,414 milyard manat xalis mənfəətlə başa vurub. AZƏRTAC SOCAR-ın maliyyə hesabatlarına istinadən xəbər verir ki, bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 69,4 faiz azdır. 2022-ci ilin ilk altı ayında SOCAR 4 milyard 624 milyon manat xalis mənfəət əldə etmişdi.**

Yanvar-iyun aylarında şirkətin gəlirləri ötən ilin müvafiq dövrü ilə müqayisədə 30,1 faiz




azalaraq 42 milyard 181 milyon manata, satışın maya dəyəri isə 29,6 faiz azalaraq 37 milyard 538 milyon manata bərabər olub. Ümumi və inzibati xərcləri 8,4 faiz artaraq 0,928 milyard manat, kəşfiyyat və qiymətləndirmə xərcləri 66,7 faiz artaraq 0,005 milyard manat, gözlənilən kredit zərəri 45,1 azalaraq 0,045 milyard manat, sair əməliyyat gəlirləri 16,6 faiz artaraq 0,492 milyard manat, sair əməliyyat xərcləri 10 faiz artaraq 0,276 milyard manat, maliyyə xərcləri 4,8 faiz azalaraq 0,771 milyard manat təşkil edib.

Bu ilin 6 ayı ərzində şirkətin pul vəsaitləri 33,6 faiz azalaraq 8 milyard 291 milyon manat olub.

2023-cü ilin iyul ayının 1-nə SOCAR-ın aktivləri ilin əvvəli ilə müqayisədə 12,7 faiz azalaraq 70 milyard 351 milyon manata, cəmi öhdəlikləri isə 22,7 faiz azalaraq 36 milyard 722 milyon manata enib. Cari ilin iyun ayının 30-na şirkətin balans kapitalı 14,4 faiz artaraq 33,629 milyard manata, o cümlədən nizamnamə kapitalı 0,3 faiz artaraq 4,76 milyard manata çatıb.

## Bağdadda Azərbaycan ilə İraq arasında əməkdaşlıq məsələləri müzakirə ediləcək

**Bu həftə Bağdadda Azərbaycan ilə İraq arasında iqtisadi-ticari, elmi, texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın iclası keçiriləcək. AZƏRTAC xəbər verir ki, bu barədə ölkəmizin İraqdakı səfiri Nəsir Məmmədov rəsmi INA informasiya agentliyinə müsahibəsində bildirib.**

O əlavə edib ki, müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari, nəqliyyat sahəsində əməkdaşlığın inkişafı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin noyabrın 20-də İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə təkbətək görüşü zamanı müzakirə edilib.

Səfir bildirib ki, iclasda qarşılıqlı faydalı əməkdaşlığa dair 5 məsələ müzakirə ediləcək. Diplomat deyib: "Bağdada səfər edəcək Azərbaycan nümayəndə heyəti iki ölkə arasında qarşılıqlı sərmayə qoyuluşu, neft-qaz sahəsində əməkdaşlıq, ali təhsil, elmi və mədəni tədqiqatlar, iraqlı tələbələrin Azərbaycana göndərilməsi məsələlərini müzakirə edəcək". O əlavə edib ki, Bağdadda Azərbaycan və İraq iş adamlarının birinci biznes forumu da keçiriləcək.

N.Məmmədov bildirib ki, 2024-cü ildə ticarət mübadiləsinin həcmini artırmaq üçün çoxlu sayda qarşılıqlı səfərlər həyata keçiriləcək. Səfirlik iki ölkə arasında əmtəə dövriyyəsinin həcmini artırmaq məqsədilə İraqın rəsmi orqanları və iş adamları ilə iş aparır.

Qaz sektorunda sərmayəyə gəlincə, səfir qeyd edib ki, "məsələ İraq hökuməti tərəfindən araşdırılır, İraqın neft naziri və ya aidiyyəti orqanları tezliklə bu məsələyə münasibət bildirəcəklər".

## Yatağın dəyişən təkcə adı olmadı

**Xəzər dənizindəki "Dostluq" yatağını Azərbaycanla Türkmənistan birgə işləyəcəklər.**

Bu yatağın karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında anlaşma memorandumu iki ölkənin hökumətləri arasında 2021-ci il yanvarın 21-də Aşqabad şəhərində olub. Həmin il fevralın 25-də Prezident İlham Əliyev anlaşma memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanununu imzalayıb.

Azərbaycan və Türkmənistan arasında "Dostluq" yatağı üzrə Birgə İşçi Qrupu fəaliyyət göstərir və vaxtaşırı iclaslarını keçirir. Keçən ay isə iqtisadiyyat naziri Mikayıl Cabbarovun Türkmənistana işgüzar səfəri çərçivəsində keçirilən görüşlər zamanı ölkələrimizin energetika sahəsində tərəfdaşlığının gündəliyində olan əsas məsələlər müzakirə olunub. Tərəflər enerji mübadiləsi üzrə əməkdaşlığın mövcud vəziyyəti, o cümlədən "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı barədə fikir mübadiləsi aparıblar.

Xatırladaq ki, bu yataq əvvəllər uzun müddət Azərbaycanda "Kəpəz", Türkmənistanda isə "Sərdar" adlandırılıb. Zəngin neft-qaz ehtiyatları vəd edən yataq iki dövlətin dənizdəki sərhədinin tən ortasında yerləşdiyi üçün ona "Promejutoçnoye", yəni "Aralıq" deyiblər. Bu karbohidrogen mənbəyi hələ sovet dönəmində Azərbaycan neftçiləri tərəfindən dənizin 4 kilometr dərinliyindəki layda kəşf olunub və 1989-cu ildə orada ilk kəşfiyyat quyusu qazılıb. Lakin



"Dostluq" Azərbaycanla Türkmənistanın dostluğunu daha da möhkəmləndirir

"Aralıq" olduğu səbəbindən uzun illər onun işlənməsi mümkün olmayıb və məsələ ilə bağlı ardıcıl danışıqlar gedib. 1998-ci ildə Xəzər dənizinin orta xətti koordinatları üzrə Azərbaycanla Türkmənistan arasında danışıqlar aparılması fikir ayrılıqlarına son qoyub və iki dost ölkə arasında bütün məsələlərin qarşılıqlı maraqlar əsasında həlli üçün etibarlı zəmin yaradıb. Yeri gəlmişkən: Xəzər dənizində geoloji kəşfiyyat işlərinin aparılması, yeni yataqların aşkarlanması bilavasitə Azərbaycan neftçilərinin, geoloqlarının adı ilə bağlıdır.

Ümumiyyətlə, son illərin ən mühüm hadisələrindən biri Xəzər dənizinin hüquqi statusu barədə konvensiyanın imzalanmasıdır. 2018-ci il avqustun 12-də beş sahilyanı dövlətin rəhbərlərinin bu sənədə imza atması çoxtərəfli birgə işin uğurlu nəticəsi idi. Bu gün həmin konvensiya Xəzərdə təhlükəsizliyə və sabitliyə çox kömək edir. Yeni Xəzəryanı ölkələrin sıx qarşılıqlı iqtisadi fəaliyyəti, burada yaşayan xalqların həyat səviyyəsinin getdikcə daha da yüksəlməsi üçün geniş perspektivlər açılır.

Azərbaycan öz Prezidentinin rəhbərliyi ilə konvensiyanın hazırlanmasının bütün mərhələlərində konstruktiv işləmiş, digər Xəzəryanı ölkələrlə yanaşı, onun imzalanmasına töhfəsini vermişdir. Hələ 2010-cu ildə Xəzəryanı ölkələrin dövlət başçılarının Bakıda keçirilmiş III Zirvə toplantısı bölgədə əməkdaşlığın möhkəmləndirilməsi işinə mühüm dəstək olmuşdur.

Sözügedən konvensiya Xəzərdə həmçinin enerji sahəsində əməkdaşlığın yeni mərhələsinin başlanğıcını qoydu. 2019-cu ildə Türkmənbaşı şəhərində keçirilmiş birinci Xəzər İqtisadi Forumunun gedişində Azərbaycan və Türkmənistan arasında məzmunlu və faydalı danışıqlar aparıldı, bir sıra mühüm razılaşmalar əldə edildi. Ümumiyyətlə, son illər ərzində ölkələrimiz arasında münasibətlər müsbət dinamika ilə inkişaf edir. Ali səviyyədə qarşılıqlı səfərlərin xronologiyası da bunu təsdiqləyir.

"Dostluq" yatağının işlənməsi barədə ümumu qərar da bu münasibətlərdən qaynaqlanır. Mütəxəssislər yataqda təqribən 50 milyon tondan çox çıxarıla bilən neft və 30 milyard kubmetrdən çox təbii qaz ehtiyatının olduğunu proqnozlaşdırırlar.

Azərbaycan və Türkmənistan tərəflərinin bu yatağı "Dostluq" adlandırmaq barədə ümumi qərarı da dərin rəmzi məna daşıyır. Çünki anlaşma memorandumunun imzalanması iki ölkənin energetika sahəsində prinsipcə yeni mərhələnin, möhkəm beynəlxalq hüquqi bazaya əsaslanan birgə işin başlanğıcını qoydu ki, bunlar da regiona sistemli və uzunmüddətli əsasda iri xarici investisiyalar axını üçün əlavə ciddi stimullar yaradır. Həm Azərbaycanın, həm də Türkmənistanın milli iqtisadiyyatının dinamik inkişafına, yeni iş yerlərinin yaradılmasına, insanların həyat səviyyəsinin yüksəldilməsinə yeni təkan verilir.

Anlaşma memorandumunun imzalanması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistanın ovaxtkı Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında keçirililən görüşdə dövlətimizin başçısı Azərbaycanın və Türkmənistanın ilk dəfə olaraq Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə birgə işə başlandığını vurğulayaraq belə demişdir: "Bu yataq, həmin yataqdakı iş ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, həm Türkmənistan, həm də Azərbaycan xalqlarına xeyir gətirəcək... Bugünkü imzalama Xəzərin karbohidrogen resurslarının mənimsənilməsində yeni səhifə açır. Bu layihə ölkələrimizin, habelə qonşularımızın enerji təhlükəsizliyinin möhkəmlənməsinə şərait yaradacaq. Bu layihə ixrac üçün böyük imkanlar açır, ona görə də xalqlarımızın rifahının yüksəlməsinə şərait yaradacaq".

Türkmənistan tərəfi də enerji sahəsindəki əməkdaşlığı yüksək dəyərləndirmişdi: "Bu gün Türkmənistan ilə Azərbaycan Respublikası arasında münasibətlər ardıcıl və dinamik inkişaf edir. Biz beynəlxalq arenada ümumi sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinin tərəfdarları kimi uğurla əməkdaşlıq edirik. Bizim ölkələr qlobal gündəliyin prinsipial əhəmiyyətli mövzusu olan enerji təhlükəsizliyi, beynəlxalq enerji axınlarının konfiqurasiyası barədə təsəvvürlər və bütövlükdə dünya energetikasının arxitekturası haqqında eyni fikirdədirlər".

Hər iki ölkənin həyatında əlamətdar olan bu tarixi hadisə, qeyd edildiyi kimi, dostluğun və əməkdaşlığın daha da möhkəmləndirilməsinə istiqamətləndirdi. Başqa sözlə, imzalanan sənəd strateji istiqamətdə - enerji sahəsində Azərbaycan-Türkmənistan tərəfdaşlığının getdikcə genişlənməsinə xidmət edir ki, bunun üçün də zəruri olan bütün şərtlər mövcuddur. Yəni həm siyasi iradə, həm yüksəksəviyyəli texniki və texnoloji təchizat, peşəkar kadrlar və neft-qaz sahəsində zəngin iş təcrübəsi var. Xəzərdə birgə uğurlu fəaliyyətin əsas rəhni isə Azərbaycan və türkmən xalqlarının çoxəsrlik möhkəm qardaşlıq telləridir.

Elə keçən ay Aşqabadda Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) Türkmənistandakı nümayəndəliyinin açılması da bunu təsdiqləyir.

***Flora SADIQLI, "Azərbaycan"***

## Azərbaycan-İran sərhədində dəmir yolu xəttinin birləşdirilməsinə 500 milyon dollar xərclənəcək

**İran Azərbaycanla münasibətləri hərtərəfli şəkildə inkişaf etdirmək və Araz yol dəhlizi razılaşmasını icra etmək niyyətindədir. Trend-in məlumatına görə, bunu İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi İran KİV-ə verdiyi açıqlamada deyib.**

"Hazırda biz yeni Qafqazı müşahidə edirik və Cənubi Qafqazın dünya ticarətinin tranzit məkanına çevrildiyi yeni şəraitdə İran aktiv rola sahib olmalıdır", - S.A.Musəvi bildirib. Musəvi əlavə edib ki, bu istiqamətdə İran və Azərbaycan arasında Araz yol dəhlizinin yaradılması üzrə razılaşma çox önəmli fürsətdir:

"İran milli və beynəlxalq səviyyədə bu razılaşmanın icra olunmasına çalışır. Araz yol dəhlizi hər iki ölkə tərəfindən dəstəklənir. Son vaxtlar



Azərbaycan-İran sərhədində Ağbənd-Kələlə körpüsünün tikilməsi üzrə Azərbaycan 8 milyon dollar dəyərində vəsait ayırıb. Eyni zamanda gələcəkdə Ağbənd istiqamətindən iki ölkə dəmir yolunun birləşdirilməsinə Azərbaycan 500 milyon dollar vəsait xərcləyəcək".

Musəvi bildirib ki, Azərbaycanın Qarabağı tam şəkildə azad etməsindən sonra Cənubi Qafqazda sülhün yaranması üçün müxtəlif ideyalar irəli sürülür: "Bu arada, Qərb ölkələri öz yanlış ideyalarına əsasən, İranı bu bölgədəki proseslərdən uzaqlaşdırmağa çalışırdılar".

# Bakıya il ərzində ən azı 150 milyon ton... oksigen lazımdır

### Paytaxtın yaşıllıq zolaqları bunu "istehsal" edə bilirmi

**Bəşəriyyəti rahatsız edən qlobal problemlərdən biri də iqlim dəyişiklikləridir. İqlim dəyişiklikləri nəticəsində canlı aləmə dəyən mənfi təsirlər insanı düşündürməyə bilmir. Tez-tez dəyişən qeyri-sabit hava şəraiti təkcə Azərbaycanda deyil, dünyanın başqa ölkələrində də bəzən həll oluna bilməyən problemlər yaradır.**

Mütəxəssislərin dediyinə görə, son 100 ildə Yer kürəsində orta temperatur 0,8 dərəcə yüksəlib. Okeanın səthi əvvəllər 1000 metr dərinliyə qədər qızırdısa, indi bu göstərici 2000 metrə çatır. Temperaturun artması isə əsasən antropogen amillərlə bağlıdır. Belə amilləri əsasən istilik effekti verən qazlar - karbon, metan, azot oksidi, azot bir oksid və xlor-fülor birləşmələr yaradır. Nəticədə tufan, çovğun və fırtınaların intensivliyi artıb, isti küləklər, qasırğa və yağıntılar güclənib, sel, daşqın kimi fəlakətlərin sayı çoxalıb. Su ehtiyatları öz normal ekoloji durumunu itirdiyi üçün bioloji müxtəliflik də zəifləyib.

Təbii fəlakətlərlə yanaşı, sənaye, kənd təsərrüfatı müəssisələri, müharibələr, nüvə-raket sınaqları, kosmosda aparılan elmi tədqiqatlar, nəqliyyat vasitələri, terror aktları da iqlim dəyişmələrini sürətləndirib. Atmosferə səpələnmiş zəhərli və zərərli qazlar ətraf mühiti çirkləndirir, güclü ekoloji fəsadlar törədir. Ən qorxulu təhlükə mənbələrindən olan klassik yanacaq növləri - neft və neft məhsullarından, qazdan, daş kömürdən istifadə də iqlim dəyişmələrinə təsir etməkdə davam edir. Ozon təbəqəsinin deşilməsi, turşulu yağışların peyda olması qlobal problem kimi dünya gündəmindən düşmür. Bu ekoloji problemlərin yaratdığı fəsadlar bəşəriyyət üçün olduqca təhlükədir.

Qlobal iqlim dəyişmələri Azərbaycandan da yan keçməyib. Son 100 ildə ölkə ərazisində orta illik temperaturlar 0,4-1,3 dərəcə selsiyə qədər yüksəlib. Sadalanan fəlakətlər Azərbaycanda da tez-tez baş verir. Odur ki, iqlim dəyişkənliyinə "qapı açan" ekoloji problemlərin aradan qaldırılması üçün dövlət davamlı tədbirlər həyata keçirir. Məsələn, ekoloji cəhətdən çirklənmiş ərazilər təmizlənir və həmin yerlərdə yaşıllaşdırma zolaqları salınır. Bu iş həm Bakıda, həm də bölgələrdə aparılır və hər il həmin hesaba minlərlə hektar ərazidə yaşıllıq kolu, ağaclar əkilir. Ümumiyyətlə, Azərbaycan regionda yaşıllaşdırma tədbirlərinə görə öndə



gedir. Təkcə ötən il ölkəmizdə 2 milyona yaxın ağac əkilib. Sevindirici haldır ki, bu işdə bütün ölkə vətəndaşları iştirak edirlər.

Yaşıllıq sağlam həyatın mənbəyidir. İnsanın əhvalını yüksəldən, səhhətə müsbət təsir edən, pozitiv ruh yaradan yaşıllıq massivləri nə qədər çox olarsa, ekoloji tarazlıq da bir o qədər az pozular. Ona görə də bütün ölkə boyu gözoxşayan yaşıllıq zolaqlarının salınması, ağacların əkilməsi vacib aksiyalardır. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin imzaladığı bir çox sənəddə yaşıllaşdırma işi də mühüm bir vəzifə kimi önə çəkilir. Çünki ölkəmizin iqtisadi inkişaf konsepsiyasında əsas hədəflərindən biri də ekologiyanın qorunmasıdır. Ona görə də həyata keçirilən yaşıllaşdırma və təmiz istehsal aksiyaları və digər tədbirlər ictimaiyyət tərəfindən razılıqla qarşılanır.

Ulu Öndər Heydər Əliyev də yaşıllıq zolaqlarının salınmasına xüsusi fikir verirdi. Ulu Öndərin təşəbbüsü ilə həm Bakıda, həm də respublikanın digər ərazilərində xeyli yaşıllıq zolaqları salınıb. Amma nə yazıq ki, bu gün bəzən yaşıllıqlara qənim kəsilənlər də tapılır. İşbazlar on illərlə yaşı olan ağacları kəsib yerində çoxmərtəbəli binalar, yaxud hansısa obyekt tikirlər. Ulu Öndər deyirdi ki, bir ağac kəsən sanki mənim bir qolumu kəsir. Ən pisi də odur ki, bu deyimin nə demək olduğunu anlamayan şəxslər bəzən yüngül cərimə ödəməklə canlarını qurtarırlar.

Kütləvi şəkildə ağacların qırılmasına qarşı Prezident İlham Əliyev 2009-cu ildə Bakı və onun ətrafında 3 milyon ağac əkmək təşəbbüsünü irəli sürdü. 2010-cu il isə dövlət başçısının sərəncamı ilə "Ekologiya ili" elan olundu. Ekologiya sahəsində ən çox iş məhz həmin il görüldü. Təkcə Abşeron yarımadasında 5 milyon ağac əkildi. Bakı demək olar ki, ağaclarla qolboyun olmağa başladı. Bu yerdə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın irəli sürdüyü "Hərəyə bir ağac əkək!" təşəbbüsünü də qeyd etmək vacibdir. Təkcə bu deviz ilə keçirilən aksiyalarda milyonlarla ağac və kol əkilib.

Mütəxəssislərin fikrincə, ağaclar çox olan yerlərdə xəstəlik törədən zərərli mikroorqanizmlər 8, zərərli qazlar 5 dəfə azalır. Bir çinar ağacının "istehsal etdiyi" oksigen 58 adama bəhs edir. Bir hektar meşə, yaşıllıq zolağı isə il ərzində 50-70 ton tozu, zəhəri öz "süzgəc"indən keçirir. Məhz bu səbəbdən bütün dünyada, o cümlədən Azərbaycanda meşələrin, yaşıllıq zolaqlarının qorunması, artırılması, onlara vaxtlı-vaxtında qulluq edilməsi diqqət mərkəzində saxlanılır. Nəzərə alsaq ki, 3 milyondan artıq əhalisi olan Bakıda ildə ən azı 150 milyon ton oksigen tələb olunur, o zaman paytaxtımız üçün ağacların, yaşıllıq zolaqlarının nə dərəcədə əhəmiyyətli olduğu hər kəsə aydın olar. Ona görə də ekoloji tarazlığı pozmamaq üçün hər birimiz yeni ağac əkməklə bərabər, həm də onu qorumalıyıq. Bu, bir vətən sevgisidir, vətənpərvərlik borcudur.

Akademik Həsən Əliyev səyahətlərinin birində söhbət etdiyi almandan soruşub: "Nə üçün meyvə bağları deyil, meşə üçün tinglik salırsınız?" Cavabında alman deyib: "Meyvəni başqa ölkələrdən də almaq olar, lakin meşəni heç yerdən gətirmək mümkün deyil".

***Züleyxa ƏLİYEVA, "Azərbaycan"***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Məşğulluğa Dəstək Layihəsi

### AZ-MLSPP-9044-FA/2-GOODS-COC2 Tenderin nəticələri barədə

# bildiriş

### Məşğulluğa Dəstək Layihəsi çərçivəsində 4 lot üzrə 23 aktiv paketinin təchizatı və quraşdırılması üzrə satınalma

**Satınalan təşkilat:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**Layihə:** Məşğulluğa Dəstək Layihəsi
**Müqavilənin adı:** Məşğulluğa Dəstək Layihəsi çərçivəsində 4 lot üzrə 23 aktiv paketinin təchizatı və quraşdırılması
**Ölkə:** Azərbaycan
**Kredit № / Qrant №:** № AZ-9044
**RFQ №:** AZ-MLSPP-9044-FA/2-GOODS-COC 2

Hazırkı bildiriş Məşğulluğa Dəstək Layihəsi çərçivəsində 23 aktiv paketinin təchizatı və quraşdırılması (tələbə uyğun olaraq) üzrə 9 sentyabr 2022-ci il tarixində imzalanmış Çərçivə Sazişi-2-yə müvafiq olaraq keçirilmiş ikinci satınlama prosesini, qiymətləndirmə nəticələrini və müqavilələrin təltif edilməsi məlumatlarını əks etdirir. Aktiv paketlərinin təchizatı üçün Çərçivə Sazişi-2 aşağıdakı müəssisələrlə imzalanmışdır:

1. "Albenafsaj General Trading və Excellent Trade QSC" BM (LOT 1, LOT 2, LOT 3, LOT 4)
2. "Endless Goods QSC və Yasef MMC" BM (LOT 1, LOT 3, LOT 4)
3. "Az Nest" QSC (LOT 1, LOT 2, LOT 3, LOT 4)
4. "Megamax" MMC (LOT 2)
5. "Halal-P" MMC (LOT 2)

Çərçivə Şazışi imzalamış iddiaçılar 27 iyul 2023-cü il tarixində müqavilə imzalanması üçün ən rəqabətli qiymət təklifi təqdim etmələri üçün COC 2-yə dəvət edilmişdir. COC 2 təkliflərinin açılış tarixi və vaxtı 31 avqust 2023-cü il, Bakı vaxtı ilə saat 15:00 müəyyən edilmişdir. Açılış zamanı elan edilmiş qiymətlər aşağıdakı kimidir:

| № | Təchizatçı | Təklif olunmuş qiymətlər (ABŞ dolları) |
|---|---|---|
| 1 | "Albenafsaj General Trading və Excellent Trade QSC" BM | LOT 1 - 7,464,068.52<br>LOT 2 - 3,650,931.21<br>LOT 3 - 9,447,845.82<br>LOT 4 - 12,664,162.56 |
| 2 | "Endless Goods QSC və Yasef MMC" BM | LOT 1 - 7,382,762.87<br>LOT 3 - 10,067,453.20<br>LOT 4 - 13,147,618.71 |
| 3 | "Az Nest" QSC | LOT 1 - 7,544,757.40<br>LOT 2 - 3,523,569.09<br>LOT 3 - 9,649,448.82<br>LOT 4 - 12,381,249.42 |
| 4 | "Megamax" MMC | LOT 2 - 2,550,882.70 |
| 5 | "Halal-P" MMC | LOT 2 - 4,496,095.00 |

Tender komissiyası yekun qiymət təkliflərini qiymətləndirmiş və hər aktiv paketi üzrə ən aşağı qiymət təklifi təqdim etmiş təchizatçılarla müqavilələrin imzalanmasını tövsiyə etmişdir. Uğursuz iddiaçılara tenderin nəticələri haqqında bildirişlər 15-17 noyabr 2023-cü il tarixdə göndərilmişdir. Gözləmə müddəti 15-22 noyabr 2023-cü il tarixləri arasında tətbiq edilmişdir. Bu vaxt ərzində Layihə İcra Qrupuna heç bir şikayət/aydınlaşdırma sorğusu daxil olmamışdır. Gözləmə müddəti bitdikdən sonra qalib gələn iddiaçılara müqavilə imzalanması barədə bildirişlər göndərilmişdir. Keçirilmiş müsabiqə nəticəsində 23-24 noyabr 2023-cü ildə aşağıdakı müqavilələr imzalanmışdır:

1) "Albenafsaj General Trading və Excellent Trade QSC" BM (LOT 1 hissəli) - *Cəmi dəyəri ƏDV daxil olmaqla - 4,467,584.43 ABŞ dolları (dörd milyon dörd yüz altmış yeddi min beş yüz səksən dörd ABŞ dolları və qırx üç sent)*;
2) "Endless Goods QSC və Yasef MMC" BM (LOT 1 hissəli) - *Cəmi dəyəri ƏDV daxil olmaqla - 2,894,375.04 ABŞ dolları (iki milyon səkkiz yüz doxsan dörd min üç yüz yetmiş beş ABŞ dolları və dörd sent)*;
3) "Megamax" MMC (LOT 2) - *Cəmi dəyəri ƏDV daxil olmaqla - 2,550,882.70 ABŞ dolları (iki milyon beş yüz əlli min səkkiz yüz səksən iki ABŞ dolları və yetmiş sent)*;
4) "Albenafsaj General Trading və Excellent Trade QSC" BM (LOT 3) - *Cəmi dəyəri ƏDV daxil olmaqla - 9,447,845.82 ABŞ dolları (doqquz milyon dörd yüz qırx yeddi min səkkiz yüz qırx beş ABŞ dolları və səksən iki sent);*
5) "Az Nest" QSC (LOT 4) - *Cəmi dəyəri ƏDV daxil - 12,381,249.42 ABŞ dolları (on iki milyon üç yüz səksən bir min iki yüz qırx doqquz ABŞ dolları və qırx iki sent).*

**Beləliklə, Çərçivə Sazişi-2 COC 2-nin ƏDV daxil cəmi dəyəri 31,741,937.40 ABŞ dolları (otuz bir milyon yeddi yüz qırx bir min doqquz yüz otuz yeddi ABŞ dolları və qırx sent) təşkil etmişdir.**

## Ministry of Labor and Social Protection of Population Employment Support Project

### AZ-MLSPP-9044-FA/2-GOODS-COC2 AWARD

# NOTICE

### Procurement of Supply and installation of 23 asset packages in 4 lots under the Employment Support Project

**Purchaser:** Ministry of Labor and Social Protection of Population
**Project:** Employment Support Project
**Contract title:** Procurement of supply and installation of 23 asset packages in 4 lots under the Employment Support Project
**Country:** Azerbaijan
**Loan No. /Credit No. / Grant No.:** No. AZ-9044
**RFQ No:** AZ-MLSPP-9044-FA/2-GOODS-COC 2

This notice includes the results of the bid evaluation and contract awards for the RFQ process for the Supply and installation (as required) of 23 asset packages following Framework Agreement-2 (FA/2) signed on September 09, 2022 under the Employment Support Project. Framework Agreement-2 for procurement of assets was signed with the following Bidders:

1. Joint Venture of "Albenafsaj General Trading and Excellent Trade CJSC" (LOT 1, LOT 2, LOT 3, LOT 4)
2. Joint Venture of "Endless Goods CJSC and Yasef LLC"(LOT 1, LOT 3, LOT 4)
3. "Az Nest" CJSC (LOT1, LOT 2, LOT 3, LOT 4)
4. "Megamax" LLC (LOT 2)
5. "Halal-P" LLC (LOT 2)

Awarded Bidders were invited to COC 2 on July 27, 2023. The opening date and time for COC-2 proposals were August 31, 2023, 15:00 Baku time. The red-out bid prices are as follows:

| No. | Name of Bidder | Bid Price as Read Out (USD) |
|---|---|---|
| 1 | Joint Venture of "Albenafsaj General Trading and Excellent Trade CJSC" | LOT 1 - 7,464,068.52<br>LOT 2 - 3,650,931.21<br>LOT 3 - 9,447,845.82<br>LOT 4 - 12,664,162.56 |
| 2 | Joint Venture of "Endless Goods CJSC and Yasef LLC" | LOT 1 - 7,382,762.87<br>LOT 3 - 10,067,453.20<br>LOT 4 - 13,147,618.71 |
| 3 | "Az Nest" CJSC | LOT 1 - 7,544,757.40<br>LOT 2 - 3,523,569.09<br>LOT 3 - 9,649,448.82<br>LOT 4 - 12,381,249.42 |
| 4 | "Megamax" LLC | LOT 2 - 2,550,882.70 |
| 5 | "Halal-P" LLC | LOT 2 - 4,496,095.00 |

The Tender Committee evaluated the final prices and recommended the contracts to be signed. The notification of tender results was issued to the unsuccessful Bidders on November 15-17, 2023. The standstill period was applied from November 15 to November 22, 2023. No any complains/clarification requests were received. After expiry of standstill period the Letter of award to successful bidders were issued. As a result of COC-2 the following contracts were signed in November 23-24, 2023:

1) Joint Venture of "Albenafsaj General Trading and Excellent Trade CJSC" (LOT 1 Partial) - Total cost including VAT - USD 4,467,584.43 *(four million four hundred sixty-seven thousand five hundred eighty-four United States dollars and forty-three cents)*;
2) Joint Venture of "Endless Goods CJSC and Yasef LLC" (LOT 1 Partial) - Total cost including VAT - USD 2,894,375.04 *(two million eight hundred ninety-four thousand three hundred seventy-five United States dollars and four cents)*;
3) "Megamax" LLC (LOT 2) - Total cost including VAT - USD 2,550,882.70 *(two million five hundred fifty thousand eight hundred eighty-two United States dollars and seventy cents)*;
4) Joint Venture of "Albenafsaj General Trading and Excellent Trade CJSC" (LOT 3) - Total cost including VAT - USD 9,447,845.82 *(nine million four hundred forty-seven thousand eight hundred forty-five United States dollars and eighty-two cents)*;
5) "Az Nest" CJSC (LOT 4) - Total cost including VAT - USD 12,381,249.42 *(twelve million three hundred eighty-one thousand two hundred forty-nine United States dollars and forty-two cents).*

**Total cost of FA2 COC 2 including VAT is 31,741,937.40 (thirty-one million seven hundred forty-one thousand nine hundred thirty seven United States Dollar and forty cents).**

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti yanğınsöndürmə avadanlıqlarının satın alınması məqsədilə

### *müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 11 dekabr 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən 04.11.2023-cü il tarixdə "Bioenerjidən istifadə imkanlarının genişləndirilməsi üzrə pilot layihələrin müəyyənləşdirilməsi üçün məsləhətçi şirkətin cəlb edilməsinə dair" işlərin satın alınması ilə bağlı elan edilmiş təkliflər sorğusunda iddiaçıların sayı üçdən az olduğundan "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1 bəndinə əsasən təkliflər sorğusunun davamından imtina edilmişdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən 04.11.2023-cü il tarixdə "Bərpa olunan enerji mənbələri üzrə informasiya sisteminin yaradılması və potensial ərazilərə dair ölçü müşahidə işlərinin təşkil edilməsi üçün məsləhətçi şirkətin cəlb edilməsinə dair" işlərin satın alınması ilə bağlı elan edilmiş təkliflər sorğusunda iddiaçıların sayı üçdən az olduğundan "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1 bəndinə əsasən təkliflər sorğusunun davamından imtina edilmişdir.

***Tender komissiyası***

# Bakıda sovet əsgərlərinin məzarları olan yerlərdə ənənəvi təmizlik işləri aparılıb

**Bakıdakı Rus evinin nümayəndələri Azərbaycanın Rus İcması, Azərbaycan Rus Gəncləri Assosiasiyası, "Yaşlek" Azərbaycan-Tatar Gəncləri Mərkəzi və kütləvi informasiya vasitələri təmsilçiləri ilə birlikdə Bakının Yasamal qəbiristanlığında hərbi memorial dəfn ərazisində ənənəvi təmizlik işləri aparıblar.**



Bu barədə AZƏRTAC-a Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin mətbuat xidmətindən bildiriblər.

İkinci Dünya müharibəsi zamanı həlak olmuş hərbçilərin torpağa tapşırıldığı yerə gül dəstələri düzülüb.

Naməlum Əsgər Gününü qeyd edən Rusiya Federasiyası və dünyanın bir sıra başqa ölkələrində İkinci Dünya müharibəsində həlak olmuş hərbçilərin xatirəsi anılır.

Azərbaycan həmin müharibə illərində çox mühüm rol oynayıb, cəbhə xəttinə və arxa cəbhəyə neft məhsulları, geyim və ərzaq məhsulları tədarük edib. Ölkəmizin ərazisində onlarla hərbi hospital fəaliyyət göstərib, burada həyatını itirən əsgərlər isə Azərbaycan torpağında dəfn ediliblər.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi professor **YALÇIN ƏLİZADƏNİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Professor Raqib Quliyev Göyçaydan dostu **SEYRAN BEYDULLAYEVİN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*
contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 5270
Sifariş 3204
Qiyməti 40 qəpik